**AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİLNAZİRLİYİ**

**Azərbaycan Texnologiya Universiteti**

# İNNOVASİYALI İQTİSADİYYAT VƏ MENECMENT

№ 1 2024

**Baş redaktor:**

**Yaşar Adil oğlu Ömərov, dosent**

**Redaksiya heyəti**

**Baş redaktorun müavini:**
**Raqif Tofiq oğlu Hüseynov i.f.d., dos.**

Prof. Dr. Patrick Siegfried, Trier Tətbiqi Elmlər Universiteti, Almaniya
Prof. Dr. Anikó Khademi-Vidra, Macarıstan Kənd Təsərrüfatı və Təbiət Elmləri Universiteti, Macarıstan
Prof. Dr. Alina Danıłowska, Varşava Təbiət Elmləri Universiteti, Polşa
Prof. Dr. Murat Kızıldağ, Mərkəzi Florida Universiteti, ABŞ
Prof. Dr. Andrei Jean, Rumıniya Milli Elmlər Akademiyası, Rumıniya
Prof. Dr. Julia Galchynska, Ukrayna Milli Təbiət və Ətraf Mühit Elmləri Universiteti, Ukrayna
Prof. Dr. Ercan Özen, Uşak Universiteti, Türkiyə

**Məsul katib:**
**Qalibə Rza qızı Məmmədova t.f.d., dos.**

Rəsmiyyə Abdullayeva, prof., ETN, İqtisadiyyat İnstitutu
Şahin Xurşudov, dos., GDU
Afəddin Həmidov, dos., GDU
Məhərrəm Hüseynov, prof., ADAU
Veysəl Eyyubov, prof., MDU
Fizuli Məmmədov, prof., ATU
Yusif Hümbətov, prof., ATU
Sakit Yaqubov, prof., UNEC
Şaiq Əsgərov, dos., UNEC
Kərimov Mehman İlham o.,i.f.d.(xarici dil üzrə mütəxəssis)

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınıb: Reyestr №4155**

**Azərbaycan Texnologiya Universitetinin Elmi Şurasının qərarı ilə çap olunur**

**Jurnal aşağıdakı Beynəlxalq elmi məlumat bazalarına daxildi:**

*International Scientific Indexing (ISI), International Institute of Organized Research (I2OR), Journal factor, Cite factor, Academic Scientific Journals, Scientific Indexing Services*

**Print** – 2616-8626

*Innovasiyali iqtisadiyyat və menecment №1, 2024, 121- səh.*

№ 1/2024

## MÜNDƏRİCAT– СОДЕРЖАНИЕ - CONTENTS

E.C.Zeynallı, L.İ.Bayramova, S.V.Əkbərova, M.B.Məmmədova Heyətin idarə edilməsinə iqtisadi metodların təsiri........ 4
K.N.Quliyeva Elmin istehsalata effektiv şəkildə tətbiqi xüsusiyyətləri........ 11
K. R.Həsənova Xidmət axınları və onların iqtisadi mahiyyəti........ 16
S.T.Hacıyeva, L.İ.Bayramova,V.F.Cənnətova,M.B.Məmmədova Kütləvi informasiya vasitələrində insan resurslarının inkişaf istiqamətləri........ 24
X. M.Ağayeva, S. E.Məhərrəmova Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının maliyyə mənbələri........ 32
S.Y.Məmmədov İqtisadiyyatın şaxələndirilməsi istiqamətində qeyri-neft sektorunun xüsusi çəkisinin artmasında kənd təsərrüfatinin rolu........ 39
N.İ.Qasımzadə Tikinti sektorunun inkişafında kredit alətlərinin strukturu və qarşılıqlı təsiri........ 45
K.S.Dadaşova, Q. Ə.Quluzadə Yüngül sənaye məhsulları üzrə istehsal müəssisələrinin metroloji təminatının tədqiqi məsələləri........ 54
Q. H.Əsgərov, A.N.Həsənov Aqrar turizmin mahiyyəti və inkişafını şərtləndirən amillər........ 60
K. S.Cabbarova, E. A.Əliyev Beynəlxalq ticarətin müasir inkişaf perspektivləri........ 64
A.A.Tağıyev Xarici investisiya transferlərinin prioritet istiqaməti olaraq qeyri-neft sektorunun perspektivləri: Azərbaycan nümunəsi........ 70
N.E.Həsənova İxracin genişləndirilməsinin qeyri-neft iqtisadiyyatının inkişafinda rolu........ 79
M. E.Mustafayev Biznes modellərinin rəqəmsal transformasiyası: təsiredici faktorlar və əsas tendensiyalar........ 84
S. E.Aliyeva The Impact of the dıgıtal economy on enterprıse ınnovatıon: the case of Azerbaijan. 92
C. M.Abdullayev "IV sənaye inqilabi" modelini tətbiq edən ölkələrin xidmət sahələrindəki təcrübəsinin müqayisəli təhlili........ 102
S.S.Məhərrəmova, A.Y.Hüseynova Sənaye müəssisələrində integrasiya olunmuş idarəetmə sistemlərinin xüsusiyyətləri........ 110
S.M.Mammadov,I.V.Karimov Management of foreign exchange reserves in Azerbaijan………… 115
A. R.İlyasov Ali təhsil müəssisələrinin strateji idarəetmə və keyfiyyət təminatı ilə bağlı güclü və zəif tərəfləri........ 123

№ 1/2024 səh.4-10

UOT 330.36
DOI: 10.30546/JIECM.2024.1.03.

# HEYƏTİN İDARƏ EDİLMƏSİNƏ İQTİSADİ METODLARIN TƏSİRİ

**[1]Elay Cəlal oğlu Zeynallı, [2]Lamiyyə İlyas qızı Bayramova,**
**[3]Sevinc Vaqif qızı Əkbərova, [4]Mələk Baba qızı Məmmədova**

**Azərbaycan Texnologiya Universiteti**

utecalamiya@gmail.com

***Xülasə.****Yaradılan, eləcə də, fəaliyyətdə olan müəssisələrin bir çoxu az müddətdə sıradan çıxaraq müflisləşir və iflasa uğrayır. Bunun əsas səbəblərindən biri çox zaman müəssisə fəaliyyətinin geniş və əhatəli heyətin idarə edilməsinin düzgün olmamasıdır. Əlbəttə "heyətin idarə edilməsi" dedikdə inzibati amirlik sistemindən bizə miras qalmış "direktiv idarəetmə" nəzərdə tutulmur. Qarışıq iqtisadi münasibətlər şəraitində "idarəetmə" anlayışı mahiyyətcə yeni məna kəsb edir. İnzibati-amirlik sistemindən fərqli olaraq, bazar münasibətləri şəraitində təşkilatlarda idarəetmə mövcud mühit dəyişikliklərinə və bəzi amillərin təsirinə uyğun olaraq çevik surətdə dəyişdirilə bilər.*

*Belə müəssisədaxili heyətin idarə edilməsinin işlənib hazırlanması və onun çevikliyinin təmin edilməsi günün ən vacib problemlərindən biridir. Digər tərəfdən müəssisə və təşkilatlarda iqtisadi metodların təkmilləşdirilməsi prosesi çox böyük sürətlə gedir. Bununla əlaqədar olaraq müəssisə və təşkilatların rəhbərliyinə yeni-yeni adamlar gəlir ki, onların, eləcə də inzibati amirlik şəraitində işləmiş rəhbərlərin gündəlik fəaliyyətlərində rastlaşdıqları müəssisə və təşkilatların idarəedilməsi üzrə müxtəlif xüsusiyyətli çətinliklərlə üzləşirlər.*

***Açar sözlər:*** *idarəetmə, heyət, əmək haqqı, işçi qüvvəsi, kadr şöbəsi.*

**Giriş.**Tarixi inkişafın hər bir dönəmində insan faktoru müəssisələrin başlıca hərəkətverici qüvvəsi olmuşdur. Həm istehsal, həm də xidmət sahələrində təşkilatın fəaliyyətinin nəticəsində müvəffəqiyyətlərin əldə olunması insanın rolunu danılmaz etmişdir. Bu isə öz növbəsində idarəetmədə yeni bir sahənin- müəssisənin işçi heyətinin idarə edilməsinin formalaşdırılması məsələsini aktuallaşdırmışdır.

İdarəetmə elminin xüsusi bir sahəsi olan HİE sahəsində kollektivin fəaliyyətinə təsir vasitəsi kimi rəhbərlik tərəfindən bir sıra metodlardan istifadə edilir. Həmin metodları aşağıdakı kimi qruplaşdırmaq olar:

İqtisadi metod: Heyətin maddi təminatının yaxşılaşdırılması, əməyin ödənişinin maliyyələşdirilməsi, əməkdaşların sosial ehtiyaclarının qarşılanması, motivasiya tədbiri kimi iqtisadi baxımdan həvəsləndirici sistemlərin tətbiqi kimi təsir vasitələri iqtisadi metodda əks olunmuşdur;

İnzibati metod: Təşkilatda kadrların idarə edilməsinə birbaşa təsiredici vasitə olan bu metod kollektiv tərəfindən məcburi qəbul edilən, yüksək səviyyədə tələbkarlıqla həyata keçirilən, işçiləri nizam-intizam qaydalarına əməl etməyə, fəallığa sövq edən inzibati tədbir və üsulların məcmusudur. Rəhbərlik tərəfindən verilən əmr, göstəriş və tapşırıqların verilməsi ilə kollektivin məhsuldarlığı və ona nəzarət artır[1];

Sosial-psixoloji metod: İdarə olunan heyətin mənəvi-psixoloji keyfiyyətlərinin artırılmasına yönəldilmiş qeyd edilən metod bir sıra sosial, eləcə də psixoloji təsir və vasitələrinin köməyi ilə heyətdə sağlam iş mühitinin yaranmasına, davamlılığına, həmçinin kollektivin şəxsi inkişafı, təşkilatdakı qayda, kodekslərə riayət etmək kimi məsələləri özündə ehtiva edir.

Ən geniş mənada idarəetmə sabitləşmə və ya onun vəziyyətinin dəyişilməsi məqsədi qarşıya qoyulan hədəfə nail olmaq üçün məqsədyönlü təsiri təşkil edir. İdarəetməyə ehtiyac onu miqyasının artırılması, istehsalın ixtisaslaşma inkişafı ilə yaranır. O, istehsalatda çalışan bir çox insanların fəaliyyətini tənzimləmək və razılaşdırmağa imkan verir.

İdarəetmə – bu təşkilatın məhsul istehsal prosesində əmək kollektivlərinin və ayrı-ayrı işçilərin fəaliyyətinin təşkili və əlaqələndirilməsinə yönəldilmiş insanların xidməti əməyinin göstərilməsidir. O hər şeydən əvvəl insanların birgə fəaliyyətinin təşkili ilə bağlıdır. Həmçinin bu, insanların şəxsiyyət və müəssisəsi arasında münasibətlərin qurulması ilə razılaşdırılmış fəaliyyətin tənzimlənməsi ilə əlaqədardır.

İdarəetməyə ehtiyac onun miqyasının artırılması, istehsalın ixtisaslaşma inkişafı ilə yaranır. O, istehsalatda çalışan bir çox insanların fəaliyyətini tənzimləmək və razılaşdırmağa imkan verir.

İdarəetmə – bu təşkilatın məhsul istehsalı prosesində əmək kollektivlərinin və ayrı-ayrı işçilərin fəaliyyətinin təşkili və əlaqələndirilməsinə yönəldilmiş insanların xidməti əməyinin göstərilməsidir. O, hər şeydən əvvəl insanların birgə fəaliyyətinin təşkili ilə bağlıdır. Həmçinin bu, insanların şəxsiyyət və müəssisəsi arasında münasibətlərin qurulması ilə razılaşdırılmış fəaliyyətin tənzimlənməsi ilə əlaqədardır. İdarəetmənin hədəfi istehsalın arzu olunan və mümkün vəziyyətinin nailiyyəti üçün iş qüvvəsinin və məhdudlaşdırılmış resursların effektiv istifadəsi ilə nəticələnir[2].

Son vaxtlara qədər "heyətin idarəetməsi" anlayışı bizim idarəetmə təcrübəmizdə iştirak etmirdi. Müəssisənin işçi heyəti muzdla işləyən, keyfiyyət xarakteristikalarına və işə götürən əmək münasibətlərinə malik olan şəxsi heyətdir. Bildiyimiz kimi hər təşkilatın idarəetmə sistemləri kadrların idarə edilməsi funksional alt sisteminə malikdir və kollektivin sosial inkişafı üzrə iş həcminin çox hissəsini kadrların idarə edilməsi üzrə bölmənin xətti rəhbərləri yerinə yetirirlər. Kadr şöbəsi təşkilatda kadrların idarəetməsi üzrə əsas struktur bölmədir, hansı ki, işə qəbul və kadrların çıxardılması üzrə, həmçinin təlimin (təhsilin) təşkili üzrə funksiyaların yerinə yetirilməsi, ixtisasın artırılmaları və kadrların yenidən hazırlanması üzrə fəaliyyəti həyata keçirir.

Təşkilatlarda sosial problemlərin həlli üçün sosial tədqiqatın və xidmətin aparılması mərkəzləri yaradılır. Heyətin idarə edilməsinin xidmətləri bir qayda olaraq, aşağı təşkilat statusuna malikdir, peşəkar yanaşmada zəifdirlər. Buna əsasən onlar heyətin idarəetmə və onun işinin normal şəraitinin təminatı üzrə bir sıra məsələ yerinə yetirmirlər.

Hal-hazırda işçinin şəxsiyyətinin artan rolu təşkilatda heyətin idarə edilməsi konsepsiyasının əsasını təşkil edir. İşçinin bacarığını, biliyini onun artan motivasiya ilə formalaşdırmaq və təşkilat qarşısında duran məsələlərə uyğun olaraq yönəltmək bu konsepsiyanın məzmununu təşkil edir.

Bizim ölkəmizdə iqtisadi və siyasi sistemlərdə dəyişikliklər, eyni zamanda böyük imkanlara gətirir, həm də hər bir şəxsiyyət üçün ciddi təhlükələr, onun mövcudluğunun sabitliyi, praktik olaraq hər insanın həyatına qeyri-müəyyənliyini əhəmiyyətli dərəcədə artırır. Belə vəziyyətdə heyətin idarəetməsi xüsusi əhəmiyyət kəsb edir, bir halda ki, təşkilatın personalı ilə idarəetmə sisteminin qurulmasında şəxsi amilin hesabı onu reallaşdırmağa, xarici şəraitə individin uyğunlaşması məsələlərinin tam spektrini ümumiləşdirməyə icazə verir[4].

Bazar iqtisadiyyatında iyerarxiya idarəetməsindən yavaş çəkilmə baş verir, inzibati təsirin sərt sistemi, bazarlara praktik olaraq qeyri-məhdud icra hakimiyyətinə münasibət, iqtisadi metodlara əsaslanan mülkiyyət münasibətlərinə deformasiya edir. Buna görə də, hazırlanan dəyərlərin prioritetinə prinsipial olaraq yeni yanaşmalar lazımdır. Təşkilatın daxilində— işçilər və xaricində — məhsulun istehlakçıları əsas fiqurlardır. İstehlakçıya işləyən şüuru çevirmək lazımdır və bu, o deməkdir ki, müdirə, gəlirə və bədxərcliyə, təşəbbüskara və qayğısız icraçıya əsas diqqət mərkəzindən kənarlaşmalıdır. Əxlaqı unutmadan ağıllı iqtisadi mənafeyə əsaslanan sosial normalara keçmək əsas hədəflərdən sayılmalıdır. Belə olan halda iyerarxiya mədəniyyətə və bazara yer verərək ikinci plana çəkiləcəkdir.

Müasir dövrdə təşkilatlarda heyətin idarə edilməsinin yeni xidmətləri yaradılır. Bunlar bir qayda olaraq, ənənəvi xidmətlər əsasında: kadr şöbəsi, mühasibatlıq, əməyin ölçülməsi, əməyin qorunması, texniki təhlükəsizliyin təşkili şöbələri və başqaları sayılır. Yeni xidmət məsələləri kadr siyasətinin reallaşdırılması və təşkilatda əmək resurslarının idarəetməsi üzrə fəaliyyətin koordinasiyası ilə nəticələnir. Bununla əlaqədar olaraq onlar öz funksiyalarının dairəsini genişləndirməyə başlayırlar və təmiz kadr məsələlərindən əmək fəaliyyətinin stimullaşdırılması sistemlərinin hazırlamasına keçirlər,

həmçinin peşəkar irəliləyişi idarə etməyə, münaqişələrin qarşısının alınmasına, əmək resursları bazarının öyrənilməsinə və s. istiqamətlərə yönəlmiş fəaliyyətlərini həyata keçirirlər.

Heyətin idarə edilməsi konsepsiyası dedikdə heyətin idarə edilməsinin mahiyyətini, məzmununu, məqsədini, vəzifələrini, meyarlarını, prinsip və metodlarını dərketməyə və müəyyənləşdirməyə, həmçinin konkret şəraitdə təşkilatın fəaliyyət göstərməsi mexanizminin formalaşmasına təşkilati-təcrübi yanaşmaya yönəlmiş nəzəri – metodoloji baxışlar sistemi nəzərdə tutulur. O, özündə: heyətin idarə edilməsinin metodologiyasının işlənib hazırlanmasını, heyətin idarə edilməsi sisteminin formalaşdırılması və heyətin idarə edilməsi texnologiyasının işlənib hazırlanmasını birləşdirir.

İdarəetməyə iqtisadi yanaşma əmək resurslarından istifadənin konsepsiyasının başlanğıcını verir. Bu yanaşma çərçivəsində aparıcı yeri texnika və müəssisədə insanların idarəçilik hazırlığı tutur. Əslində təşkilat mexanizm kimi insan, heyət bu mexanizmin müəyyən vinti kimi çıxış edir, hansı ki, işləməyə çox məcburdur.

Heyətin iş fəaliyyətinin keyfiyyəti onun işçi qruplarının fəallığından asılıdır. Bu baxımdan rəhbərlər işçi qruplarını daha çox stimullaşdırmaqla maksimum əmək məhsuldarlığına nail olmağa çalışırlar. Heyətin əmək fəallığının artırılmasının yollarından biri kimi iqtisadi metodlardan xüsusilə əmək haqqı, mükafatlandırma, bir sıra müxtəlif təyinatlı yardımlardan istifadə etməklə işçi qüvvəsinin tələblərini ödəməkdir. Bu nöqteyinəzərdən heyətin idarə edilməsində tələbat məfhumuna diqqət yetirək. Tələbat insan fəaliyyətinə daim təsir göstərir və onu fəallaşdırır. O, daim dəyişir, təkmilləşir, artır, yenilənir. Tələbatları əsasən üç qismə ayırmaq olar: maddi, sosial və mənəvi. Bunların hər birinin özünə məxsus ödənilmə şərtləri vardır. Bu tələbatlar cəmiyyətin mövcud iqtisadi sistem və imkanları daxilində müxtəlif üsul və vasitələrlə ödənilə bilər[6].

İstənilən elmi nəzəriyyə öz inkişafını bir neçə mərhələdə göstərir. Şübhəsiz,formalaşmanın sonrakı mərhələlərinə formalaşmanın ilk mərhələsindən nəzəriyyə dolğun şəkildə dəyişir. Müasir idarəetmə nəzəriyyələrinə müəssisənin təşkilati inkişafı ilə baxsaq görərik ki, sonun rəsmiləşdirilməsinin prosesi aşkar bilinir. Elmi yanaşmaların müxtəlifliyi, məktəblər, istiqamətlər öz predmetiylə və alətlər dəstiylə təşkilati inkişafın idarəetməsi haqqında elmi biliklər sistemi üçün əsas yaradır, buna görə də, biz təşkilatın və onun inkişafının idarəetmə problemlərinin tədqiqatına kompleks yanaşmaya diqqəti nəzərə çarpdırmalıyıq.

Heyətin idarəetmə konsepsiyası nisbi müstəqilliyin olduğu şəraitdə "intizamın təşkil edilməsi" və öz aralarında qarşılıqlı təsir edən müxtəlif bilik sahələri daxilində inkişaf etdirilir.

Heyətin idarə edilməsinin iki səviyyəsi arasında sıx qarşılıqlı əlaqə mövcuddur: bir tərəfdən, nəzəriyyə konkret analizin və planlaşdırmanın metodologiyası ilə çıxış edir, digəri tərəfdən tətbiqi tədqiqatların məlumatları, fərziyyələrin qurulması və nəzəriyyənin inkişafı üçün sınaqları təşkil edir.

Beləliklə, heyətin idarəetməsi müəssisədə bütün proseslərə təsir edən onun bütün təzahürlərinin birliyində insanı öyrənir, bütün onun potensialının effektiv istifadəsinə onun cəlb etməsində yollarını təhlil edir.

Heyətin idarə edilməsində qavrama prosesinin anlaşılması üçün bilmək lazımdır ki, anlamada əsas məsələ - vəziyyətin unikal təvsiridir, lakin dəqiq əksi deyil. Başqa sözlə desək, anlama kifayət qədər mürəkkəb proses olaraq, dünyanın unikal mənzərəsini formalaşdırır, lakin bu mənzərə reallıqdan xeyli uzaq ola bilər. Anlama prosesini - seçim, sistemləşdirmə və təfsir proseslərinin mürəkkəb qarşılıqlı əlaqəsi kimi xarakterizə etmək mümkündür. Anlama əksər halda «çiy» məlumatların alınması mənbəyi olan hissiyyat orqanlarından asılı olsa da, idrak prosesi onları filtrləmək, modifikasiya etmək, hətta ilkin məlumatları tamamilə dəyişdirmək iqtidarındadır.

Heyətin idarə edilməsi metodları-kollektivə və ayrıca işçilərə onların təşkilatdakı fəaliyyətlərinin koordinasiyasının həyata keçirilməsi məqsədi ilə təsir üsullarıdır.

İdarəetmənin iqtisadi metodları istehsal münasibətlərinin, obyektiv iqtisadi qanunların , kateqoriyaların dərindən başa düşülməsi, onlardan geniş istifadə olunması və ümumxalq, kollektiv və şəxsi marağın vahid sisteminin təmin edilməsinə əsasən həyata keçirilir. Bu metodun köməyi ilə planlaşdırma, təsərrüfat hesabı, əmək haqqı, qiymət, kredit, mənfəət, maddi həvəsləndirmə və başqa mexanizmlər məqsədyönlü təsirə çevrilir.

№ 1/2024 səh.4-10

Təsərrüfatın iqtisadi mexanizmi olan əmək haqqı, qiymət, kredit, mənfəət, maliyyələşmə, mükafatlandırma, iqtisadi metodun mexanizminə daxildir. Bu sistemə daxil olan iqtisadi vasitələrlə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində kollektivin və onun ayrı-ayrı üzvləri arasında maddi həvəs yaratmaq, istehsalın səmərəliliyini artırmaq imkanı əldə edilir.

Real iqtisadiyyatın formalaşmasının ən başlıca struktur komponentlərindən sayılan xüsusi təşkilatların fəaliyyəti ilk növbədə sivilizasiyalı iqtisadiyyatın real sarsılmaz bazasıdır.

İqtisadiyyatın inkişafı dinamikdir, yəni o, daim hərəkətdədir. . O, daxili və xarici amillərin təsiri nəticəsində daim dəyişikliyə məruz qalır. Öz vaxtında bu dəyişiklikləri məqsədəuyğun yoluna salmaq, dəyişən şəraitə uyğun olaraq sistemin strukturunda yenidənqurmanı həyata keçirmək işini təmin etmək, qaydaya salmaq heyətin idarəetməsinin vəzifəsidir. Bu isə, iqtisadi sistemi onun özünə xas olan obyektiv qanunauyğunluqlara və meyillərə uyğun hala gətirmək deməkdir.

Əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar olaraq çoxlu yeni sahələr, yarımsəhralar yarandı, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda əmək bölgüsü dərinləşdi. Əlaqələr son dərəcə mürəkkəbləşdi. Buna görə də çoxlu və mürəkkəb əlaqələri nizamlamaq, sistemli idarə etmək zərurəti yarandı.

Müasir idarəetmə iqtisadi münasibətlərin məqsədəuyğun təşkil edilməsini istiqamətləndirir və elmi idarə etməyə əsaslanır. O, tamın ayrı-ayrı hissələri arasındakı əlaqəni təmin edən bir proses, milli və şəxsi mənafelərin əlaqələndirilməsini həyata keçirən mexanizmdir.

Müasir dövrdə ölkəmizdə idarəetmə yüksək şüurlu münasibətə əsaslanır. Bu isə elmə söykənir. Buna görə də elmilik idarəetmənin prinsiplərindən biridir. Bunların hər ikisi bir-biri ilə əlaqədardır. Biri digəri olmadan mümkün deyil. Şüurlu idarəetmə təbiət və cəmiyyətin obyektiv qanunlarının tələblərini və reallığı nəzərə almağı tələb edir. Bu, istehsalda insanın fəallığının azad iqtisadi təşəbbüsünü təmin etməlidir, maddi və əmək ehtiyatlarını istehsalın inkişafına istiqamətləndirməlidir. Bazar iqtisadiyyatı istiqamətində inkişaf edən ölkələrdə buna əməl olunsa da, inzibati-amirlik sistemində bu, mümkün olmur[7].

İctimai münasibətlərdə insanın fəallığını artırmadan, heç yerdə sosial qayda və tənzimetməni həyata keçirmək mümkün deyildir. Elmi idarəetmənin qarşısında duran bir vəzifə də ictimai inkişafda baş verən və baş verə biləcək ziddiyyətləri üzə çıxarmaq və vaxtında aradan qaldırmaqdır. Çünki iqtisadi inkişafın gedişinə mane olan obyektiv və subyektiv amilləri vaxtında aşkara çıxarıb aradan qaldırmadan elmi idarəetməni həyata keçirmək mümkün deyil.

İqtisadi siyasətdə realizm və elmlilik başlıca şərtdir. Burada realizm o deməkdir ki, məhsuldar qüvvələrin fasiləsiz, dinamik inkişafını iqtisadi sistem təmin edə bilsin, o, işləyən və işlədən sistem kimi həyatda özünü doğrultsun.

Elmilik obyektiv imkanları nəzərə almağı tələb edir. Ona görə də, elmi idarəetmə cəmiyyətin qanunlarından, insan və maddi-texniki amillərdən səmərəli şəkildə istifadə etməyi tələb edir.

İdarəetmədə ən başlıca məqsəd və vəzifə cəmiyyətin obyektiv imkanlarından istifadə olunmasını təmin etməkdir, cəmiyyətin potensialından istifadə etmənin mühüm amilidir. İdarəetmə həm də insanların əmək fəaliyyətinin təşkil edilməsi və səfərbərliyə alınmasının başlıca formasıdır.

İnsan cəmiyyətini idarə etmək çox mürəkkəb və çətindir. Çünki o, bir çox iqtisadi, sosial, mənəvi və başqa problemlər ilə əlaqədardır. Bu mənada idarəetmə müasir texnikanı, mexanikləşdirilmiş, avtomatlaşdırılmış istehsal sisteminin təşkilini özündə birləşdirir. Buna görə də, idarəetmə metodlarına, qanunlarına və prinsiplərinə bütün müəssisə sahibləri, rəhbərləri, hətta hər bir istehsalçı eyni dərəcədə yiyələnməlidir. İdarəetmədə bu sahədə dünya miqyasında mövcud olan müsbət cəhətləri mənimsəmək və öz ölkəsində tətbiq etmək lazımdır. Bu zaman milli sənayenin quruluşu, bütövlükdə milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmalıdır.

Mərkəzləşdirilmiş plan və bölgü sistemində iqtisadi və mənəvi tələbatlar əsasən bərabərçilik əsasında həyata keçirilmişdir. Tələbatların bu qaydada ödənilməsi sosializm cəmiyyətində -SSRİ-də mövcud idi. Bu bərabərlik ədalətlilik deyil, ədalətsizliyin ən yüksək zirvəsi idi. Belə ki, hər kəsin əməyinin kəmiyyət və keyfiyyətini nəzərə almadan hamıya bərabər əmək haqqı, mənzil və s. vermək insanlarda işlərinin nəticəsinə maddi marağı söndürürdü. Burada ən yaxşı hal o hesab olunur ki,

№ 1/2024 səh.4-10

ixtisasını dərindən bilən, vicdanla işləyən, vaxt vahidi ərzində daha çox məhsul yaradan insanın tələbatı başqalarına nisbətən daha dolğun ödənilsin. Bütün bunlara bazar iqtisadiyyatı şəraitində nail olmaq mümkündür. Bazar iqtisadiyyatı şəraitində tələbatların ödənilməsi daha demokratik üsullarla bazar qanunları ilə tənzimlənir. Cəmiyyət tərəqqi etdikcə, onun və üzvlərinin tələbatı artır. İnsanların bu və ya digər məhsullara olan tələbatı qismən ödənilə bilər. Bütövlükdə götürsək, insan tələbatı sonsuzdur, onu tam ödəmək mümkün deyil. İstehsal inkişaf etdikcə, tələbat ondan da sürətli inkişaf edir, bundan başqa bir tələbat ödənilirsə, başqa bir yeni tələbat meydana gəlir. Bu obyektiv bir prosesdir. Tələbat istehsalın inkişafına təkan verir, istehsal inkişaf etdikcə yeni, əvvəlkindən daha yaxşı, keyfiyyətli məhsul istehsal etməyə yeni tələbat doğurur. Qeyd etdiyimiz kimi, tələbat istehsaldan daha sürətlə artır və elastikdir. Bundan başqa, tələbatı ödəmək üçün iqtisadi ehtiyatlar məhduddur. Məhdud imkanla sürətlə artan tələbatı ödəmək mümkün deyil. Ona görə də, cəmiyyət hər cür tələbatı deyil, məhz normal, ağıllı tələbatı ödəməyi öz qarşısına məqsəd qoymalıdır. İnsanın normal yaşayıb işləməsi üçün lazım olan zəruri istehlak şeylərinə, maddi və intellektual vasitələrinə olan tələbat normal tələbatdır. Eyş-işrətə, modabazlığa, həddindən çox yeyib-içməyə olan tələbat qeyri-normal tələbatdır. Qeyri-normal tələbatlar xeyli miqdarda məhsulun məhv edilməsinə, insan mənəviyyatına və cəmiyyətə bütövlükdə ziyan vurur.

Əmək kollektivlərində işçilərin eyni keyfiyyətli əməklərinə, işlərinə görə eyni miqdarda haqq və mükafat almaq imkanı yaradılmalıdır. Kollektiv eyni səviyyədə, gəlirlə işləmirsə, onda onun üzvləri əsas əmək haqqının hər manatına görə də əlavə haqq ala bilərlər. Burada əmək haqqı məhsul çıxımının yekun faizinə, mənfəətə, məhsulun maya dəyərinin aşağı salınmasına və digər göstəricilərə uyğun olaraq arta bilər.

İstehsalın idarəedilməsində əmək haqqının böyük rolu vardır. Əmək haqqı həm iqtisadi mexanizm, alət, həm də metod rolunu oynayır. Bir metod kimi əmək haqqı bilavasitə əməyin kəmiyyət və keyfiyyətindən asılı olaraq müəyyən edildikdə, işçini daha yaxşı işləməyə ruhlandırır, mümkün qədər daha çox iş görməyə sövq edir, ixtisasını, peşəsini də artırmağa stimul yaradır. Bir qayda olaraq, işçinin ixtisası, peşəsi yüksək olarsa, eyni zamanda, həm kəmiyyətcə, həm də keyfiyyətcə əməyin istehsal nəticələri bir o qədər yüksələr və nəticədə istehsal çoxalar.

Əmək haqqı işçilərin maddi cəhətdən həvəsləndirilməsini təmin edir. Odur ki, işçilərin ictimai istehsalın inkişafındakı əsas marağı bilavasitə əmək haqqı səviyyəsinin nə dərəcədə əsaslandırılmasından, əməyin keyfiyyəti ilə onun kəmiyyətinin necə əlaqələndirilməsindən asılıdır.

Heyətin idarə edilməsində əmək haqqı işçilərin sərf etdikləri əməyin kəmiyyətinə, keyfiyyətinə görə əldə edilən gəlirə görə maddi və mədəni tələbatlarını ödəmək üçün verilən haqdır. Deməli, maddi və mənəvi həvəsləndirmə sistemi həmişə, hər yerdə hər bir kəsin sərf etdiyi əməyə ədalətli və obyektiv qiymət verilməsini təmin edir. Bu, istehsalı inkişaf etdirmək üçün bir metod və vasitədir.

Heyətin idarə edilməsində əmək haqqı işçilərin sərf etdikləri əməyin kəmiyyətinə, keyfiyyətinə görə əldə edilən gəlirə görə maddi və mədəni tələbatlarını ödəmək üçün verilən haqdır. Deməli, maddi və mənəvi həvəsləndirmə sistemi həmişə, hər yerdə hər bir kəsin sərf etdiyi əməyə ədalətli və obyektiv qiymət verilməsini təmin edir. Bu, istehsalı inkişaf etdirmək üçün bir metod və vasitədir.

İdarəetmədə əmək haqqı iqtisadi idarəetmə metodu olmaqla əldə edilən gəlir və təsərrüfat hesabı metodu ilə bağlıdır. Əmək haqqı, bir qayda olaraq, mərkəzləşdirilmiş əmək haqqı və onun fondu, bütünlükdə, xalq təsərrüfatı və onun ayrı-ayrı sahələri üzrə dövlət tərəfindən müəyyən dövr üçün planlaşdırılırdı. İdarəetmə metodu kimi əmək haqqının operativ müstəqilliyi vardır ki, burada firmaların konkret istehsal şəraiti və planları nəzərə alınmaqla, onun yerinə yetirilməsini öz öhdələrinə götürməklə işçilərin sayını müəyyən edərək əmək haqqını və onun fondunu özləri planlaşdırır və bunun üçün məsuliyyət daşıyırlar. Müasir şəraitdə əmək haqqının təsərrüfat hesabı metodu əsasında həyata keçirilməsi nəzərdə tutulur. Hazırda əmək haqqının verilməsində bir sıra məhdudiyyətlər aradan qaldırılmışdır.

İşçilərin əməyinin ödənilməsinin təşkil olunmasında iqtisadi qanunların tələblərinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Burada, xüsusilə, əməyə görə bölgü prinsipi və dəyər qanununun qarşılıqlı fəaliyyətindən irəli gələn iqtisadi mexanizm və qanunauyğunluqlara əməl

№ 1/2024 səh.4-10

olunması zəruridir. Əməyə görə bölgü və dəyər qanununun tələblərinin optimal halda əlaqələndirilməsi xüsusilə, özünümaliyyələşdirmə şəraitində ön plana keçir.

Bölgü münasibətləri istehsal münasibətlərinin tərkib hissələrindən biri olduğuna görə bu, bir çox mənafe formaları və sistemlərini əhatə edir. Ona görə də, bölgü münasibətlərinin yalnız bir iqtisadi qanununun fəaliyyəti ilə tənzim olunmasını iddia etmək səhv olardı. Belə ki, yalnız əməyə görə bölgü qanunu deyil, həmçinin sahibkarlıq prinsipləri, dəyər qanunu, əmək məhsuldarlığının daima yüksəldilməsi qanunu, əsas iqtisadi qanun, proporsional inkişaf qanunu və digər iqtisadi qanunlar məcmu halda cəmiyyət miqyasında istehsal olunan maddi nemətlərin bölüşdürülməsi sistemi və qaydasını müəyyən edir.

Əlbəttə indi maddi nemətlərin bölüşdürülməsində dəyər qanunu başlıca rol oynayır. Əməyə görə bölgü qanununun bu sahədə müəyyən rol oynaması zəhmətkeşlərin qazancının əsas hissəsinin şəxsi əmək sərfi ilə əlaqədar olmasından irəli gəlir. Belə ki, işəmuzd əmək haqqı formasının müxtəlif sistemləri əməyin onun kəmiyyət və keyfiyyətini nəzərə alaraq ödənilməsini nəzərdə tutur. Burada əməyin kəmiyyəti, yaxud miqdarı normalaşdırma vasitəsi ilə, onun keyfiyyəti isə tarif sistemi ilə müəyyənləşdirilir. Lakin əmək normalarının müxtəlif gərginliyi və bazar iqtisadiyyatı şəraitində tarif sistemi özü-özlüyündə bərabər əməyə görə bərabər haqqın verilməsini təmin edə bilməz. Burada əmək normasının, yəni istehsalçıların məcmu əməkdəki iştirakını müəyyən edən bu normanın düzgün müəyyən olunmasının böyük əhəmiyyəti vardır. Çünki bunsuz cəmiyyət və müəssisə tərəfindən əmək və istehlak üzərində nəzarəti həyata keçirmək mümkün deyildir.

Heyətin idarə edilməsində iqtisadi metodların son məqsədi işçi qüvvəsində əmək məhsuldarlığının artırılmasına xidmət etməkdir. Bu prizmadan baxdıqda əmək məhsuldarlığı anlayışına nəzər salaq. Əmək məhsuldarlığı dedikdə əmək sərfiyyatının səmərəliliyi, məhsulun hər vahidinə sərf edilən əməyin səviyyəsi nəzərdə tutulur. Əmək məhsuldarlığının artırılması məhsulun istehsalı üçün lazım olan iş vaxtının qısaldılması deməkdir.

Heyətin idarə edilməsində iqtisadi metodlardan istifadə olunmasında məqsəd kollektivdə iqtisadi maraq yaratmaq, sövqedici tədbirlər işləyib hazırlamaq və tətbiq etməklə, idarə olunan obyektin, məsələn, əmək kollektivinin təşəbbüskarlığına nail olmaqla təsərrüfat məsələlərinin həllinə onları stimullaşdırmaqdır. İqtisadi metodların köməyi ilə planlar, əmək haqqı, qiymət, mənfəət və başqa bu kimi iqtisadi kateqoriya və mexanizmlər məqsədyönlü təsir vasitəsinə çevrilir[8].

Heyətin işçi qüvvəsinin idarəetməsi prosesinin baş verməsi üçün, ilk növbədə, müəyyən istehsal fondlarının yaradılması məqsədilə əsaslı vəsait qoyuluşu həyata keçirilməlidir. Hər bir sahibkarlıq fəaliyyətinin iqtisadi səmərəliliyi son nəticədə səmərənin əsaslı vəsait qoyuluşuna nisbətilə müəyyən edilir.

Kadrların ixtisaslaşmasında böyük rola malik faktor olan təlimlər işçilərin potensial bacarıqlarını artırır, onları çalışdıqları şirkətlərin effektiv, keyfiyyətli işinin təmin edilməsində vacib amilə çevirir. Təlimlər əsasən ixtisas, şəxsi inkişaf mövzularında olmuşdur. Dövlət qurumlarında, özəl şirkətlərdə menecerlər, eləcə də rəhbər şəxslər üçün karyera idarəçiliyi, işçi kollektivinin düzgün, effektiv idarəsi, strateji planlaşdırma mövzuları daxil müxtəlif təlim kursları keçirilir. Keçirilmiş anket sorğusunun analizindən belə nəticəyə gəlmək olur ki, əməkdaşlara, həmçinin rəhbərlərə bir sıra beynəlxalq təlim proqramları keçilmişdir. Bu da Azərbaycan şirkətlərində, dövlət qurumlarında kadrların idarəçiliyi sahəsindəki zəif cəhətləri, nöqsanları, çatışmazlıqları müəyyən etməkdə, problemlərin aradan qaldırılmasında, yeni istiqamətlərin seçilməsində önəmli rol oynaya bilər.

## ƏDƏBİYYAT

1. "Menecment" dərslik, K.A.Şahbazov, M.H.Məmmədov, H.S.Həsənov, Bakı, 2007
2. Heyətin idarə edilməsi, T.Y.Bazarov, B.L.Yereminin redaktorluğu ilə, (tərcümə) Bakı, 2012
3. Menecmentin (idarəetmənin) əsasları, T. Ə. Quliyev, Bakı, 2006
4. Azərbaycan Respublikasının konstitusiyası. Bakı, Qanun, 2010
5. İdarəetmə mədəniyyəti, (dərs vəsaiti). Fuad Məmmədov, Bakı, 2013
6. Müəssisənin iqtisadiyyati, (dərs vəsaiti). İ.M.Hüseynova Bakı, 2013

№ 1/2024 səh.4-10

7. İnsan resurslarının idarə edilməsi, Tofiq Quliyev, Bakı, 2013
8. Firma iqtisadiyyatı, T.İsmayılov, Bakı, 2009
9. Biznesin təşkili və idarə edilməsi, dərslik, Bakı, 2011

**УДК UOT 330.36**

**Влияние экономических методов в управлении персоналом**

**[1]Э. Дж.Зейналлы, [2]Л. И.Байрамова, [3]С. В.Акберова, [4]М. Б.Мамедова**

**Резюме.**Многие из созданных и действующих предприятий в короткие сроки прекращают свою деятельность и становятся банкротами. Одной из основных причин этого зачастую является неправильное управление большим и разносторонним персоналом деятельностью предприятия. Конечно, «управление персоналом» не означает «директивное управление», унаследованное от административно-эмиратской системы. В условиях смешанных экономических отношений понятие «управление» приобретает принципиально новый смысл. В отличие от административно-эмиратской системы управление в организациях в рыночных условиях может гибко изменяться в соответствии с изменениями текущей внешней среды и влиянием некоторых факторов.

Развитие такого внутреннего управления персоналом и обеспечение его гибкости является одной из важнейших задач современности. С другой стороны, процесс совершенствования методов хозяйствования на предприятиях и в организациях идет очень быстро. В связи с этим к руководству предприятиями и организациями приходят новые люди, и они, так же как и управленцы, работавшие в административных эмиратах, сталкиваются с различными специфическими трудностями в управлении предприятиями и организациями, с которыми они сталкиваются в своей повседневной деятельности.

**Ключевые слова:** управление, персонал, заработная плата, рабочая сила, отдел кадров.

**UDC UOT 330.36**

**Effect of economic methods in personnel management**

**[1]E. J.Zeynalli, [2]L. I.Bayramova, [3]S.V. Akbarova, [4]M. B.Mammadova**

**Summary.**Many of the established and operating enterprises go out of business in a short period of time and go bankrupt. One of the main reasons for this is often the improper management of a large and comprehensive staff of enterprise activities. Of course, "staff management" does not mean "directive management" inherited from the administrative emirate system. In the conditions of mixed economic relations, the concept of "management" takes on an essentially new meaning. In contrast to the administrative-emirate system, management in organizations under market conditions can be flexibly changed in accordance with changes in the current environment and the influence of some factors.

Development of such internal staff management and ensuring its flexibility is one of the most important problems of the day. On the other hand, the process of improving economic methods in enterprises and organizations is going very fast. In this regard, new people come to the management of enterprises and organizations, and they, as well as the managers who worked in administrative emirates, face various specific difficulties in the management of enterprises and organizations that they encounter in their daily activities.

**Keywords:** management, personnel, salary, workforce, personnel department.

Redaksiyaya daxilolma: 19.12.2023
Çapa qəbul olunma: 15.03.2024

№ 1/2024 səh.11-15

UOT 330.342.24
DOI: 10.30546/JIECM.2024.1.010.

# ELMİN İSTEHSALATA EFFEKTİV ŞƏKİLDƏ TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

**Könül Nizami qızı Quliyeva**

**Azərbaycan Dövlət Aqrar Universiteti**
**64 Adil Iskandarov, Ganja 2006**

**gkonul89@gmail.com**

**Xülasə:** *İlk zamanlar müstəqil Azərbaycanın iqtisadi siyasətinin qarşısında duran başlıca vəzifələrdən biri neft sektorunun tərtibi və gücləndirilməsi idisə, müasir Azərbaycanın iqtisadiyyat üzrə strateji yol xəristəsinin əsasını qeyri-neft bölməsinin inkişafı təşkil edir. Bu məqsədə çatmaqda isə "yenilikçi" yəni elmlə daimi inteqrasiyada fəaliiyət göstərən iqtisadi siyasət yardımçı ola bilər. Istər ölkə daxilində, istərsə də dünyada mövcud olan problemlərin aradan qaldırılmasında elmin inkişafı və onun məhsul istehsalına təsiri optimal çıxış yollarından biri hesab olunur.*

***Açar sözlər*:** *elm, səmərə, elm tutumlu məhsul, bazar, tələbat.*

**Giriş:** Dövlətin və istehlakçının tələbatının artdığı şəraitdə müəssisələrin də tələbata uyğun öz istehsal güclərini artırmaları vacib məsələlərdəndir. İstehsal yönümlü iqtisadiyyata keçid etmiş ölkə olaraq istehsal edilən məhsulların həm ölkədaxili, həm də ölkəxarici müəssisələrlə rəqabətə davam gətirməsi gözlənilir. Bu sahədə isə elmin inkişafı olmadan nailiyyət qazanmaq qeyri-mümkündür. Müasirliyə meyilli müəssisələrin öz istehsal sahələrində elmin tövhələrindən istifadə etmələri məqsədəuyğundur. Bunun üçün iqtisadi fəaliyyətlə məşğul olan müəssisələr daimi olaraq tədqiqat institutları ilə birgə işləməyi əsas hədəf kimi qarşıya qoyur. İstər yeni kəşflərin əldə edilməsi, istərsə də peşəkar kadr hazırlığında hər iki tərəf öz tələbini ödəməyə çalışır. Belə ki, elm ocaqları əldə etdikləri nailiyyətləri praktikada, daha dəqiq desək, müəssisələrdə tətbiq edilməsində, müəssisələr isə yeni yaranmış sahələr üzrə kadr axtarışında universitetlərlə birgə işləməkdə maraqlıdırlar. Nəticədə birgə fəaliyyətdən yeni və müasir standartlara tam cavab verən keyfiyyətli məhsullar ortaya çıxır. Lakin bəhs edilən bu proses heç də asan başa gəlmir. Elmin inkişaf etdirilməsi, yeni üsullar və tədqiqatlar ərsəyə gətirmək olduqca mürəkkəb fəaliyyətlər nəticəsində yaranır. Buradakı vacib məqamlardan biri odur ki, istənilən tədqiqatı istehsalata tətbiq etmək olmaz. Bunun üçün ilkin olaraq müəssislərin daxilində elmi fəaliyyətin müəssisəyə uyğunluğu, onun nəticəsinin effektivliyi diqqət mərkəzində saxlanılır.

**Mövzunun aktuallığı.** Araşdırmalar göstərir ki elmi tədqiqatın aparılması müəyyən bir maliyyə vəsaiti tələb edir. Ümumiyyətlə, elm tutumlu müəssisələrdə aparılan tədqiqat layihələrinə maliyyə yardımı ayrılarkən xüsusi diqqət dünya və ölkəmizə uyğun olaraq yenilik dərəcəsinə, onun daha səmərəli və aktual olması, yəni tələb olunan istiqamətdə olub olmamasına verilir. Daha sonra isə strateji plan hazırlanaraq ona müvafiq bir sıra işlər görülür: layihənin istehsalata tətbiqini təmin etmək üçün lazımi avadanlıqların və xammalın alınması, xüsusi tikilinin və ya obyektin ayrılması, məhsulun istehsalı və satışını həyata keçirmək üçün düzgün marketinq strategiyasının seçilməsi və s. Hər sahənin elmə özünəməxsus yanaşması və həmin sahəyə uyğunlaşdırılması fərqlidir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın aparılmasında əsas məqsəd ölkəmiz üçün yeni bir iqtisadi tendensiya kimi götürülən və gələcəkdə inkişaf etdirilməsi nəzərdə tutulan elm tutumlu müəssisələrlə sənaye müəssisələrinin arasındakı qarşılıqlı əlaqənin hansı səviyyədə olduğunu müəyyən etməkdir. Bundan əlavə, bu əlaqənin yaranmasında və inkişaf etdirilməsində qarşıda duran mövcud problemləri və çatışmayan cəhətləri aşkara çıxarmaqdır. Digər məsələ olaraq isə, ölkəmizdə elmin istehsalata tətbiqi zamanı əldə olunan nəticələri vurğulamaqdır.

№ 1/2024 səh.11-15

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Ümumi götürsək, bütün müəssisələrin elmin tətbiqində ortaq məqsədləri var. Buraya aşağıdakılar daxil etmək olar:

- müəssisələrdə iqtisadi səmərəliliyin artırılması;
- qloballaşmanın mənfi nəticələri ilə mübarizənin aparılması ekologiyaya təsirinin minimum dərəcəyə endirilməsi;
- məhsulların təkcə ölkə daxilində deyil, həm də beynəlxalq bazar standartları ilə uyğun olması;
- texnika və texnologiyadan istifadə etməklə xərclərin minimuma endirilib, mənfəətin artırlması;
- CİS ( Coğrafiya İnformasiya Sistemləri) proqramının müəssisələrin regionların geolokasiyasına uyğun şəkildə yerləşdirilməsi və s.

Azərbaycanda isə elmin və yeniliklərin tətbiqi 2016-cı ildə prezidentin imzaladığı "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" sərəncamla öz başlanğıcını götürdü. Bu sərəncamla səmərəli iqtisadiyyatdan innovativ iqtisadiyyata keçidin təməli qoyuldu. Daha sonra Azərbaycan Respublikasının Prezidentinin 2019-cu il 10 yanvarda imzaladığı "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində effektivliyin artırılması və koordinasiyanın təmin edilməsi" haqqında sərəncamla ölkə üzrə digər sahələrlə yanaşı iqtisadiyyat sahəsində də elmin və innovasiyanın tətbiqi sistemli şəkildə işlənib hazırlandı. Burada elmi yeniliklərin tətbiqi ilə yaradılmış məhsulların hazırlanması və təkmilləşdirilməsi ilə bağlı məslələr üzrə məsul şəxslər təyin olunmasını öz əksini tapmışdır. Bundan əlavə, innovativ inkişafın dəstəklənməsi naminə illik mənfəətdən elmi araşdırmaların və innovativ startapların maliyyələşməsinə ayrılması və müvafiq qurumlara müasir avadanlıqlarla təchiz olunmuş elmi tədqiqat institutlarının təyin edilməsi tapşırılmışdır.

Dünyanın aparıcı ölkələrinin və ölkəmizin siyasətinin vacib bir hissəsini qida və içməli su çatışmazlığı kimi problemin tutması diqqət mərkəzində olan bir sahə kimi ilkin olaraq aqrar sahəni misal göstərmək olar. Belə ki, istər universitet daxilində, istərsə də tədqiqat institutlarında laboratoriyaların müasir standartlara uyğun şəkildə qurulması, kadrlara təkmilləşmə üçün şəraitin yaradılması, qidaya olan tələbin artması yeni növ bitkilərin yaranmasına və ya mövcud bitkilərin xəstəliklərə və zərərvericilərə daha davamlı növlərini yaradılmasına gətirib çıxarır. Buna misal olaraq, ölkəmizdə 11 region üzrə istifadəyə verilən aqrokimya laboratoriyalarını göstərmək olar. Laboratoriyaların əsas məqsədi bol məhsul götürmək üçün torpağın analizi, onun tərkibində olan zərərli maddələrin və tullantıların təyin etməkdir. Çayçılıq və Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun seleksiya şöbəsində bir neçə yeni payızlıq və qışlıq sort alma-" Çıraqqala", "Payızlıq Quba", "Qobustan" və s. yetişdiriblər. " Qırmızı Cibir" və "Əyyubi" alma növlərinin tozlandırılması nəticəsində yeni növ "Sədəf" əldə edilib. Yeni növlərin yaranmasında əsas məqsəd məhsuldarlığın artırılması, daha gec xarab olması, həm ölkə daxilində, həm də xarici bazarda tələbatın ödənilməsini təmin etməkdir.

Aqrar sahə ilə yanaşı sənaye mallarının istehsalında da elmin tətbiqi nəticəsində əhəmiyyətli kəmiyyət dəyişikliyi olmuşdur. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, mikro müəssisələr istisna olmaqla sənaye məhsullarına dəyişiklik edilməsi və ya yeni məhsulun yardılması nəticəsində bütün məhsulların həcmi 19 % artmışdır, yəni, 2020-ci ildə 11759,7 mindən 2021-ci ildə 60977,2 minə yüksəlmişdir. Bütün sənaye məhsullarının texnoloji innovasiyalarına çəkilən xərclərin əsas bir hissəsi emal sənayesində istehsal prosesi zamanı istifadə olunan yeniliklərə çəkilir. Emal sənayesində istifadə olunan innovasiyalara çəkilən xərclərin bütün sənaye məhsullarının innovasiyalarına çəkilən xərcin 90%-ni təşkil edir (5848,3 min manatın 5318,5 min manatı).

Respublikamızda digər mühüm bir sənaye sahəsi olan Müdafiə Sənayesi Nazirliyi nanotexnologiyanın və dünyada müdafiə sahəsindəki mövcud yeniliklərin hərbi sahəyə

inteqrasiyası nəticəsində yeni növ müdafiə sisteminin qurulmasında maraqlıdır. Bunun üçün ilk növbədə Azərbaycan Texniki Universitetində bir sıra bölmələr üzrə kadrların hazırlanmasına başlanılmışdır. Buna misal olaraq, kibertəhlükəsizlik, robotexnika və sair kimi bölmələri göstərmək olar.

İqlim dəyişikliyinin fəsadlarını aradan qaldırmaq və ona qarşı mübarizə aparmaq məqsədilə energetika sahəsində bir sıra işlər görülməkdədir. Respublikamız bərpa olunan enerjinin daha çox istifadəsində maraqlıdır. Belə ki, Energetika Nazirliyi bərpa olunan enerjinin ölkəmizin bölgələrində, xüsusilə dağlıq ərazilərdə istifadəsinin təmin edilməsi naminə digər ölkələrin tanınmış şirkətləri ilə müqavilələr bağlanılır və danışıqlar aparılır. Ən son bağlanan müqavilələr sırasına Yaponiyanın "Komaihaltec" şirkətilə Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (AREA) arasında bağlanan memorandumu nümunə göstərmək olar. Bundan əlavə, "Azerenerji" və "Rosseti" şirkətləri arasında bağlanan müqavilənin əsas məzmunu isə elektrik avadanlıqlarının istehsalı sahəsində əldə edilən nailiyyətlərin müqayisəsi və təcrübələrin mübadiləsinin aparılmasından ibarətdir. 2011-ci ildə Prezident İlham Əliyevin sərəncamı əsasında 2017-ci ildə fəaliyyətə başlamış Balaxanı Sənaye Parkının əsas məqsədi yüksək texnologiyadan faydalarından yararlanaraq tullantıların yenidən emal edilməsi ilə təbiətə minimum ziyanın vurulmasını və yaşıl iqtisadiyyata dəstək verməyi təmin etməkdir.

2018-cü il üçün Azərbaycanda neft-kimya sahəsində əldə edilən uğurlu layihələrdən biri də "SOCAR Polimer" MMC və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin himayəsi altında Kiçik və Orta Müəssisələrə Dəstək Agentliyi ilə Sumqayıt Kimya Sənaye Parkı və milli plastik sənayesinin nümayəndələri arasında Anlaşma Memorandum olmuşdur. "Ekoloji cəhətdən təmiz" plastik növü olan polipropilen və Yüksək Sıxlıqlı Polietilenin istehsalı üçün zavodun istifadəyə verilməsi ölkəmizi idxalçı ölkədən ixrac edən edən ölkəyə çevrilməsində atılan addımdır. Bu sahədə ixtisaslaşmış kadrlar üçün yeni iş imkanlarınn yaranması da layihənin digər müsbət tərəfidir. Ümumilikdə, ölkəmizin müxtəlif universitetlərində yaradılan innovasiya mərkəzləri yeni elm tutumlu məhsulların yaradılmasında və tanıdılmasında startap layihələrlə həm ölkə daxili həm xaricdə universitetlərimizi təmsil edirlər. Beləliklə də gələcəkdə digər uiversitetlərlə bu sahədə əməkdaşlıq yaratmaq üçün ilkin addımlar atılır.

## Nəticə

Yuxarıda qeyd olunan inkişaf tendensiyaları ölkəmizin bu sahədə müəyyən addımlar atmaqda və uğur qazanmaqda istəkli olduğunu göstərir. Bu isə Azərbaycan Respublikasının digər sahələrdə olduğu kimi iqtisadi cəhətdən də digər ölkələrlə rəqabətqabiliyyətli bir kimi formalaşmasına təkan verir. Lakin görülən işlər tam uğur qazanmağa kifayət etmir, bəzi çatışmazlıqlar hələ də qalmaqdadır. Buna misal olaraq, bütün sənaye üzrə texnoloji innovasiyalara çəkilən xərclərə diqqət yetirərkən, 2019-cu ildən bu yana azalma görünür. Belə ki, 2019-cu ildə 48037,1 min manatdan 2021-ci ildə isə 5848,3 min manata düşüb. Halbuki Belarusiyada elmi tədqiqatlara ayrılan məbləğ bizim ölkəmizin ayırdığı məbləğdən olduqca çoxdur. Belarusiya 2019-cu ildə 13792 manatdan 2021-ci ildə 14421 manata artırmışdır. Qlobal innovasiya indeksinin 2021-ci il göstəricisinə əsasən Azərbaycan Belarusiyadan və Latviyadan geridə qalır. Belə ki, Azərbaycan orta gəlirli 34 ölkə arasından 24-cü yeri tutarkən, Belarusiya 15-ci yerdə qərarlaşır. Digər post sovet ölkəsi olan Latviya isə 48 yüksək gəlirli ölkələr arasında 36-cı yeri tutur. Ümumi Avropa ölkələri arasında isə 39 ölkədən 26-cı yeri, Belarusiya isə 36-cı yeri tutur. Ölkəmiz isə 19 Şimali Afrika və Qərbi Asiya ölkələri siyahısında 14-cü yerdə qərarlaşıb. Bu isə zəngin resursları olan və coğrafi cəhətdən əlverişli mövqedə yerləşən bir ölkə üçün qənaətbəxş göstərici deyil.

Bundan əlavə, bəzi sahələr var ki, onlara investisiya qoyulmağa ölkəmizdə maraq göstərilmir və nəticədə yeni məhsullar yaranmır. Bu sahələrə misal olaraq, mebel, toxuculuq, tikinti materialları, rezin və plastik məmulatları göstərmək olar. Növbəti çatışmazlıqlardan biri elmi araşdırma mərkəzləri ilə müəssisələr arasında qarşılıqlı əlaqənin zəif olmasıdır. "İ2connect" və ya

№ 1/2024 səh.11-15

interaktiv innvoasiya layihəsi ölkəmiz üçün nümunə layihə olaraq götürülə bilər. Bu layihə Avropa Birliyi tərəfindən maliyyələşdirilir. Layihənin yaradılmasında əsas məqsəd Avropa ölkələrində fəaliyyət göstərən fermerlər, istehsalçılar, elmi tədqiqat mərkəzləri və innovasiya mərkəzləri arasında əlaqənin yaradılması, elmi araşdırmaların və innovativ ideyaların istehsala tətbiqini təmin etməkdir. Fermerləri və müəssisələri mövcud yeniliklərdən xəbərdar etmək və maarifləndirmək üçün yaradılmış bu layihəni ölkəmizə tətbiq etməklə innovativ fikirlərin yaranmasına gəncləri həvəsləndirmək, təlimçiləri, tədqiqatla məşğul olan müəllimləri istehsal prosesinə daxil etmək olar. Beləliklə də, yeni məhsulların yaradılması prosesində daha məhsuldar ideyalar yaradılmış və tətbiq edilmiş olar.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat zamanı müəyyən yeni məlumatlar əldə edilmişdir:

- Azərbaycanda qəbul edilmiş bir sıra qanunların elmin iqtisadiyyata inteqrasiyası nəticəsində əldə olunan bir sıra müsbət nəticələr;
- Digər ölkələrlə müqayisədə ölkəmizin çatışmayan cəhətləri aşkar edilmişdir;
- Bəzi sahələrin dünyada və ölkəmizdə digər sahələrdə baş verən innovativ inkişafdan geri qalması müəyyən edilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqat işinin əhəmiyyətli olması özünü elmin istehsalata tətbiqini gücləndirəcək müəyyən işlərin görülməsinə baxmayaraq hələ də müəyyən çatışmazlıqların olmasını və onların gələcəkdə görüləcək işlərin sırasında qeyd edilməsində göstərir.

**Tədqiqat işinin iqtisadi səmərəsi.** Elmin iqtisadiyyatla birləşməsindən əldə olunan nəticələrin istehsalata, ümumilikdə ölkə iqtisadiyyatına verdiyi tövhələri müəyyən edilir.

## ƏDƏBİYYAT


1. https://adau.edu.az/laboratoriyalar/torpaqsunasliq-ve-aqrokimiya-laboratoriyasi-252/
   https://www.belstat.gov.by/upload/iblock/fcc/a3ad1rgewgcr5o1lyxr2fr9fq3yorrk2.pdf
2. ELM VƏ İNNOVASİYA FƏALİYYƏTİ: ölçmə və qiymətləndirmə/Arzu Hüseynova/Bakı/2020
3. https://www.esri.com/en-us/what-is-gis/overview
4. https://i2connect-h2020.eu/about/
5. https://www.pf.bgu.tum.de/pfgk18/img/pfgk18_esri-Exponate.pdf
6. https://president.az/az/articles/view/31491
7. https://www.socarpolymer.az/az/quotes/
8. https://tamizshahar.az/az/layiheler/3
9. https://www.stat.gov.az/source/industry/
10. https://www.upgrad.com/blog/data-science-applications-in-manufacturing-industry/
11. https://yeniazerbaycan.com/Iqtisadiyyat_e42554_az.html


**UDC 330.342.24**

### Characteristics of the effective application of science to production

**Guliyeva K. N.**

**Summary:** If in the early days one of the main tasks facing the economic policy of independent Azerbaijan was the development and strengthening of the oil sector, the development of the non-oil sector is the basis of the strategic road map of modern Azerbaijan's economy. In order to achieve this goal, an "innovative" economic policy that is active in constant integration with science can be helpful. The development of science and its impact on product production is considered one of the optimal ways to overcome the problems that exist both in the country and in the world.

**Key words:** science, efficiency, science-intensive product, market, demand.

№ 1/2024 səh.11-15

УДК 330.342.24

**Особенности эффективного применения науки в производстве**

**Гулиева К. Н.**

**Резюме:** Если в первые дни одной из главных задач, стоящих перед экономической политикой независимого Азербайджана, было развитие и укрепление нефтяного сектора, то развитие ненефтяного сектора является основой стратегической дорожной карты современной экономики Азербайджана. Для достижения этой цели может помочь «инновационная» экономическая политика, активная в постоянной интеграции с наукой. Развитие науки и ее влияние на производство продукции считается одним из оптимальных путей преодоления проблем, существующих как в стране, так и в мире.

**Ключевые слова*:*** наука, эффективность, наукоемкая продукция, рынок, спрос.

Redaksiyaya daxilolma: 20.12.2023
Çapa qəbul olunma: 15.03.2024

№ 1/2024 səh.16-23

UOT 330.342.24
DOI: 10.30546/JIECM.2024.1.3.015

# XİDMƏT AXINLARI VƏ ONLARIN İQTİSADİ MAHİYYƏTİ

**Könül Rasim qızı Həsənova**

**Azərbaycan Texnologiya Universiteti**

k-qasanova@mail.ru

***Xülasə***.*Formalaşan və stabil inkişaf edən bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektləri arasında material axınlarının hərəkəti zamanı yüksək iqtisadi effektivliyə nail olunması əsasən bu təsərrüfat subyektlərinə yüksək maliyyə xidmətlərinin göstərilməsi hesabına təmin edilir. Maliyyə xidməti material qiymətlilərinin optimal hərəkətinin təşkilinə şərait yaratmaqla ilkin olaraq əmtəə – material və əmtəə – qeyri material qiymətlilərinin hərəkəti – yerdəyişməsinə uyğun gələn logistik maliyyə axınlarının müəyyənləşdirilməsi və öyrənilməsini nəzərdə tutur.*

***Açar sözlər:*** *axın, ehtiyatlar, maliyyə axınları, material axınları, logistik əməliyyatlar*

**Giriş.** Material resurslarının hərəkətinin ənənəvi formada idarə edilməsindən fərqli olaraq logistik prinsiplər əsasında idarə edilməsinin mahiyyəti ondan ibarətdir ki, müasir iqtisadi şəraitdə idarəetmə obyektini axınlar (material, maliyyə, informasiya, kadr və s.) - tamın hissələri kimi qəbul edilən çoxlu obyektlər təşkil edir. Lakin maliyyə, informasiya, kadr və s. axınlar material axınlarından törəmə olduqlarından, daha doğrusu, material axınlarının əmələ gəlməsi sadalanan idarəetmə obyektlərinin yaranmasına birbaşa təsir göstərdiyindən ilk öncə bu axınların iqtisadi təbiətinin öyrənilməsi logistika elminin ən mühüm problemi hesab olunur.

***Axın*** – müəyyən vaxt müddətində mütləq vahidlərlə ölçülən, müxtəlif vaxt intervallarında konkret proses kimi mövcud olan və tam vahid formada qəbul edilən obyektlər məcmusudur. Axın parametrləri – baş verən prosesi xarakterizə edən parametrlərdir.

***Ehtiyyatlar*** – mütləq vahidlərlə ölçülən və bir neçə ayrı – ayrı konkret vaxt intervallarında mövcud olan obyektlərin sayını xarakterizə edən kateqoriyadır.

Ehtiyatların statistik kəmiyyəti ilə axınların dinamik xarakteri arasında qarşılıqlı əlaqə mövcuddur:

- ***axın*** – ehtiyatların dəyişilməsi prosesini xarakterizə edir;
- ***ehtiyatlar –*** isə axınların dəyişilməsi və yığılması nəticəsini əks etdirir.

Axın və ehtiyatlar kateqoriyası makroiqtisadi modelləşdirmədə geniş istifadə olunur və onlar ümümiləşdirilmiş iqtisadi kateqoriyaların tərkib hissələridir. Eyni zamanda logistik qanunauyğunluqlar ümumiqtisadi qanunların nisbi mənada (hissəvi) təzahür formasıdır. Daha doğrusu, bütün logistik qanunauyğunluqlar məhz ümumiqtisadi qanunlardan törəmədir və onların tələbi əsasında yaranır. Bu qanunların fəaliyyət prinsipləri və tətbiq şərtlərindən asılı olaraq bir sıra iqtisadi tədqiqatlarda axın və ehtiyatlar arasında fərq o qədər də nəzərə çarpmır.

Axınları xarakterizə edən parametrlər əsasən aşağıdakılardan ibarətdir:

- ilkin və sonuncu axın məntəqələri;
- axınların hərəkət marşrutunun trayektoriyası;
- axın yolunun uzunluğu;
- hərəkətin sürəti və vaxtı;
- aralıq məntəqələr və onların sayı;
- axınların intensivliyi.

Müasir logistika material axınların aşağıdakı kateqoriyalarına söykənir.

**Material axınları** - müxtəlif logistik (nəqletmə, anbarlaşdırma və s.) və (və ya) texnoloci

(mexaniki emal, yığım, və s.) əməliyyatlar zamanı nəzərdən keçirilən və konkret vaxt intervalına aid olunan məhsullar - yük, hissələr, əmtəə – material qiymətliləri və sairədir.

Logistika böyük praktiki əhəmiyyətə malik fəaliyyət sahəsidir. Logistik prinsiplər və metodlardan qeyd olunduğu kimi həm inzibati amirlik sistemində (ierarxiya quruluşunda geniş də olmasa) istifadə olunmuş və həm də bazar iqtisadiyyatı sistemində hərtərəfli tətbiq olunur. Lakin ixtiyarı sistemdə təsərrüfat subyektləri arasında qarşılıqlı münasibətlər bazarda formalaşır və onun işlək mexanizmilə tənzimlənir.

Qeyd etmək lazımdır ki, əmtəə – material qiymətliləri özündə bütün növ maddi nemətləri, o cümlədən spesifik növə malik hərəkət etməyən əmlakı da birləşdirir. Əmtəə qeyri - material qiymətlilərinə isə müasir şəraitdə xidmətlər, kapital, qeyri - maddi aktivlər aid edilir. Müəyyən əmtəə – material və qeyri - material qiymətlilərinin bir təsərrüfat subyektindən digərinə yerdəyişməsi prosesində bir sıra logistik əməliyyatlar yerinə yetirildiyindən bu hərəkətə – yerdəyişməyə əsasən uyğun əmtəə axınlarının hərəkəti kimi baxılır.

Əmtəə axınlarına maliyyə xidmətinin göstərilməsi mexanizmi müasir iqtisadi şəraitdə logistikanın öyrəndiyi sahələrdən biri hesab olunur. Lakin maliyyə axınlarının mahiyyətinin geniş şəkildə tədqiq edilməsi, müəyyənləşdirilməsi bir daha sübut edir ki, burada bir sıra spesifik xarakterə malik fərqlər mövcuddur. Odur ki, maliyyə axınlarının iqtisadi təbiətinin öyrənilməsi zamanı iki əsas yanaşmaya xüsusi diqqət verilməlidir:

- **birinci,** maliyyə axınları adı altında mikro və makroiqtisadi mühitdə bu və ya digər növ maliyyə vəsaitlərinin ixtiyari yerdəyişməsi nəzərdə tutulur.
- **ikincisi,** maliyyə axınları adı altında yalnız logistik sistemlərin daxilində və logistik sistemlər arasında bu və ya digər növ maliyyə vəsaitlərinin ixtiyari yerdəyişməsi başa düşülür.

Mütəxəssislər birinci yanaşmaya daha çox üstünlük verməklə maliyyə axınlarının mahiyyətini hər şeydən əvvəl zaman baxımından maliyyə vəsaitləri məcmusunun dəyişilməsilə əlaqələndirirlər. Fikrimizcə, qeyd olunan yanaşma şərtsiz olaraq diqqətə layiqdir və müxtəlif mikro və makroiqtisadi tədqiqatların aparılması zamanı geniş tətbiq edilir. Lakin burada logistik proseslərin xüsusiyyətləri nəzərə alınmır və əmtəə axınlarına maliyyə xidmətinin göstərilməsi üçün işlək mexanizmin hazırlanmasında ondan istifadə mümkün olmur.

Öz növbəsində ikinci yanaşmanı müdafiə edən mütəxəssislər arasında maliyyə axınlarının mahiyyətinin açıqlanması, şərh edilməsi üzrə hələlik vahid fikir birliyi mövcud deyil. Logistikaya aid xüsusi ədəbiyyatlar maliyyə axınlarını tez-tez kommersiya logistikasında idarəetmə obyektinin tərkib hissəsi kimi nəzərdən keçirir.

Odur ki, istənilən yanaşmada maliyyə axınları material resurslarının necə, nə vaxt və kimə çatdırılmasından, həmçinin təsərrüfat subyektlərinin sahibkarlıq fəaliyyətinin hansı formada təşkil edilməsindən asılı olmayaraq həmişə mövcud olmuşdur. Lakin burada nəzərə alınacaq və praktiki fəaliyyətin bir daha təsdiq etdiyi məqam ondan ibarətdir ki, material resurslarının yerdəyişməsilə bağlı əməliyyatların tələb olunan müddətdə aparılması və vaxt itkilərinə yol verilməməsi, daha doğrusu, dövriyyə vəsaitlərinin dövr sürətinin yüksəldilməsi üçün maliyyə axınlarının hərəkəti məhz material və maliyyə resurslarının idarə edilməsi üzrə logistik prinsiplərin tətbiqinə əsaslanır. Bu da yeni iqtisadi kateqoriya – logistik maliyyə axınlarının əmələ gəlməsinə şərait yaradır, onu şərtləndirir.

Aydındır ki, logistik maliyyə axınları əmtəəlik axınların effektiv hərəkətini (xidmətlərin göstərilməsini) təmin etmək üçün yaradılır və bu məqsəddən ötrü istifadə olunur. Bu zaman onların spesifik xüsusiyyəti məkan və zaman baxımından, əmtəəlik material və qeyri - material qiymətlilərinin axın – yerdəyişməsi prosesinə xidmət göstərməkdən, onun tələblərini yerinə yetirməkdən ibarətdir. Beləliklə, logistikada maliyyə axınları adı altında – müəyyən əmtəə axınlarının optimal hərəkətini təmin etmək üçün logistik sistem daxilində və logistik sistemlər arasında, eləjə də logistik sistemlə ətraf mühit arasında dövr edən maliyyə resurslarının istiqamətlənmiş hərəkəti başa düşülür. Logistik maliyyə axınları özlərinin tərkibi, hərəkət istiqamətləri, təyinatı və digər əlamətlərə görə bir – birindən fərqlənir. Logistik maliyyə axınlarının idarə edilməsi üzrə effektiv üsulların təyin edilməsi üçün onların elmi və praktiki baxımdan dəqiq təsnifatını aparmaq lazımdır. Bu məqsədlə logistikada

aşağıdakı təsnifləşdirmə əlamətlərindən istifadə olunur:

- logistik sistemə münasibətinə görə;
- hərəkət istiqamətinə görə;
- təyinatına görə;
- avans edilmiş dəyərin ötürülməsi üsuluna görə;
- hesablaşma formasına görə;
- təsərrüfat əlaqələrinin növünə görə.

Konkret logistik sistemə münasibətinə görə **daxili və xarici** maliyyə axınlarını fərqləndirirlər. Xarici maliyyə axınları baxılan logistik sistemin sərhədlərindən kənarda - xarici mühitdə mövcud olan maliyyə axınlarıdır. Daxili material axınları isə bilavasitə müəyyən logistik sistemin daxilində fəaliyyət göstərən və əmtəə axınlarına uyğun bir sıra logistik əməliyyatların yerinə yetirilməsi zamanı xarici görkəmini dəyişən axınlardır. Öz növbəsində xarici maliyyə axınları hərəkət istiqamətlərinə görə giriş və çıxış maliyyə axınlarına bölünür:

- **giriş maliyyə axınları** – baxılan logistik sistemə kənardan – ətraf mühitdən daxil olan axınlardır;
- **çıxış maliyyə axınları** – öz hərəkətlərinə nəzərdən keçirilən baxılan logistik sistemdən başlayan və logistik sistemdən kənarda - xarici mühitdə fəaliyyətdə olan axınlardır.

Təyinatlarına görə logistik maliyyə axınları aşağıdakı kimi qruplaşdırılır:

- xammal, material, yarımfabrikat və hazır məhsulların tədarükatı ilə əlaqədar maliyyə axınları;
- investisiya şəklində olan maliyyə axınları;
- iş qüvvəsinin bərpa edilməsi üçün zəruri olan maliyyə axınları;
- müəssisələrin istehsal fəaliyyəti zamanı material məsrəflərinin formalaşması ilə əlaqədar meydana gələn maliyyə axınları;
- hazır məhsulun reallaşdırılması prosesində yaranan maliyyə axınları.

Avans edilmiş dəyərin ötürülməsi üsuluna görə logistik maliyyə axınları:

- müəssisənin əsas fondlarının hərəkətinə uyğun gələn maliyyə axınları (bura investisiya şəklində olan maliyyə axınları və material məsrəflərinin formalaşması ilə əlaqədar bir qisim maliyyə axınları aid edilir);
- müəssisənin dövriyyə vəsaitlərinin hərəkəti ilə əlaqədar maliyyə axınları (bura təyinat üzrə təsnif edilən bütün maliyyə axınlarının yerdə qalan qrupları aid edilir).

Ayrı – ayrı hesablaşma formalarının tətbiq xüsusiyyətlərindən asılı olaraq logistikada bütün maliyyə axınları iki böyük qrup üzrə differensiallaşdırılır:

- nəğd maliyyə vəsaitlərinin hərəkətini pul formasında xarakterizə edən maliyyə axınları;
- qeyri - nəğd maliyyə vəsaitlərinin hərəkəti ilə əlaqədar informasiya – maliyyə axınları.

Öz növbəsində pul formasında olan maliyyə axınları manat və valyuta hesablaşmaları üzrə nəqdi maliyyə resursları axınlarına bölünür. Qeyri - nəğd maliyyə vəsaitlərinin hərəkəti ilə əlaqədar informasiya – maliyyə axınları isə tədiyyə tapşırığı, tədiyyə tələbnaməsi, inkassa tapşırığı, akkreditivləşdirmə sənədi və hesablaşma çeklərinə ayrılır.

T ə s ə r r ü f a t ə l a q ə l ə r i n i n n ö v l ə r i n ə g ö r ə maliyyə axınları üfüqi və şaquli əlamətlərlə bir – birindən fərqlənir. Üfüqi maliyyə axınları maliyyə vəsaitlərinin sahibkarlıq fəaliyyətinin bərabər hüquqlu subyektləri arasında, ikincisi isə ana və törəmə kommersiya müəssisələri arasında hərəkətini nəzərdə tutur.

Logistik missiyanı yerinə yetirən vasitəçi strukturlarda əlavə və güzəştlərin hesablanmasının ilkin bazası istehsal prosesinin davamı kimi tədavül sferasında material axınlarının təşkilinə çəkilən xərclərin həcmidir. Təcrübədə həmin güzəşt və əlavələri müəyyən etmək üçün əvvəlcə tədavül xərclərinin özünün səviyyəsinin hesablanması lazım gəlir. Hesablama tədavül xərclərinin ümumi əmtəə dövriyyəsinə faizlə nisbəti və yaxud da satışa çıxarılan məhsulun hər manatına qəpik hesabı ilə aparılır. Başqa sözlə,əlavə və güzəştlərin səviyyəsi elə müəyyənləşdirilir ki, o vasitəçi strukturların

malyeridilişinə çəkdikləri tədavül xərclərini ödəməklə bərabər minimum səviyyədə kreditdən istfadəyə görə bank faizlərinin ödənilməsi və iqtisadi stimullaşdırma fondlarının yaradılması üçün mənfəət əldə etməyə imkan versin.

Məhsulların topdansatış ticarətini həyata keçirən vasitəçi strukturlar məhsulları anbardan realizə etdikdə anbar əlavəsi alırlar. Məhsulların hesablaşmada iştirak etməklə (bəzi hallarda hesablaşmada iştirak etməməklədə) tranzit realizasiyası üçün məhsulgöndərənlər tərəfindən vasitəçi strukturlara topdansatış qiymətlərindən güzəşt verilir. Əgər vasitəçi strukturlar özlərinin anbar və bazalarına daxil olmuş, lakin boşaldılmamış məhsulu birbaşa istehlakçı firma və müəssisənin ünvanına göndərməklə satırsa onda istehlakçılardan anbar əlavəsi alınmır. Bu zaman vasitəçi strukturlar istehlakçılardan həm məhsulların çatdırılması üzrə faktiki nəqliyyat xərclərini, həm də mövcud tranzit güzəştləri səviyyəsində əlavə alır. Bütün hallarda nəqliyyat xərcləri və tranzit güzəştləri səviyyəsində tutulan əlavə anbar əlavəsindən artıq olmur.

Maddi vəsaitlər istehlakçılara pərakəndə satış qiymətilə satıldıqda isə ticarət güzəştlərinin bir hissəsi vasitəçi strukturların xeyrinə tutulur. Pərakəndəsatış qiyməti ilə satılan məhsullar üzrə ticarət güzəştinin bu hissəsi topdansatış vasitəçilərinin tətbiq etdiyi anbar əlavəsi və ya tranzit güzəşti (əlavəsi) əsasında müəyyən edilir və o, ticarət güzəştindən heç vaxt yüksək olmur.

Pərakəndə ticarətlə məşğul olan vasitəçi strukturlarda ticarət güzəştlərinin tətbiqi pərakəndə qiymətlərin tərkib hissəsi olmaqla bu ticarət şəbəkələrinin normal təsərrüfatçılıq fəaliyyətinin təmin edilməsi tələblərindən irəli gəlir və pərakəndəsatış qiyməti ilə sənayenin topdansatış qiyməti arasındakı fərqdən ibarətdir. Ticarət güzəştləri iki hissəyə, yəni pərakəndə ticarət şəbəkələrinin tədavül xərclərinə və bir də həmin strukturların mənfəətinə ayrılır. Burada tətbiq edilən ticarət güzəştlərinin səviyyəsi məhsulların pərakəndə satış qiymətlərinə nisbətən faizlə müəyyən edilir.

Məhsulların vasitəçi strukturların anbar və bazalarından nəqliyyat vasitələrinə yüklənməsi xərcləri də anbar əlavəsinə daxil edilir.

Hesablaşmada iştirak etməklə tranzit əməliyyatları üzrə topdansatış qiymətlərindən güzəştlər xarici ticarət təşkilatları tərəfindən idxal məhsulları göndərildikdə də tətbiq edilir.

Anbar və mağazalar vastəsilə satılan məhsullar üçün istehlakçılardan (alıcılardan) alınan əlavələr iki göstəriciyə - məhsul vahidinə və topdansatış qiymətlərinə - görə müəyyənləşdirilir.

Məhsul vahidinə görə təyin edilmiş əlavələr həm ayrı-ayrı məhsul qrupu, həm də vasitəçi strukturlar üzrə bir-birindən fərqlənir. Məhsul vahidinə görə müəyyən edilən əlavə və güzəştlər ictimai-zəruri əmək məsrəflərini düzgün əks etdirsə də onları çox differensiallaşdırmaq olmur. Bəzən məhsul qrupuna daxil olan ayrı-ayrı çeşidlərin tədavül xərcləri bir-birindən kəskin fərqlənir, o da əlavə və güzəştlərin daha çox differensiallaşdırılmasını tələb edir ki, bu da məqsədəuyğun deyil.

Beləliklə, ticarət güzəştləri mövsümi və regional xarakter daşımaqla müxtəlif əlamətlərə görə differensiallaşdırılır. Həmin əlamətlərə əsasən məhsul qrupları, konkret ərazi və tabeçilik üzrə aparılan bölgü prinsiplərini göstərmək olar. Ayrı-ayrı məhsullar və ya məhsul qrupları üzrə differensiallaşma ayrı-ayrı məhsulların satışına çəkilən tədavül xərclərinin bərabər olmaması ilə əlaqədardır. Nisbətən yüksək miqdarda ticarət güzəşti daha çox tutumlu olan və saxlanması, əlavə tərtibə salınması xüsusi şərait tələb edən, dövriyyə sürəti nisbətən aşağı və beləliklə də tədavül xərclərinin səviyyəsi yüksək olan məhsul qrupları üzrə müəyyənləşdirilir.

Topdansatış qiymətinə görə müəyyən edilən əlavə və güzəştlərin üstünlüyü ondan ibarətdir ki, onların tətbiqi olduqca sadədir. Lakin topdansatış qiymətinə görə əlavə və güzəştlərin tətbiqində vasitəçi strukturların gəlirləri bilavasitə satılan məhsulların qiymətindən asılı olur. Məlumdur ki, həmin məhsulların dəyəri tədavüldə deyil, istehsalda yaranır və satış bazarındakı mövcud tələb və təklif əsasında müəyyənləşir. Buradan isə belə bir qənaətə gəlmək olar ki, vasitəçi strukturlar qiyməti yüksək olan məhsulların realizasiyasına daha çox maraq göstərirlər. Bu da praktiki olaraq çox hallarda qiyməti aşağı olan məhsulların alıcılarında vasitəçi strukturların xidmətindən istifadə üçün heç bir stimullaşdırıcı motiv yaratmır.

Məhsullar franko – vaqon – təyinat stansiya qiyməti üzrə vasitəçi strukturlar tərəfindən satıldıqda məhsulgöndərən (istehsalçı) firma və ya müəssisə onlara xərclərini ödəmək üçün nəqliyyat

güzəştləri verir. Nəqliyyat güzəştlərinin əsas təyinatı məhsulların hərəkətini qaydaya salmaq, orta daşıma məsafəsini qısaltmaq, nəqliyyat parkından düzgün istifadə etmək və iqtisadi cəhətdən məqsədəuyğun olmayan daşımaları aradan qaldırmaqdan ibarətdir.

Müasir bazar iqtisadiyyatı geniş təkrar istehsalı həyata keçirmək, iqtisadiyyatda struktur dəyişiklikləri aparmaq, onun rəqabət qabiliyyətini artırmaq üçün vəsaitlərin cəlb olunmasında böyük rolu olan geniş və hərtərəfli inkişaf etmiş **kredit münasibətləri** sistemi olmadan keçinə bilməz.

Kredit - qaytarılmaq və faiz ödəmək şərtilə pul və ya əmtəə formasında alıcılara verilən borca deyilir. Kreditin hərəkəti zamanı kreditorla borc alan arasında müəyyən iqtisadi münasibətlər yaranır.

Kredit bazar iqtisadiyyatı şəraitində mövcud olan və istifadə edilən mühüm kateqoriyalardan biridir. Başlıca iqtisadi kateqoriya kimi kredit də dövlətlə təsərrüfat subyektləri arasında, təsərrüfat subyektlərinin özləri arasında, eləcə də dövlətlə əhali arasında istehsal və bölgü münasibətlərini əks etdirir. Kredit pul vəsaitlərinin dövlət tərəfindən planauyğun surətdə yenidən bölüşdürülməsi formalarından biri olmaqla əsasən kredit təşkilatlarında (dövlət, kommersiya və beynəlxalq banklarda) təmərküzləşir.

Kreditdən istifadəni təhlil edən zaman nəzərə almaq lazımdır ki, təsərrüfat subyektlərinin təkcə xüsusi dövriyyə vəsaitləri ictimai məhsulun təkrar istehsalın bir mərhələsindən digər mərhələsinə fasiləsiz keçməsini təmin edən bilməz. Çünki, hər bir təsərrüfat subyektinin malik olduğu vəsaitlərin dövriyyə sürətləri arasında əsaslı fərqlər mövcuddur.

İctimai məhsulun dövranı və dövriyyəsi prosesində bəzi təsərrüfat orqanlarında istehsalın fasiləsiz davamı üçün əlavə pul vəsaitlərinə müvəqqəti tələbat yarandığı halda, bəzilərində müvəqqəti sərbəst pul vəsaitləri meydana çıxır. Bu da bazar iqtisadiyyatı şəraitində ölkənin malik olduğu maliyyə vəsaitlərindən səmərəli və əlverişli istifadə etmək məqsədilə kreditin tətbiqi üçün obyektiv şərait yaradır. K. Marks göstərirdi ki, «... kredit məhsuldar qüvvələrin maddi inkişafını və ümumdünya bazarının yaranmasını sürətləndirir ki, yeni istehsal formasının maddi əsasları olan bunları müəyyən inkişaf dərəcəsinə çatdırsın».

Kreditin mənbələri əsasən aşağıdakılar hesab edilir:

1. Əsas kapitalın fəaliyyəti prosesində onun istehsal olunan əmtəələrin üzərinə keçirilən dəyərinin amortizasiya formasında tədricən yığılan hissəsi;
2. İstehsal olunan əmtəələrin satış vaxtı ilə istehsal prosesinin davamı üçün zəruri olan əmək vasitələri və əmək predmetlərinin alınması vaxtının üst – üstə düşməməsi ilə əlaqədar dövriyyə kapitalının bir hissəsi;
3. Əmtəələrin satılması nəticəsində pul vəsaitlərinin daxil olması ilə əmək haqqının ödənilməsi müddəti arasında dəyişən kapitalın sərbəst pul kapitalı formasında çıxış edən hissəsi;
4. Geniş təkrar istehsalı təmin etmək üçün əlavə istehsal amillərinin əldə edilməsi məqsədilə izafi dəyərin kapitallaşan hissəsi;
5. Büdcə sisteminin malik olduğu vəsaitlərin, müxtəlif məqsədli fondların və ehtiyatların hərəkəti;
6. Əhalinin gəlirləri və yığımlar.

Kreditin mahiyyəti onun funksiyalarında ifadə olunur və bunlar da əsasən aşağıdakılardan ibarətdir:

- qaytarılmaq şərti ilə vəsaitlərin yenidən bölüşdürülməsi;
- fondların dövriyyəsinə vasitəçilik edilməsi;
- nəğd pul əməliyyatlarının kredit əməliyyatları ilə əvəz olunması;
- vəsaitlərə qənaətin stimullaşdırılması;
- iqtisadiyyatın dövlət tənzimlənməsi;
- vəsaitlərin dövranına manatla nəzarətin həyata keçirilməsi.

Qaytarılmaq şərti ilə vəsaitlərin yenidən bölgüsü funk-siyası vasitəsilə müəssisələrin, dövlətin və fərdi bölmənin sərbəst pul kapitalları yığılır (akkumulyasiya edilir) və borc kapitalı kimi istifadə olunur.

№ 1/2024 səh.16-23

Kredit mexanizmi vasitəsilə borc kapitalı iqtisadiyyatın inkişafının ümummilli proqramına uyğun gələn və yüksək mənfəətə təminat verən təsərrüfat sahələri arasında müəyyən müddətdən sonra qaytarılmaq şərti ilə yenidən bölüşdürülür. Vəsaitləri yığmaq və yenidən bölüşdürməklə az pul vəsaitlərilə geniş təkrar istehsal sürətlənir, təsərrüfat subyektlərində öz xüsusi vəsaitlərindən daha səmərəli istifadə üçün stimul yaranır, istehsala və məhsulun satışı prosesinə manatla nəzarət funksiyası həyata keçirilir.

Kredit əmtəə və pul tədavülünə əsaslanır. «.. Kredit təsərrüfatı deyilən şeyin özü ancaq pul təsərrüfatı formasıdır, çünki, bu adların hər ikisi istehsalçıların öz arasında mübadilə funksiyalarını və ya mübadilə üsullarını ifadə edir».

Müasir iqtisadi şəraitdə kreditin vacib funksiyasından biri də nəğd pul və dotasiyalarla yanaşı onun iqtisadiyyatın tənzimlənməsində bir alət kimi istifadə edilməsindən ibarətdir. İqtisadiyyatın kredit vasitəsilə tənzimlənməsi təsərrüfat proseslərinə təsir etmək məqsədilə kreditin həcmini və dinamikasını dəyişmək üçün dövlətin həyata keçirdiyi tədbirlər kompleksini özündə birləşdirir. Dövlət borc kapitalının yarandığı ilkin mənbədən son tətbiq sferasına qədər axını prosesində iştirak edərək borc alınması və ya qaytarılması prosedurunun normativ hüquqi bazasını formalaşdırır.

Logistika sferasında kreditə bazar iqtisadiyyatı şəraitində həyata keçirilən iqtisadi tədbirlər sistemindən biri kimi, logistik sistemin iştirakçılarının və onların maliyyə təsərrüfat fəaliyyətinin iqtisadi səmərəliliyinin yüksəldilməsinə aktiv təsir vasitəsi kimi xüsusi diqqət yetirilir.

Kredit münasibətlərinin fasiləsiz inkişafı şəraitində kreditləşmə prinsiplərinin (ssudanın məqsədli istiqaməti, qaytarılması, təciliyi, maddi təminatlılığı, differensiallığı və pulluluğu) böyük əhəmiyyəti vardır. Kreditləşmə prinsiplərinin düzgün dərk edilməsi həm nəzəri, həm də praktiki baxımdan vacibdir. Borc verilməsi qaydası, sənədlərin rəsmiləşdirilməsi, bank və müəssisələrdə operativ mühasibat işlərinin təşkili kreditləşmə prinsiplərinin müəyyənləşdirilməsini zəruri edir.

Yuxarıda bu və ya digər məhsulları alan zaman potensial alıcılara göstərilən müxtəlif növ logistik xidmətlər nəzərdən keçirildi. Əksər hallarda logistik xidmətləri göstərən firma və şirkətlər bu xidmətlərin səviyyəsini kəmiyyətcə qiymətləndirmək zəruriyyəti ilə qarşılaşırlar.

Logistik xidmətin iqtisadi əhəmiyyətinə və təsərrüfat subyektlərinin həyatında oynadığı rola baxmayaraq hal-hazırki dövrə qədər servis xidmətinin keyfiyyətini qiymətləndirmək üçün səmərəli üsul mövcud deyil. Bu da hər şeydən əvvəl əmtəəlik məhsullardan fərqli olaraq xidmətlərin spesifik xüsusiyyətləri ilə əlaqədardır. Belə xüsusiyyətlərə adətən aşağıdakılar aid edilir:

- mənbədən ayrılmamazlığı. Fəaliyyət forması kimi logistik xidmət mənbənin olub və ya olmamasından asılı olmayaraq mövcud olan maddi məhsuldan fərqli öz mənbəsindən ayrılmazdır. İstehlakçılar (alıcılar) xidmətin göstərilməsi prosesində birbaşa iştirak edirlər;
- xidmət nəqletməyə və anbarlaşdırmaya məruz qalmadığından göstərildiyi anda böyük həcmdə istehlak (qəbul) edilir;
- keyfiyyətin qeyri - sabitliyi. Logistik xidmətin keyfiyyəti logistik sistemin təkmilləşdirilməsi dərəcəsindən, istehlakçıların tələbindən, habelə bir sıra faktorlardan asılı olaraq dəyişkəndir. Bir çox hallarda logistik xidmət komp-leks parametrlər üzrə standartlaşdırılır. Lakin buna baxmayaraq xidmətin keyfiyyətində baş verən dəyişikliklər müəyyən hədd, çərçivə daxilində tərəddüd edir.
- istehlakçılar (alıcılar) xidməti qəbul edən zaman heç vaxt onun mülkiyyətçisi olmurlar;
- xidmətin ünvanlı olması. Logistik xidmətlər bilavasitə konkret sifarişçiyə istiqamətlənir. Daha doğrusu, məqsəd bazarının ümumi tələbinin ödənilməsinə yönələn və istehsal edilən maddi məhsuldan fərqli olaraq burada konkret istehlakçı nəzərdə tutulur və ona xidmət göstərilir.
- göstərilən hər bir logistik xidmət istehlakçı üçün nadir hesab edilir. Çünki, bu tip xidmət özündən əvvəl və ya sonra gələn hər bir xidmətdən spesifik parametrləri, müddəti, keyfiyyəti, istehsal və istehlak şərtləri baxımından fərqlənir.
- tələbin elastikliyi. Maddi məhsullardan fərqli olaraq logistik xidmətin üstünlüyü satış bazarında tələbin elastikliyi ilə səciyyələnir. Bu sahədə tədqiqat aparan mütəxəssislər belə qənaətə gəliblər ki, normal iqtisadi şəraitdə logistik xidmətlərin qiymətinin azaldılması ilə onlara tələb olduqca tez artır və istehlakçı müəssisələrin gəlirləri artır.

• xidmətin göstərilməsi fəaliyyət – prosesdir və buna görə də istehlakçılara xidmətin konkret məhsulunu göstərmək və onların nəyə görə haqq ödədiklərini izah etmək olduqca çətindir;

• xidmətin göstərilməsi adətən xırda fəaliyyətlərdən – subservislərdən ibarət oluğundan istehlakçılar bütün bu fəaliyyətlərin qiymətləndirilməsini həyata keçirirlər. Xidmətin keyfiyyəti və cazibədarlığı göstərilən xidmət üzrə fəaliyyətlərə istehlakçı tərəfindən ümumi, yekun qiymətlərin verilməsi qabiliyyətindən asılıdır.

Cəmiyyətdə məcmu ictimai əmək maddi istehsala və qeyri - istehsal sahəsinə bölünür. Belə bir bölgünün aparılması həm nəzəri, həm də praktiki baxımdan aktuallıq kəsb edir. Nəzəri cəhətdən bu cür bölgünün aparılması bütün fəaliyyət növlərinin maddi əsasını təşkil edən iqtisadiyyatın birinci sahəsini və bilavasitə maddi bazisi birinci sahədə yaradılan və bu əsasda fəaliyyət göstərən iqtisadiyyatın ikinci sahəsini müəyyənləşdirməyə imkan verir. Praktiki baxımdan isə belə bölgü ümummilli məhsulun daxili strukturunda nemətlərin əşya və xidmət formasında istehsal edilməsi üçün maddi və qeyri - maddi istehsal sahələrinin rolu və paylarını göstərir.

Maddi istehsalın qeyri – istehsal sahəsindən fərqləndirici cəhəti:

- insanın təbiət maddələrinə təsiri;
- təbiət maddələrini dəyişdirə bilmək bacarığı və dərəcəsi;
- insanların əmək fəaliyyəti formasından ibarətdir.

Bu üç fərqləndirici xüsusiyyət birlikdə maddi istehsalın mahiyyətini və onun bütün digər fəaliyyət növlərindən, xüsusilə də mənəvi fəaliyyətdən fərqini göstərir. Maddi istehsalın mahiyyəti insanla təbiət arasında baş verən maddələr mübadiləsi ilə xarakterizə olunur və bu zaman əmək predmeti kimi təbiət əşyaları və qüvvələri çıxış edir. Təbiətə dəyişdirici təsir isə əmək vasitələri ilə həyata keçirilir. Başqa sözlə, maddi istehsalın insanın digər fəaliyyət növlərindən fərqi əmək prosesinin mahiyyəti və onun üç şərti (əmək, əmək predmeti, əmək vasitəsi) ilə müəyyən edilir. İnsanla təbiət arasında bilavasitə maddələr mübadiləsini təşkil və təmin etməyən bütün digər fəaliyyət növləri maddi istehsal sahəsindən kənada qalır və qeyri-maddi istehsal sahəsini təşkil edir. Daha doğrusu, iqtisadi münasibətlər maddi istehsalda yaranır və bu və ya digər formada qeyri - istehsal sahəsinə yayılır. Qeyri-istehsal sahəsində iqtisadi münasibətlər maddi istehsal sferasında mövcud olan iqtisadi münasibətlərlə müəyyən olunur.

Əməyin xarakterindən və onun nəticələrindən asılı olaraq xidmətlər: maddi və qeyri - maddi xidmətlərə bölünür. Maddi xidmətlər yeni məhsulun yaradılmasında özünü göstərmir, əşya forması almır, lakin maddi məhsulların istehlak dəyərini təzələyir və beləliklə onların istehlak – istismar müddətini uzadır. Buna görə də maddi xidmətləri, istehsal fəaliyyətinin xarakterindən asılı olaraq qeyri-istehsal sferasına deyil, xidmət sferasına daxil edirlər.

## Nəticə

Beləliklə, xidmət bazarı iki əsas səbəbə görə digər bazarlardan əsaslı surətdə fərqlənir:

1. **Xidmət onu göstərən ana qədər mövjud olmur**. Başqa sözlə, bu səbəb xidməti alana (və ya göstərənə) qədər onu müqayisə etməyə və ya qiymətləndirməyə imkan vermir. Burada yalnız gözlənilən (əldə olunacaq) səmərəni müqayisə etmək mümkündür.

2. **Xidmət olduqca yüksək qeyri – müəyyənlik səviyyəsinə malikdir**. Belə bir riskin mövcud olması bir tərəfdən müştəriləri – xidmət obyektlərini (alıcıları) xoşagəlməz vəziyyətə salır, digər tərəfdən isə satıcıların xidmət bazarına müxtəlif xidmət növlərinin çıxarılmasını – təklifini çətinləşdirir.

Xidmət bazarının bu xüsusiyyətləri və eləcə də xidmətin öz təbiəti (xidmətin istehsalı və istehlakı zaman və məkan baxımından üst – üstə düşdüyündən onları bir yerdən digər yerə göndərmək və onları ehtiyat formasında yığıb saxlamaq mümkün deyil) – logistik xidmətin xüsusiyyətlərini müəyyənləşdirir.

## ƏDƏBİYYAT

1. İmanov T.İ. logistikanın əsasları. Bakı. ―Təhsil‖ NPM, 2055. -474 səh.
2. Гаджинский А.М. Логистика-М.: - Издательско-торговая корпорация «Дашков и К», 2007.-

472 с.
3. Доналд Дж. Бауэрсокс, Дейвид Дж. Клосс.- Логистика. Интегрированная цепь поставок.- М.: Изд. «Олимп-Бизнес», 2001-640 с.
4. Миротин Л.Б. транспортная Логистика, М.:- Экзамен, 2003.-512 ст.

**УДК 330.342.24**

**Поток услуг и их экономическая природа**

**Гасанова К.Р.**

**Резюме:** Достижение высокой экономической эффективности при движении материальных потоков между хозяйствующими субъектами в условиях формирующейся и стабильно развивающейся рыночной экономики обеспечивается главным образом за счет предоставления этим хозяйствующим субъектам высоких финансовых услуг. Финансовая служба обеспечивает условия для организации оптимального движения материальных ценностей, первоначально идентифицируя и изучая логистические финансовые потоки, соответствующие движению товарно-материальных и товарно-нематериальных ценностей.

**Ключевые слова**: поток, запасы, финансовые потоки, материальные потоки, логистические операции.

**UDC 330.342.24**

**Service flows and their economic significance**

**Gasanova K.R.**

**Summary**. Achieving high economic efficiency during the movement of material flows between economic entities in the conditions of the emerging and stable developing market economy is mainly ensured by the provision of high financial services to these economic entities. The financial service provides conditions for the organization of the optimal movement of material values, initially, the identification and study of logistical financial flows corresponding to the movement of commodity - material and commodity - non-material values.

**Keywords:** flow, stocks, financial flows, material flows, logistic operations

Redaksiyaya daxilolma: 20.02.2024
Çapa qəbul olunma: 27.03.2024

№ 1/2024 səh.24-31

UOT 338.12
DOI: 10.30546/JIECM.2024.1.023.

# KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ İNSAN RESURSLARININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

[1]Sevda Tofiq qızı Hacıyeva, [2]Lamiyə İlyas qızı Bayramova,
[3]Vüsalə Faiq qızı Cənnətova, [4]Mələk Baba qızı Məmmədova

Azərbaycan Texnologiya Universiteti

utecalamiya@gmail.com

***Xülasə.Tədqiqatın aktuallığı:*** *İnsan resurslarında effektiv idarəetmənin qurulması istənilən şirkətin əsas məqsədi olaraq qalır. Bu məqsədə şirkətin resurslardan, xüsusilə insan resurslarından tam və səmərəli istifadə etməsi ilə nail olmaq mümkündür.*

***Tədqiqatın məqsəd və vəzifələri:*** *Tədqiqatın əsas məqsədi real göstəricilər və tətbiq olunan dərəcələr əsasında ölkəmizdə mövcud vəziyyəti təhlil etməkdir. Burada əsas məqsədlər bunlardır:*

*-Strateji idarəetməyə keçidin əhəmiyyətinin açıqlanması, son mərhələdə insan resurslarının idarə edilməsi;*

*-Bəzi ölkələrin təcrübələrinin araşdırılması;*

*-Ən vaciblərindən biri olan performansın nəticələrinin təhlil edilməsi.*

*Azərbaycan şirkətlərində, xüsusən də Dövlət Neft Şirkətində idarəetmə funksiyaları (SOCAR);*

***İstifadə olunan tədqiqat metodları:*** *Tədqiqatda analiz, sintez, müqayisə, anket metodlarından istifadə edilmişdir.*

***Tədqiqat məlumat bazası:*** *Məlumat bazası yerli və xarici müəlliflərin əsərlərindən, qanunvericilik sisteminə, inkişaf strategiyalarına dair sənədlər, beynəlxalq hesabatlar təşkilatlar, SOCAR-ın fəaliyyəti haqqında illik hesabatlar və internet resursları.*

***Tədqiqat məhdudiyyətləri:*** *Sorğu zamanı bir neçə təşkilat cavab verməkdən imtina etdi. Ən əhəmiyyətli suallar daxili məsələlərin şərh olunması ilə bağlı idi.*

***Tədqiqatın nəticələri:*** *Tədqiqat nəticəsində məlum olub ki, Azərbaycan müəssisələrində insan resurslarının idarə edilməsi kifayət qədər deyil və inkişaf etdirilməlidir.*

***Açar sözlər:*** *informasiya, intellektual kapital, informasiya termini, innovativ inkişaf, kadrların idarə edilməsi, insan resurslarının idarə edilməsi*

**Giriş.**Dünyada bir çox şey üzərindən rəqabət aparılır, bunlardan insan kapitalı daha mühümdür. İnsanın yaşam ünsürləri sağlamlıq, intellektuallıq və əmək fəaliyyətidir ki, bu amillərə qoyulan sərmayə insan kapitalı adlanır.

İntellektual kapitalın xərclərinə təlim, təhsil, seminarlar, konfranslar və s. daxildir. Bu xərclər insanların bilik səviyyəsinin artmasına imkan yaradır.

Hər bir müəssisənin idarəedilməsində həlli zəruri olan məsələlərdən biri də müəssisənin işçi heyətinin formalaşdırılması, heyətin idarə olunmasıdır. Bu baxımdan hər bir müəssisədə kadrların hazırlanması, düzgün yerləşdirilməsi və idarə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz buna görədir ki, bu gün uğurlu fəaliyyət göstərən müəssisələrin hər biri kadr siyasətini uğurla həyata keçirmiş olan təşkilatlardır. Elə isə, tədqiqatımızı idarəetmə sistemində kadrların hazırlanması, onların düzgün bölüşdürülməsi, eləcə də kadr siyasətinin həyata keçirilməsi üzərində əhatəli təhlil, sistemli yanaşma metodlarına əsaslanmaqla davam etdirək.

Qeyd etdiyimiz kimi, hər bir müəssisənin idarəedilməsində əsas məsələlərdən biri də kadrların düzgün seçilməsi, peşə ixtisas səviyyəsindən, təhsilindən, həmçinin də potensialından asılı olaraq onların düzgün yerləşdirilməsinin təmin olunmasıdır. Bu fəaliyyətin həyata keçirilməsində isə hər bir müəssisə, idarə və yaxud da təşkilat özünün kadr siyasətini əlində rəhbər tutur.

№ 1/2024 səh.24-31

**“İnformasiya”** termini mənşəcə latın sözü olub, şərhetmə, izahetmə, məlumatvermə mənalarını daşıyır və «informatio» sözündən yaranmışdır. İnformatika elmində informasiya təyin olunmayan anlayış kimi qəbul edilir.

İnformasiya ifadə olunma formasından asılı olmayaraq insanlar, canlılar, cansızlar, proseslər, hadisələr, faktlar və s. haqqında olan bilik və məlumatlardır. Biliklər isə faktlar və onlar arasındakı qarşılıqlı asılılıqlar şəklində ifadə olunur. İnformasiyanı ötürmək, yaratmaq, emal etmək, saxlamaq mümkündür. İnformasiya cəmiyyətdə dövr edən bir prosesdir.

İnformasiya təbiətdə siqnallar formasında ötürülür və aşağıdakı kimi iki tipə ayrılır:

- Analoq
- Rəqəmli.

İnsanlardan asılı olan, hissiyyat üzvlərinə görə analoq siqnallar kimi ötürülən həmçinin kompüterlər ilə emal edilib ötürülən rəqəmli siqnallar şəklində olan informasiyalardır.

Müxtəlif informasiyalar fərqli intensivliyə malik olan siqnallar daşıyır. Belə tipli informasiyalara analoq informasiya deyilir. Analoq informasiya davamlıdır, yəni kəsilməzdir. – İnsanlar təbiətdə iki eyni formalı bulud və ya yarpaq görə bilməz. Kompüterdə isə informasiya fərqli xüsusiyyətə malik verilənlər şəklində olur. Hər hansı bir şəklin rəngi nə qədər parlaqdırsa, kompüterin yaddaşında da bu siqnal bir o qədər çox olur. Bunları bütün növ siqnallar üçün eyni ilə səs və başqa siqnallara aid etmək olar. Belə formada təsvir olunan informasiya rəqəmli informasiya adlandırılır.

Rəqəmli informasiyalar diskretdir, yəni ki, forma, səs və rənglərin sonsuz müxtəlifliyinin təsviri üçün ədədlərin sonlu və müəyyən sayından istifadə olunur. Analoq informasiyanın rəqəmli informasiya şəklində təsviri analoq-rəqəmli çevrilmə kimi adlanır. Belə çevrilmədə istifadə olunan ədədlər nə qədər fərqli olarsa, rəqəmli informasiyanın diskretliyi, yəni ki, onun dəqiqliyi də bir o qədər artıq olar, yəni rəqəmli informasiya analoqa yaxın olur. İnformasiyanın istifadəyə yararı olmalıdır və bunun üçün aşağıdakı şərtlər ödənilməlidir.

İnformasiyanın yeddi məlumat prosesi var və COASTPD (Collect, Organise, Analyse, Store(retrieve), Transmit(receive), Process and Display) kimi tanınan bir qısaltmaya uyğundur. Bu, toplamaq, təşkil etmək, təhlil etmək, saxlamaq (almaq), ötürmək (almaq), proses və keçirmək kimi adlanır. Bu yeddi məlumat prosesini izlədikdən sonra, bir məlumat sisteminin məlumatları necə toplayaraq emal etməsi və sonra istifadəçi və ya məqsəd üçün göstərməsi ilə addım-addım gedə bilərsiniz.

İnnovativ inkişafın təmini informasiya sistemləri ilə əlaqəlidir. İnformasiya prosesləri nə qədər çox dövr eləsə, inkişaf da daha çox olacaq. Deməli bu proses bütün sahələrin iqtisadi inkişafına təsir edəcək amildir. İnformasiyanın təminatı prosesi elə informasiyanın göstərdiyimiz yeddi prosesi ilə əlaqəlidir. Elm və texnikanın sürətli inkişafı bütün peşə sahələrinə, şirkətlərə, özəl sektora eyni ilə dövlət sektoruna xüsusi təsir edir. Bütün sektorlarda informasiyanın təmin edilməsi təkmilləşdirilir. Elektron hökümət, elektron kitabxanalar, distant təhsil, sağlamlıq üçün onlayn konsultasiyalar və s. informasiya təminatını reallaşdırır. İnnovasiyanın əsas strukturu, innovasiyaya aid olan elmi profil, innovativ sürət, innovativliyin idarəetmədə rolu, innovativ xərclər, innovativ texniki məhsullar innovasiyaya aid olan elmi-texnoloji mübadilələr hər biri informasiya təminatının təkmilləşməsi prosesinə təsir edən göstəricilərdir [1].

İnformasiya tömininin təkmilləşdirilməsinintətbiqində və işlənib hazırlanmasında əsas məqsəd ondan ibarətdir ki, şirkətin doğru şəkildə idarə edilməsi üçün müasir və yeni informasiya təchizatından istifadə edilməlidir, buna görə də, onların yaradılması əsas şərtdir. Şirkət 3 səviyyə ilə idarə olunur: operativ, strateji və taktiki. Rəhbərlər və liderlər tərəfindən təşkilat menecmentinin problemlərinə və onların həll yollarına maraq daim çoxalır. İdarəetmənin ən effektiv metodları şirkət və təşkilatlar arası rəqabət qabiliyyətinin artmaq amili, biznesin daha səmərəli aparılmasının əsas aləti kimi daha çox qəbul edilir. Müasir dövrdə ən təsirli idarəetmə özü ilə təşkilatın dəyərli resursunu verməlidir. Buraya material, maliyyə, insan və başqa resurslar da aiddir.

№ 1/2024 səh.24-31

İnformasiya sistemi termininin informasiya təminatının təkmilləşdirilməsində xüsusi yeri vardır. Yəni ki, informasiya sistemi–idarəetmə prosesində informasiyanın emalı, toplanması, saxlanması və s. proseslərini həyata keşirərək informasiyanı təmin edir.

Bu mərhələlərdən əlavə olaraq, alınan informasiyanın həqiqiliyini yoxlamaq üçün üçün "əks əlaqə" "prinsipi" ilə eyni prosesi əksinə aparmaq kifayətdir. Bu halda qəbul edilmiş informasiya birinci məlumatla eyni olarsa o, doğru informasiya kimi qəbul edilir və sonrakı addım araşdırmalar üçün əsas amil kimi götürülür.

İnformasiya təminatı qeyd etdiyimiz kimi bir çox sahələrdə özünü göstərir. Menecmentdə informasiya təminatı, Marketinqdə informasiya təminatı və s. İnformasiya təminatı iqtisadiyyat sahəsinə də inteqrasiya edir. O, insan kapitalının qiymətləndirilməsində xüsusi mövqe tutur. Bilik iqtisadiyyastının inkişafına insan kapitalı müsbət təsir edir, bilik iqtisadiyyatı isə birbaşa informasiya sistemləri, həmçinin onun təminatı ilə əlaqəlidir.

İnformasiya inqilabı ən müasir informasiya kommunikasiya texnologiyalarının tətbiqi ilə sosial həyatın informasiyalaşdırılması kimi göstərilir və indiki dövrümüzdə aktual proseslərindən birinə keçid etmişdir.

XX əsrin 80-ci illərində kompüterlər yeni yaranan an cəmiyyət onun müxtəlif imkanları haqqında tam təsəvvürlərlə tanış deyildi, informasiya əsri başlayır və dünyanı, onun keçmişini tam şəkildə dəyişir. Hal-hazırda formalaşmaqda davam edən informasiya sözünü çoxları təsəvvür belə edə bilməzdi. Artıq son zamanlarda informasiya texnologiyalarının sürətlə inkişafı nəticəsi olaraq biz yeni İnformasiya Dünyasına keçid dövrünü yaşayırıq. Bu keçid mərhələsi zamanı insanları nə kimi hadisələrin gözlədiyini bilməsək də, onu bilməliyik ki, kompüter əsri cəmiyyəti daha çox inkişaf etdirəcək və beləliklə, informasiya cəmiyyətinin yaranmasına təkan verəcək. İlk başda qurulan məzmunu və əlaqələrin forması dəyişəcək həmçinin yeni iqtisadi sahələrin yaranmasına təkan verəcək, bu kimi dəyişiklik fərdi kompüterlərin yaratdığı imkanlardan daha da güclü olacaq. Belə ki, elektron poçt, multimedia məhsulları, internet, intellektual sistemlər,elektron ticarət, fərdi kompüterlər, elektron bank, virtual oyunlar, İP-telefon, obrazların və nitqin tanınması – bunlar hər biri növbəti inqilabı dəyişikliyi yaradan əsas amillər olacaq.

İnformasiya Dünyası mövzusu insan kapitalının inkişafında kütləvi informasiya və kommunikasiya vasitələrinin, sammitlərin, seminarların, elmi konfransların, diplomatik görüşlərin əsas müzakirə obyektinə çevrilir. Son dövrlərdə artıq cəmiyyətin hər bir üzvü vəzifəsindən asılı olmayaraq buna böyük maraq göstərilir. Bütün ölkələrdə informasiya cəmiyyətinin tam formalaşması çoxşaxəli bir prosesdir.

Azərbaycanda insan kapitalının inkişafı informasiya cəmiyyətinin yaranmasına yol açan əsas amildir. Azərbaycanda həyata keçirilən dövlət siyasəti informasiya-kommunikasiya texnologiyalarının ayrı bir sahə kimi inkişaf etməsinə təsir göstərir. Müasir Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları energetika sektorundan sonra inkişaf etmiş ikinci sahə hesab edilir.

Dünya iqtisadiyyatının inkişafının önəmli ünsürü insan kapitalı və informasiya resursu anlayışlarıdır. İnformasiya resursu (komputer, modem, internet və.s) həmçinin ona daxil olan məlumat və bilik toplusu insan kapitalına daxil edilir, bununla yanaşı onun təməli və bazası vardır. Vətəndaş cəmiyyətinin yaradılması, cəmiyyətin informasiya resursları ilə təmin edilməsi, iqtisadiyyatın inkişafı, informasiya təhlükəsizlikləri və s. bunların hər biri insanın inkişaf faktorudur. İlk olaraq "informasiya iqtisadiyyatı", "informatika" və "informasiya cəmiyyəti" terminləri haqqında məlumatları dünyanın ən inkişaf etmiş ölkələri yaymışlar. Bu terminlərlə sinonim olan terminlər aşağıda qeyd olunub; "cəmiyyət bilik", "yeni iqtisadiyyat", "innovasiya iqtisadiyyatı", "açıq iqtisadiyyat", "bilik", "açıq cəmiyyət", "bilik iqtisadiyyatı". Başqa sözlə desək, vətəndaş cəmiyyətinin inkişafı və tərəqqisi iqtisadiyyatın artım tempinə müsbət təsir edir, beləliklə,insana ayrılan kapitalın bir hissəsi informasiya cəmiyyətinə aiddir.

İnformasiyanın cəmiyyətə çatdırılması üçün informasiya proseslərindən istifadə olunur. İnformasiya prosesləri də resurslar və insanlar arasında qarşılıqlı əlaqə nəticəsində yaranır. Deməli, insanın zehni əməyi və iş qabiliyyəti ona ayrılan kapitaldan asılıdır.

№ 1/2024 səh.24-31

İnsan kapitalı və insan potensialı – cəmiyyətin ən ədalətli xüsusiyyətlərini özündə daşıyır, çünki onlar bir-biri ilə sıx bağlı olub, uzun illər ərzində yaranır, nəsildən-nəslə ötürülür və ən əsası cəmiyyətdəki sosial institutlar üzərində qurulurlar.

Dövlətin sosial siyasətinin rolu ondan ibarətdir ki, müasir dövrün tələblərinə cavab verən yeni institutlar yaradılır, mövcud institutlarda isə bərpa, yenilənmə işləri yerinə yetirilir.

Azərbaycanda və keçmiş postsovet məkanı ölkələrində sosial siyasətin qarşısında dayanan ən çətin məsələlərdən biri, XX əsrdə sosializm institutları bazasında yaradılmış bütün institutların və cəmiyyətin təkrar sosiallaşdlırılmasıdır. Bu səbəbdən də millətin insan potensialının yaradılması və inkişafı prosesi müəyyən çətinliklərlə müşayiət olunur [5].

Azərbaycan Respublikasında formalaşan ən mürəkkəb instituonal kompleks cəmiyyətdə paternalist münasibətlər və hər şeyin həllini, xüsusən də bütün həyatı təminat məsələlərinin həllini, məşğulluq məsələlərinin həllini dövlətdən gözləməkdir. Bütün təşəbbüslərin dövlətin sosial siyasəti əsasında fəallaşdırılması zamanı, daha çox ehtiyacı olanlara ünvanlı yardım kimi deyil, iş qabiliyyətli əhalinin işlə təmin olunması istiqamətində məqsədəuyğun işlər görülməlidir. Burada əhaliyə pulların paylanılması deyil, onlara əmək bazarında şəraitin dəyişilməsinə uyğun müstəqil, öz problemlərini həll etmək imkanlarını yaratmaq lazımdır.

Azərbaycan Respublikasında İcraedici hakimiyyət orqanlarının sosial fəaliyyətlərində ünvanlı yardım tədbirləri xüsusi yer tutur. Əlbəttə ki, bu tədbirlər lokal olaraq müəyyən fayda verə bilər, lakin sosial siyasətdə və sosial işlərdə əsas istiqamət əhali üçün elə bir xüsusi individual şəraitin yaradılmasıdır ki, hər bir şəxs müstəqil olaraq problemlərini həll etsin, iqtisadi cəhətdən fəal həyatını qura bilsin, imkan və meyillərini bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi məcrasına yönəldə bilsin.

Sənaye baxımından bir neçə inkişaf etmiş ölkələr üzrə təhlillər göstərir ki, bütün kanallar üzrə əmək haqlarında qeyri-bərabərliyin transmissiyası-genetik (qabiliyyətli valideynlərin uşaqlarına ən yaxşı bacarıqlar miras qalır), eyni zamanda sosial-mədəni (varlı ailələrdən çıxanlar daha yaxşı təhsil alır, daha geniş əlaqələri olur) – təxminən 0, 3. Bu isə o, deməkdir ki, əgər kiminsə əməkhaqqı orta səviyyədən iki dəfə çoxdursa, onun oğlunda bu göstərici 30%, nəvəsində 9% olacaqdır. Beləliklə, iqtisadi üstünlük bütün ömrü boyu, üç nəsildə babadan övlada qədər heçə endirilir.

Yuxarıda göstərilən insan kapitalı anlayışının təhlili, belə bir nəticəyə gəlməyə imkan verir ki, insan kapitalı məcmu kapitalın bir hissəsidir və təhsilə, səhiyyəyə, peşə hazırlığına, iş qüvvəsinin miqrasiyasına və s. çəkilən xərclərin toplanması formasında diqqəti cəlb edir.

İnsan kapitalının təkrar istehsalının istiqamət və məsrəflərinin müəyyənləşdirilməsi üçün investisiya obyekti kimi əsas aktivlər sisteminin müəyyənləşdirilməsinin xüsusi əhəmiyyəti vardır.

Beləliklə, dövlətin investisiya və özəl biznes siyasətində milli iqtisadiyyatın müxtəlif sferalarına vəsaitlərin sərf edilməsində, insan kapitalının inkişafı və toplanmasının bütün aspektləri nəzərə alınmalıdır.

Qeyd etmək lazımdır ki, insan kapitalına yatırımlardan əldə edilən verimlilik insanın fitri qabiliyyətlərinin inkişaf etdirilməsi ilə çox böyük fayda verə bilər – burada söhbət ilkin, anadangəlmə, bioloji kapitaldan gedir. Qabiliyyətlərin inkişaf etdirilməsi onların fərdi qaydada inkişaf etdirilməsini nəzərdə tutur.

Həmin keyfiyyətlərin inkişafından əldə edilən verimlilik bir də o, zaman yüksək ola bilər ki, insanın digər fəaliyyət növlərinə də investisiyalar paralel olaraq yatırılır. İnsanın səmərəli fəaliyyət göstərməsinə göstərən digər mühüm amil, insan kapitalının konkret situasiyalara adaptasiya qabiliyyətlərinə müvafiq toplanmasından asılıdır. Əgər insan sahibkarın dəyər verdiyi və pul ödəməyə hazır olduğu bilik və bacarıqları toplayırsa, insanın öz bacarığından renta gəliri yaranır və onun adaptasiya qabiliyyəti yüksəkdir. İnsanın müvazinətli, tarazlaşdırılmış əmək bazarında gəlirliliyinin orta səviyyədən aşağı düşməsi onun adaptasiya qabiliyyətinin də aşağı düşməsindən xəbər verir (yəni spesifik insan kapitalının ucuzlaşması baş verir) və bunun üçün də insan kapitalının təkrar istehsalı üçün investisiya yatırımları tələb olunur, aktivlərin toplanılması istiqaməti dəyişilməlidir. Mobillik və yığcamlıq insan kapitalının ayrılmaz tərkib hissəsidir, yəni burada söhbət ətraf mühitdə baş verən

dəyişikliklərə uyğun olaraq koqnitiv fəaliyyət aparatının strukturunun yenidən təşkil olunmasından gedir. Şirkətin o fərdləri yüksək rəqabətədavamlı fərdlər hesab olunur ki, onlar ətraf mühitin cari xüsusiyyətlərinə deyil, gələcək parametrlərinə adaptasiya olur. İstənilən fəaliyyət gələcəyə istiqamətlənmişdir. Bu adaptasiya qabiliyyəti fərdlərin və şirkətlərin mental qurğularının funksiyaları kimi diqqəti cəlb edir. Məhz həmin fərdlər gələcəkdə nadir hesab edilən resursları toplaya bilir, investisiyalardan gəlir əldə edir, əhəmiyyətli dərəcədə cari bazar faiz dərəcələrinin yüksəlməsinə nail olurlar. Deyilənlərlə yanaşı bu fərdlər (şirkətlər) mühitin xüsusiyyətlərində gələcəkdə baş verəcək dəyişiklikləri öncədən sezərək onları idarə edə bilir, artıq toplanmış aktivlərə tələbat yarada bilirlər [3].

Ekstensiv artım aktivlərin nisbətən cari xüsusiyyətlərinin toplanılması ilə xarakterizə olunur və gələcəkdə rəqabət üstünlüklərinin əldə olunmasına təminat vermir. Güc strategiyasında məhdud resursların zəbt edilməsi müşahidə olunur. Bütün bunlar tələbatları təmin olunan istehlakçılar tərəfindən resurs sahibinə təlqin olunur. Fərdlərin özlərində tələbatlarını daha yaxşı ödəmək yollarının müəyyənləşdirilməsi və həmin tələbatların ödənilməsi təminatının azalması resurs istehlakçılarının iddia səviyyələrinin aşağı düşməsinə, onların təmin olunması üsullarının sadələşdirilməsinə də səbəb olur.

İnnovasiya inkişafına əsaslanan intensiv artım insanların tələbatlarının təmin olunmasının genişlənməsinə, müvafiq olaraq insanların inkişaf etməsinə səbəb olur.

Cari tələbatların tam olaraq ucuz vasitələrlə təmin olunması yolu ilə, sərbəst qalmış resursların tələbatların təmin olunmasına yönəldilməsi yolu ilə bütün bunlar həyata keçirilə bilər. Cari tələbatları novator şirkətlərlə yanaşı, imitator şirkətlər də təmin edə bilir. Lakin gələcəkdəki tələbatları ancaq novator şirkətlər təmin edə bilir. Məhz iqtisadi sistemin tələbatları və onun resurslarla təmin edilməsi, ənənəvi fəaliyyət sferalarında yenilik və irəliləyişlər nəticəsində müəyyən vəsait məsrəflərinin xərclənməməsi innovasiyalardan istifadə edilməsini zəruri edir. Yəni innovasiyaların meydana gəlməsi deyil, onların tətbiqinin faydalı olması innovasiyaların tətbiqini sərfəli edir.

Azərbaycanda iqtisadi artım innovasiya iqtisadiyyatının yaranmasına səbəb olmadıqda bu zaman mülkiyyət üzərində nəzarət hüququ olan, həmçinin institusional və təşkilat şəbəkələrində nüfuz sahibi olan şəxslərin öz işlərində innovasiya metodları və texnologiyalarının tətbiq edilməsinə maraqlarının olmamasından xəbər verir.

Qeyd etmək lazımdır ki, uzun müddətli perspektivdə ancaq innovasiya artımı sərfəlidir, güc strategiyası qeyri səmərəlidir, investisiya resurslarına çıxış imkanlarının olması, həmçinin innovasiyaların tətbiqinin stimullaşdırılması üçün təsərrüfat subyektlərinin öz məqsədlərinə nail olması bacarığı düzgün formalaşdırılmalıdır.

Hesab edirik ki, keyfiyyətli insan kapitalı – milli sərvətdir, istənilən cəmiyyətdə ən qiymətli sərvət hesab edilə bilər. İnsan kapitalı nə qədər inkişaf etmişdirsə, cəmiyyətdə iqtisadi münasibətlər də bir o qədər yüksək inkişaf etmişdir.

İnsan kapitalının iqtisadi kateqoriya kimi formalaşmasına klassik yanaşmalar nəzərdən keçirilərkən diqqətimizi cəlb edən cəhət insan kapitalının cəmiyyətin insan potensialından transformasiyasıdır. Sözügedən transformasiya prosesi millətin öz həyatını və güzəranını qurarkən təşəkkül tapmış institusional xüsusiyyətlərdən asılıdır.

Müvafiq olaraq belə qənaətə gəlmək mümkündür ki, insanlar iqtisadi sistemdə dəyər istehsal edən yeganə elementlərdir. İnsan cəmiyyətin tərəqqisinin yeganə aparıcı qüvvəsidir, çünki məhz insan ona məxsus olan fitri qabiliyyətlərinə görə izafi dəyər istehsal edə bilər. Burada söhbət insaniyyətdən, praktiki fəaliyyətə motivasiyadan gedir.

İnsan kapitalını formalaşdıran faktorların mövcudluğu hər zaman yeni sosial institutlardan asılı deyildir. Lakin, eyni zamanda, cəmiyyətin müəyyən xüsusiyyətləri də nəzərə alınır, məsələn milli mədəniyyətin tipi, cəmiyyətdə sosial texnologiyaların üstünlük təşkil etməsi, intellektual əməyin səviyyəsi, vətəndaşların həyat tərzi və s.

Yuxarıda deyilənlərlə əlaqədar belə bir qənaətə gəlmək mümkündür ki, insan kapitalını insan potensialından xüsusi alətlər vasitəsi ilə formalaşdırmaq mümkündür. Burada əsas alət sosial siyasətdir və sosial siyasət cəmiyyətdə insan kapitalının formalaşdırılması üçün zəmin yaradır.

№ 1/2024 səh.24-31

Müasir dövrdə Azərbaycanın dövlət siyasətində əsas vurğu əhalinin sosial müdafiəsinin ənənəvi funksiyalarından yeni funksiyalar üzərinə doğru yer dəyişdirməsidir. Burada əsas diqqət insan potensialının inkişafı və reallaşdırılması, iş qabiliyyətli əhalinin əməyə motivləşdirilməsinə yönəldilir. Çünki insan potensialı və insan kapitalının inkişafından cəmiyyətin inkişafı asılıdır, insan kapitalı nə qədər rəqabətə davamlıdırsa, həmin ölkə, eləcə də bu və ya digər ictimai sistem rəqabətə davamlıdır.

İnsan inkişafının konseptual məzmunu üç nəhəngin üzərində qurulmuşdur: insanların malik olduqları imkanları səciyyələndirən həqiqi azadlıqları, insanların öz taleyüklü məsələlərini həll etmək imkanına təsir edən proses azadlıqları, sosial ədalətin və insan hüquqlarının qorunmasını təmin edən ədalətin bərqərar olması. . Bütün bunlar, eyni zamanda ekoloji və sosial mühitin əlverişli olmasından da asılıdır.

Milli-mədəni mənsubiyyət və mədəni sərvətin zənginləşdirilməsi insan inkişafı konsepsiyası əslində həm yüksək səviyyədə inkişaf etmiş ölkələrdə, həm inkişaf etməkdə olan, həm də inkişaf yoluna yenicə qədəm qoymuş ölkələrdə eyni dərəcədə tətbiq edilə bilən inkişaf paradiqmasıdır.

İntellektual potensialın əsasını iqtisadi səmərəliliyin, rəqabətqabiliyyətliliyin radikal istiqamətdə dəyişilməsinə imkan yaradan bilik və mədəni səviyyə təşkil edir. İqtisadiyyatda insan potensialı dedikdə insanın peşə və ümumi mədəni inkişaf səviyyəsi, sağlamlığı, təcrübəsi, intellekti, daimi olaraq, inkişaf etmək bacarığı, həyat fəaliyyətinin müxtəlif sahələrində və istehlak sferasında yaradıcılıq fəallığı kimi də başa düşmək olar. Qeyd etmək lazımdır ki, insanın ancaq əmək resursu daşıyıcısı kimi nəzərdən keçirilməsi industrial iqtisadiyyatın və onun ekstensiv artımının tələblərinə uyğun olardı. Bu xüsusda qeyd edilməsi yerinə düşərdi ki, «insan resursları» və “insan potensialı» «insan kapitalının» bazası kimi çıxış edir. İnsan resurslarının insan kapitalına transformasiyası prosesində insan resurslarının kapitallaşması baş verir, bunun üçün isə müəyyən institusional və iqtisadi zəmin, hər şeydən öncə müvafiq iş yerləri, müəssisələrin mövcudluğu tələb olunur. Əks təqdirdə insan resurslarının insan kapitalına transformasiyası qeyri mümkündür. Müasir dövrdə insan kapitalı nəzəriyyəsi insan resurslarının keyfiyyət baxımından təkmilləşdirilməsi prosesini araşdırır desək, səhv etmərik .

İnsan resurslarının bir mühüm xüsusiyyəti kimi də qeyd olunmalıdır ki, insan resursları müasir innovasiyalı inkişaf dövründə əmək bazarında mühüm resurs kimi çıxış edirlər. Çünki, məhz insan özünün yaradıcı enerji və qabiliyyəti ilə innovasiyalı iqtisadiyyatın inkişafı üçün şərait yarada bilər. Bu səbəbdən də insan resursları müasir dövrdə istehsal və inkişafın mühüm faktoruna çevrilmişdir.

Bəzi ədəbiyyatlarda insan resurslarının iqtisadi kateqoriya kimi dar məzmunu insan potensialı kimi şərh edilməkdədir. Lakin bu heç də düzgün deyildir. İnsan resursları kateqoriyasına insana öz məqsədlərinə nail olması üçün faydalı olan əmək və qeyri əmək bacarıq və vərdişləri daxildir. Lakin insan potensialına təkcə əmək vərdişləri deyil, eyni zamanda, insanın sosial, dini dünya görüşü, mənəvi əxlaqi keyfiyyətləri də daxildir. Geniş məzmunda insan resursları anlayışının məzmununa insan potensialı da daxil olmaqla əmək bazarında təqdim olunan resurslar məcmusu başa düşülür.

Müasir iqtisadi ədəbiyyatlarda insanın iqtisadi mahiyyəti ilə bağlı kateqoriyalardakı qarmaqarışıqlığa aydınlıq gətirmək üçün bəzi nüanslara da diqqət yetirilməsi yerinə düşərdi. Bəzi ədəbiyyatlarda nəinki insan resursları ilə insan potensialı, hətta insan kapitalı anlayışı da eyniləşdirilir. Lakin, burada ən mühüm incəlik insan kapitalı anlayışının məzmununun insanların istehsal prosesində iştirak edə bilmək bacarıqlarının da daxil olmasıdır.

Konsepsiya kütləvi informasiya vasitələrinin inkişafına dəstək verməklə bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsinə, kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyinin artırılmasına, Konstitusiyaya və qanunlara, dövlət rəmzlərinə hörmətin dərinləşməsinə, jurnalistikanın keyfiyyətcə yeni texnoloji səviyyəyə yüksəlməsinə, jurnalist peşəkarlığının və məsuliyyətinin artmasına, kütləvi informasiya vasitələrinin xarici təcrübədən faydalanmasına, beynəlxalq əlaqələrinin genişlənməsinə, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihə və proqramlarının həyata keçirilməsinə, dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın möhkəmlənməsinə, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə və müstəqil mətbuatın inkişafına şərait yaradacaqdır.

№ 1/2024 səh.24-31

İnformasiya texnologiyalarına edilmiş yatırımın effektivliyinin və ölkənin iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edən informasiya sistemlərinin qiymətləndirilməsi üçün müxtəlif yanaşmalar hazırlanmışdır. Bu yanaşmalar içərisində ən mühüm olanlardan biri ölkənin və ya ölkə daxilində hər hansı müəssisənin cari vəziyyətini ön planda tutaraq müxtəlif aspektlər və bir sıra göstəricilər üzrə qiymətləndirilməsidir. Bu üsullarla, informasiya texnologiyalarından istifadə etməklə maliyyə əmsalları hesablanır və müqayisəli şəkildə qiymətləndirilir. Digər yanaşmaya isə ekspert üsullarından istifadə aid edilir. Bildiyimiz kimi ekspert sistemləri qərar qəbulunda köməkçi üsul kimi istifadə olunur və geniş tətbiq sahəsi əhatə edir. Məhz, bu üsuldan istifadə informasiya texnologiyalarının istifadəsi hesabına əldə olunacaq qazancın miqdarını təqribi də olsa bilməyə imkan verir. Bu yanaşmalar vasitəsilə İT-nii iqtisadiyyata tətbiqinin effektivliyinin yoxlanılması hər hansı bir mərhələdə deyil, ümumilikdə hər bir mərhələdə aparılması daha dəqiq nəticə əldə etməyə şərait yaradır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Əmək məcəlləsi, 1 fevral 1999, 183 səh.;
2. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya, 23 noyabr 2018, 18 səh.;
3. M.Əliyev, H.Həmidov, "İnsan resurslarının idarə edilməsi", Bakı 2002, 206 səh.;
4. SOCAR illik hesabatlar, 2017;
5. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. "Menecment" Bakı, 2007, 1000 səh.;
6. Quliyev T.Ə., "İnsan resurslarının idarə edilməsi", Bakı, 2013, 828 səh.;

**İnternet resursları**

1. https://www.wikipedia.org/;
2.http://www.socar.az/socar/az/economics-and-statistics/economics-andstatistics/socar-reports;
3. https://www.oecd.org/gov/pem/hrpractices.htm;
4. https://dergipark.org.tr/download/article-file/235169;
5. http://iibfdergisi.ksu.edu.tr/download/article-file/107732;


**УДК 338.12**

## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ КАДРОВЫХ РЕСУРСОВ ЧЕРЕЗ МАССОВУЮ ИНФОРМАЦИЮ

**[1]С. Т. Гаджиева, [2]Л. И.Байрамова, [3]В.Ф.ДЖаннетова, [4]М. Б.Мамедова**

**Резюме.Актуальность исследования:** Создание эффективного управления человеческими ресурсами.Управление остается главной целью любой компании. Достижение этой цели возможно с полное и эффективное использование компанией ресурсов, особенно человеческих ресурсов.

**Цели и задачи исследования:** Основная цель исследования – проанализировать существующей ситуации в нашей стране на основе реальных показателей и применяемых ставок. Задачами, направленными на достижение цели, являются:

Раскрытие важности перехода к стратегическому управлению, заключительный этап управления человеческими ресурсами;

Изучение опыта некоторых стран;

Анализировать результаты деятельности, что является одним из важнейших

управленческие функции в азербайджанских компаниях, особенно в Государственной нефтяной компании (SOCAR);

**Используемые методы исследования:** В исследовании используется несколько методов, таких как анализ, синтез, сравнения, использовались анкетные методы.

№ 1/2024 səh.24-31

**База данных исследований:** База данных состоит из работ местных и зарубежных авторов, документы по системе законодательства, стратегии развития, доклады международных организаций, годовые отчеты о деятельности SOCAR и интернет-ресурсы.

**Ограничения исследования:** В ходе опроса несколько организаций отказались отвечать некоторые из самых важных вопросов, и они не комментировали, потому что эти вопросы были внутренние проблемы.

**Результаты исследования:** В результате исследования было обнаружено, что человек управление ресурсами на азербайджанских предприятиях недостаточно и нуждается в развитии.

**Ключевые слова:** информация, интеллектуальный капитал, информационный термин, инновационное развитие, управление персоналом, управление человеческими ресурсами.

**UDC 338.12**

## Development directions of human resources through mass information

**[1]S.T.Hajiyeva, [2]L. I.Bayramova, [3]V.F.Jannetova, [4]M.B.Mammadova**

**Summary.Relevance of the study:** Creation of effective human resource management. Management remains the main goal of any company. Achieving this goal is possible with the full and efficient use of resources by the company, especially human resources.

**Aims and objectives of the study:** The main purpose of the study is to analyze the current situation in our country on the basis of real indicators and applied rates. The tasks aimed at achieving the goal are:

Disclosure of the importance of the transition to strategic management, the final stage human resource management;

Studying the experience of some countries;

Analyze the results of activities, which is one of the most important management functions in Azerbaijani companies, especially in the State Oil Company (SOCAR);

**Research methods used:** The study uses several methods, such as analysis, synthesis, comparisons, questionnaire methods were used.

**Research database:** The database consists of works by local and foreign authors, documents on the system of legislation, development strategies, reports of international organizations, annual reports on SOCAR activities and Internet resources.

**Study Limitations:** During the survey, several organizations declined to answer some of the most important questions, and they did not comment because those questions were internal issues.

**Results of the study:** As a result of the study, it was found that human resource management in Azerbaijani enterprises is not enough and needs to be developed.

**Scientific and practical significance of the results:** The results of the study can play an important role in identifying weaknesses in human resource management in an Azerbaijan company.

**Keywords:** information, intellectual capital, information term, innovativ, development, personnel management, human resources management.

Redaksiyaya daxilolma: 19.02.2024
Çapa qəbul olunma: 27.03.2024

№ 1/2024 səh.32-38

UOT 338.1, 338.3.
DOI: 10.30546/JIECM.2024.1.031.

# AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFININ MALİYYƏ MƏNBƏLƏRİ

**[1]Xalidə Mehdi qızı Ağayeva, [2]Səkinə Etibar qızı Məhərrəmova**

**Azərbaycan Texnologiya Universiteti**

**sekine_1989@mail.ru**

***Xülasə.****Kiçik və orta sahibkarlığın inkişafının dövlət tərəfindən stimullaşdırılması, sənaye, aqrar, turizm və iqtisadiyyatın digər sahələrinin, eyni zamanda regionların inkişafını da təmin edir. Kiçik və orta sahibkarlığın Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafında, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında rolu böyükdür. Təcrübə göstərir ki, kiçik və orta bizneslə iri biznesin fərqli cəhətlərindən biri onların maliyyələşmə üsullarındadır. Kiçik və orta biznesin maliyyələşməsi ilk növbədə daxili mənbələr hesabına, o cümlədən, müəssisənin gəlirləri, sahibkarın şəxsi vəsaiti və qanunvericiliklə qadağan olunmayan digər maliyyə mənbələri hesabına formalaşdırılır.*

***Açar sözlər:*** *sahibkarlıq, maliyyələşmə mənbələri, bazar iqtisadiyyatı, biznes, innovasiya, bank, maliyyə resursları, dövlət dəstəyi.*

**Giriş.** Müstəqilliyin ilk illərində Azərbaycanda baş verən dərin iqtisadi böhran çoxlu sayda müəssisələrin öz fəaliyyətini dayandırması və ya müəyyən dərəcədə məhdudlaşdırması ilə əlaqədar əmək qabiliyyətli işçilərin işdən azad olunması ilə müşayiət olunmuşdu. 1994-cü ildən başlayaraq Ulu Öndər Heydər Əliyevin ikinci dəfə ölkə rəhbərliyinə qayıdışı ilə ölkədə baş verən böhranın aradan qaldırılması istiqamətində mühüm tədbirlər görüldü. və milli iqtisadiyyatımızın inkişafı istiqamətləri müəyyənləşdirildi. Həyata keçirilən islahatlar nəticəsində ötən iyirmi altı il ərzində ölkə iqtisadiyyatında sahibkarlıq ordusunun formalaşmasına zəmin yaranmış, hökumət tərəfindən kiçik və orta sahibkarlığın inkişafına əlverişli şərait yaradılmışdır. Kiçik və orta sahibkarlığın rəqabətliliyinin inkişafında innovativ metodların tətbiqi əvəz edilməzdir.

İlham Əliyev tərəfindən "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" 28 dekabr 2017-ci il tarixli Fərman imzalanmış və sahibkarlığa dəstək mexanizmlərinin formalaşdırılması və regionlarda sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması əsasında dayanıqlı inkişafın təmin edilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur [1].

**Mövzunun aktuallığı.** Dünya ölkələrində olduğu kimi Azərbaycanda da ölkə prezidentinin müvafiq fərmanına uyğun olaraq ölkə iqtisadiyyatının inkişaf tempinin qorunub saxlanılması üçün biznes subyektlərinə dövlət dəstəyinin göstərilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tapşırıqlar verilmişdir.

Mövcud bazar iqtisadiyyatı şəraitində kiçik və orta biznesin maliyyə təminatı probleminin elmi araşdırılması, kiçik və orta sahibkarlıq subyektlərinin inkişaf istiqamətlərinin düzgün müəyyən edilməsi, gələcək prespektivdə maliyyə imkanlarının genişləndirilməsinə əlverişli şərait yaradacaqdır. Elmi araşdırmaların nəticəsi göstərir ki, kiçik və orta sahibkarlığın fəaliyyət dinamikası bir çox faktorlardan, o cümlədən sahibkarın biznes fəaliyyəti ilə məşğul olma hazırlığından, eyni zamanda, əlverişli vergi mühitindən asılıdır. Belə ki, sahibkarların kifayət qədər peşəkarlıq hazırlığının olmaması kiçik və orta sahibkarlığın müflisləşməsinə və bununla da fəaliyyətinin dayandırılmasına səbəb olar.

**Tədqiqatın məqsədi.** Tədqiqatın əsas məqsədi müasir bazar iqtisadiyyatı şəraitində kiçik və orta sahibkarlığın milli iqtisadiyyatın inkişafındakı rolunu, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi yollarını, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsində dövlətin və kredit təşkilatlarının rolunun

müəyyənləşdirilməsini, kiçik və orta sahibkarlıq fəaliyyətində risklərin idarə edilməsinin xüsusiyyətlərini araşdırmaq və qiymətləndirilməsini beynəlxalq təcrübə əsasında müqayisəli təhlil etməkdən ibarətdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

İlk növbədə, onu qeyd etmək lazımdır ki, hər bir ölkəni xarakterizə edən xüsusiyyətlərindən biri milli iqtisadiyyatın dinamik inkişafı və ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsidir. Azərbaycanda kiçik və orta sahibkarlığın, o cümlədən, bütövlükdə ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur. Bunun üçün ilk növbədə nə etmək lazımdır? Ümumi biznes mühiti yaxşılaşdırılması, ı maliyyə resurslarına çıxışın daha sərfəli və effektiv təşkil edilməsi, , kiçik və orta sahibkarlıq subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, , bacarıqlı və ixtisaslı kadr heyətinin yaradılması atılmalı olan vacib addımlardandır.

Milli iqtisadiyyatımızın inkişafında kiçik və orta biznesin xüsusi rola malik olması və əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas hədəflərdəndir [2].

Milli iqtisadiyyatın müxtəlif sahələri üzrə kiçik və orta biznesin maliyyələşdirilməsi kimi mühüm tədbirlərin həyata keçirilməsi, gələcək dövrdə bu sahənin genişləndirilməsi ilə nəticələnə bilər. Eyni zamanda, idxalı əvəzləyəcək yerli məhsul və xammalın istehsalının artırılması istisna edilmir. Milli iqtisadiyyatın inkişafında kiçik və orta biznesin inkişafını həyata keçirmək məqsədi ilə onun maliyyə təminatının müəyyənləşdirilməsi zəruri hal hesab edilir. Qeyd edək ki, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi mənbələrinə:dövlət vəsaitləri, kommersiya banklarının, digər kredit təşkilatlarının, investisiya fondlarının və maliyyə bazarının digər iştirakçılarının maliyyə vəsaitləri aid edilir.

Bazar iqtisadiyyatı şəraitində kiçik və orta biznes subyektləri üçün nəzərdə tutulmuş mənbələrdən biri də bank kreditləridir. Bank kreditlərinin alınması onların xüsusi ixtisaslaşdırılmış proqramları və dövlətin dəstəyi ilə mümkündür. Hal hazırkı dövrdə kiçik və orta biznes subyektlərinin kreditləşməsi ölkəmizdə fəaliyyət göstərən kommersiya banklarının iştirakı ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin yanında Sahibkarlığa Kömək Milli Fondu vasitəsi ilə həyata keçirilir. Fond tərəfindən Azərbaycan Respublikasının kommersiya bankları vasitəsi ilə təqdim edilən kredit müqaviləsində bu kreditin yalnız kiçik biznes subyektlərinin kreditlə təmin olunmasına sərf edilməsi şərti ilk olaraq irəli çəkilir [3]. Kiçik və orta sahibkarlıq subyektlərinin banklar tərəfindən maliyyələşdirilməsinin bir sıra şərtləri mövcuddur. Belə ki, ilk növbədə təsərrüfat subyektinin kreditödəmə qabiliyyəti yüksək olmalıdır. Kiçik və orta sahibkarlıq subyektinin kreditödəmə qabiliyyətini təhlil edərkən onun öz öhdəliklərini vaxtında yerinə yetirə bilməyi və buna daim hazır ola biləcəyi araşdırılmalıdır [4].

Azərbaycan Respublikasında sahibkarlıq mühitinin formalaşması və sosial-iqtisadi həyatda mühüm əhəmiyyətə malik kiçik və orta biznesin dəstəklənməsi, ona maliyyə yardımının göstərilməsi ən aktual məsələ olaraq dövlətimizin daim diqqət mərkəzindədir. Bu baxımdan mühüm dövlət proqramları hazırlanarkən sahibkarlara dövlət dəstəyinin prioritetləri hər zaman ön plana çəkilir. Kiçik və orta sahibkarlığın fəaliyyətinin əsas maliyyə mənbələri dövlət büdcəsi və kommersiya banklarının, beynəlxalq və xarici bankların, kredit-maliyyə təşkilatlarının kredit resursları hesab edilir.

Ölkədə kiçik və orta sahibkarlıq üçün ən münasib maliyyə mənbəyi (həm faiz dərəcəsi, həm də müddət baxımından) büdcədir və bu mənbədən kifayət qədər istifadə edilməməsi kiçik və orta sahibkarlığın inkişafına mənfi təsir göstərir.

Aparılan tədqiqatın nəticəsi onu göstərir ki, dövlətin himayəsi və dəstəyi olmadan kiçik və orta sahibkarlığın inkişafından söhbət belə gedə bilməz. Qeyd etmək istərdik ki, bu sahənin ən böyük maliyyə mənbəyi məhz elə dövlət büdcəsi hesab edilir. Bu maliyyə mənbəyindən bəhrələnməmək həmin sahənin zəifləməsinə gətirib çıxara bilər.

Azərbaycanda kiçik və orta biznesə dövlət maliyyə yardımının iki mexanizmi formalaşıb. Birinci mexanizm fermer təsərrüfatlarına subsidiya şəklində kredit güzəştlərinin verilməsidir. Bu

№ 1/2024 səh.32-38

mexanizm fermerlərin kreditləri və kommersiya banklarından aldıqları kreditlər üzrə faizləri büdcə vəsaiti hesabına ödəməsini təmin edir. İkinci mexanizm kiçik biznesə investisiya yardımının həyata keçirilməsidir. Bu məqsədlər üçün dövlət büdcəsindən vəsaitin ayrılması nəzərdə tutulur.

Ölkədə sahibkarlığı inkişaf etdirmək məqsədi ilə idxaldan asılılıq azaldılmalı, qeyri- neft emal sənayesinin inkişafı sürətləndirilməli, biznesin bank kreditlərinə çıxışı genişləndirilməli, kiçik və orta sahibkarlıq iqtisadi artımın başlıca qüvvəsinə çevrilməli, dövlət investisiyalarının iqtisadi səmərəsi artırılmalıdır.

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli qərarı" ilə "mikro, kiçik, orta və iri sahibkarlıq" subyektlərinin bölgüsü meyarları təsdiqlənmişdir [11].

**Cədvəl**

**Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin meyarları**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyası | İşçilərin orta siyahı sayı (nəfər) | İllik gəliri (min manat) |
|---|---|---|
| Mikro sahibkar | 1-10 | ig≤200 |
| Kiçik sahibkar | 11-50 | 200<ig≤3000 |
| Orta sahibkar | 51-250 | 3000<ig≤30000 |
| İri sahibkar | 251 və ondan yuxarı | 30000<ig |

Kiçik və orta sahibkarlıq subyektlərinin inkişaf etmiş ölkələrin iqtisadiyyatındakı oynadıqları böyük rolu nəzərə alsaq, onlara ayrılan kreditlərin risk dərəcələrinin ölçülməsinin nə dərəcədə vacib olduğunu görmək olar.

İqtisadi münasibətlərinin inkişafının müasir mərhələlərində kiçik və orta sahibkarlığın stimullaşdırılması dövlət tərəfindən həyata keçirilən vergi siyasəti ilə yanaşı, digər xarakterli müxtəlif amillərdən də asılıdır. Bu amillər sırasına aşağıdakıları aid etmək olar:

- kiçik və orta sahibkarlığın inkişafına yönəldilən investisiyaların dinamikası;
- ölkənin iqtisadi modernləşdirilməsi;
- milli iqtisadiyyatın inkişaf potensialı;
- sosial-iqtisadi infrasutrukturun inkişaf səviyyəsi;
- əmək ehtiyatlarının strukturu və əhalinin məşğulluğu;
- əmək bazarının çevikliyi və mobilliyi;
- rəqabətqabiliyyətli mühitin formalaşma səviyyəsi;
- biznes subyektinin məqsədi;
- məqsədə nail olmaq üçün seçiləcək texnologiya;
- seçilmiş texnologiyaya uyğun təşkilatı struktur və s.

Bu baxımdan qeyd etmək olar ki, müxtəlif faktlar milli iqtisadiyyatın ayrı-ayrı sektorlarını əhatə edir. Lakin, təkmilləşdirilmiş vergi mexanizminin kiçik və orta sahibkarlığın inkişafındakı rolunun araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

№ 1/2024 səh.32-38

Mövcud şəraitdə beynəlxalq iqtisadi münasibətlər müstəvisində inteqrasiya mieyllərinin güclənməsi, dünyada baş verən qloballaşma proseslərinin genişlənməsi, vergi siyasəti sahəsində informasiya mübadiləsinin sürətlənməsi kiçik və orta sahibkarlığın inkişafı problemlərinin araşdırılmasında vahid və beynəlxalq aləmdə qəbul edilmiş standartların yaradılması zərurətini tələb edir [11.s.23].

Qeyd edək ki, iqtisadi sistemlər açıq sistemlər olduğuna görə onların nəticələri fəaliyyət göstərdiyi mühitdən də birbaşa asılı olur. Bu baxımdan kiçik və orta biznes subyektlərinin fəaliyyət mühiti barədə məlumatlar onların inkişaf problemlərinin diaqnostikasında mühüm rola malikdir.

Lakin, müəssisənin kiçik biznes subyektinə kəmiyyət meyarlarından istifadə kifayət deyil. Beynəlxalq təcrübəyə əsasən qeyd etmək olar ki, işçilərin sayı az olan müəssisələrdən bəzilərinin illik dövriyyəsi daha böyük məbləğlərlə ölçülür. Belə olan halda, bu artıq kiçik biznes sayılmır.

Beləliklə, kiçik və orta sahibkarlığın müəyyənləşdirilməsi üçün bir sıra meyarlar təsdiq olunur:

-obyektivlik naminə hər bir ölkədə bu sahə üçün anlayışlarda düzəlişlər və korrektələr tələb olunur;

-dövriyyənin və satışın həcmi, aktivlərin dəyəri kimi kəmiyyət meyarlarının düzgün hesablanması əsas şərtlərdən hesab edilir;

-kiçik və orta sahibkarlıq subyektləri kateqoriyalara bölünməklə meyarlardakı nəzərəçarpacaq kənarlaşmalar da öz təsirini göstərir.

Rəqabətin sivil formada inkişafını təmin etmək və rəqabətin dövlət müdafiəsi sisteminin möhkəmləndirilməsi sahəsində tədbirlərin hazırlanması və həyata keçirilməsi ilə bağlı məsələlərin həlli də prioritet məsələlərdən biri hesab edilir. Ölkəmizdə rəqabətin qorunması sahəsində fəaliyyətin başlıca istiqamətlərindən birini bazara giriş-çıxış maneələrinin aradan qaldırılması təşkil edir. Qeyd etmək lazımdır ki, kiçik müəssisələr üçün maliyyələşmə çətinliyini azaltmaq və aradan qaldırmaq dövlət müdaxiləsi olmadan qeyri-mümkündür. Bu heç də büdcə vəsaitinin istənilən sahibkarın istifadəsinə yönəldilməsi kimi başa düşülməməlidir. Digər tərəfdən heç də hər bir mikro firmanın kiçik, orta və iri müəssisəyə çevrilməsi vacib deyil. Amma inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ilkin maliyyə kapitalı – kiçik müəssisənin ölçülərinin genişləndirilməsinin ən yaxşı şərtlərindən biridir. Daxili investisiyanın perspektiv biznesə cəlb edilməsi milli iqtisadiyyatın optimal strukturunun, kiçik, orta və iri müəssisələrin effektiv nisbətinin təminatçısıdır. Bu məsələ dövlətin birbaşa maliyyə dəstəyi yolu ilə yanaşı, həm də sərbəst kapitalın kiçik və orta sahibkarlığa yönəldilməsinin mexanizminin işlənib hazırlanması yolu ilə öz həllini dövlət səviyyəsində tapmış olur.

Digər tətəfdən, kiçik və orta biznesin banklar tərəfindən kreditləşməsi də maliyyə mənbələrindən biri sayılır.

Digər tərəfdən kiçik və orta sahibkarlığın inkişafının zəif tərəfləri də mövcuddur. Belə ki, kiçik və orta sahibkarlıq subyektlərinə münasibətdə dövlətin məqsədli dəstəkləmə siyasətinin müxtəlif meyarlar əsasında tətbiq edilməsi; dövlət-özəl əməkdaşlığının və bu sahədə əlaqələndirmənin istənilən səviyyədə olmamasıdır. Digər tərəfdən müxtəlif ölçülü sahibkarlıq subyektləri arasında əlaqənin zəif olması; maliyyə resurslarına çıxışda çətinliklərin olmasıdır. Bununla yanaşı, maliyyə sektorunda təklif edilən məhsul və xidmətlərin kifayət qədər inkişaf etməməsidir. Eyni zamanda, dövlət tərəfindən sahibkarlığa göstərilən dəstək mexanizmlərinin təsirinin müəyyənləşdirilməsi üçün monitorinq və qiymətləndirmə sisteminin zəif olması və yüksək ixtisaslı mütəxəssislərin azlığı; biznes bacarıqlarının aşağı olması; kiçik və orta biznesə öz mənfi təsirini göstərir. Həmçinin, dövlət və özəl sektoru ilə peşə təhsili arasında qarşılıqlı əlaqənin zəif olması; kiçik və orta sahibkarlıq subyektlərinə dəstək göstərən dövlət orqanlarının və xüsusi institutların sayının məhdud olmasıdır. Kiçik və orta sahibkarlıq subyektləri üçün məsləhət xidmətlərinin də tam əlçatan olmaması və bu sahənin maliyyələşməsində risklərin sığortalanmaması kimi zəif tərəflər kiçik və orta biznesin inkişafına əhəmiyyətli dərəcədə öz təsirini göstərir. Qeyd olunan zəif cəhətlərin aradan qaldırılması üçün imkanlar da vardır. Bu imkanlar sırasına:

-qeyri-neft sektorunun inkişafında kiçik və orta biznesin potensialından istifadə səviyyəsinin artırılması;

-kiçik və orta sahibkarlıq subyektləri üçün məsləhət xidmətlərinin yaradılması;

№ 1/2024 səh.32-38

-istehsal sahələrinin şaxələndirilməsi və iqtisadiyyatın diversifikasiyası;

-müxtəlif beynəlxalq proqramlraın imkanlarından istifadənin genişləndirilməsi ilə kiçik və orta biznesə dövlət dəstəyinin göstərilməsi;

-maliyyələşmə təminatı baxımından əlavə resursların cəlb edilməsi kimi imkanları aid etmək olar;

Qeyd olunan imkanlardan istifadə olunmaqla kiçik və orta sahibkarlığın inkişafının zəif tərəflərini aradan qaldırmaq mümkün olacaqdır. Bu zaman ilk növbədə kiçik və orta sahibkarlığın maliyyələşmə təminatının artırılması imkanları yaranır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, orta sahibkarlıq, ya iri biznesin maliyyə çatışmazlığından, ya da kiçik sahibkarlıq subyektinin iqtisadi inkişafı nəticəsində formalaşır. Kiçik sahibkarlıq subyektinin orta və iri müəssisəyə çevrilməsi üçün əsas şərt maliyyələşmə mənbələrinin araşdırılıb tapılmasıdır. Digər tərəfdən kiçik sahibkarlıq subyekti qarşısına daxili və xarici bazarda daima texniki yenilənməni tələb edən məhsul istehsalı məqsədini qoyur. Kiçik sahibkarlıq subyektində texniki vəziyyət rəqabətə dözməyə və daimi inkişaf edən, potensialda kiçik müəssisə sərhədlərini aşa biləcək biznes yaratmağa imkan verir. Amma bunun üçün birmənalı olaraq, gələcəkdə qarşılaşılacaq xərclərin hamısını ödəyə biləcək ciddi maliyyə dəstəyi tələb olunur. Başqa bir hal isə daha çox innovasiya biznesi üçün tipikdir. Tədqiqatın nəticəsi olaraq qeyd etmək lazımdır ki, innovasiya prosesi, ümumiyyətlə, hansı formada olmasından asılı olmayaraq, sahibkarlıq fəaliyyətinin inkişafında xüsusi rol oynayır.

## Nəticə

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının müxtəlif sferalarında eyni vaxtda iri, orta və kiçik müəssisələr, həmçinin şəxsi və ailə əməyinə əsaslanan müəssisələr fəaliyyət göstərməkdədir. Müəssisənin ölçüsü sahənin spesifikasından, onun texnoloji xüsusiyyətlərindən və hərəkət effektinin miqyasından asılıdır. Kiçik və orta biznes fəaliyyətinə başladığı zaman kifayət qədər maliyyə vəsaitinə malik olmamaları, onları digər maliyyə mənbələrindən, o cümlədən - dövlət borcları, investisiya proqramları, bank kreditləri şəklində istifadə etmələrinə zərurət yaradır. Belə bir nəticə ortaya çıxır ki, kiçik və orta biznes subyektlərinin maliyyələşdirilməsinin ən fəal iştirakçısı kimi məhz kommersiya bankları və lizinq şirkətləri mühüm rola malik olur. Onların kiçik və orta sahibkarlıq subyektlərinin kreditləşməsində həm maliyyə vəsaitləri vasitəsilə və vasitəçilik əməliyyatı sayəsində oynadıqları rol danılmazdır.

Kiçik və orta sahibkarlıq təsərrüfat subyektlərinin əmək tətbiqi sferasının genişləndirilməsi, yalnız əhalinin işə düzəlməsi üçün deyil, hər şeydən əvvəl əhalinin sahibkarlıq fəaliyyəti üçün yeni imkanlar yaratması, yaradıcı qüvvələrin genişləndirilməsi və sərbəst istehsal güclərindən istifadə edilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Göründüyü kimi, bu biznes subyektlərinin sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının ayrılmaz hissəsidir, eyni zamanda, kiçik və orta sahibkarlıq fəaliyyəti olmadan bazar iqtisadi sisteminin normal təşəkkülü və inkişafı mümkün olmazdı. Ölkəmizdə kiçik və orta biznesin hökumət tərəfindən dəstəklənməsi üçün yenilikçi fəaliyyət meyarlarından istifadə olunur. Fikrimizcə, transmilli şirkətlər üçün yenilikçilər rolunu oynayan kiçik və orta sahibkarlıq subyektlərinin Azərbaycanda yaradılması məsələsi hər zaman aktual hesab olunur və bu biznesin inkişafı ölkədə milli iqtisadiyyatın formalaşması üçün çox əhəmiyyətlidir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

-Kiçik və orta sahibkarlıq anlayışının açıqlanması;

-Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi mənbələrinin müəyyən edilməsində dəqiqləşdirmələrin aparılması;

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti kiçik və orta biznesin maliyyə təminatı, kredit təşkilatlarının rolunun artırılması, dövlət tərəfindən dəstəklənməklə həmin sahənin inkişafını təmin edəcəkdir.

№ 1/2024 səh.32-38

**Tədqiqat işinin iqtisadi səmərəsi.** Kiçik və orta sahibkarlığın inkişafı bir başa maliyyə mənbələrindən aslıdır. Bu baxımdan kredit təşkilatlarının rolunun artırılması, risklərin müəyyənləşdirilməsi, mövcud normativ-hüquqi bazanın daha da təkmilləşdirilməsi, kreditlərin güzəştli şərtlərlə verilməsi sözü gedən müəssisələrin inkişafında əvəzedilməz rol oynayacaqdır. Kiçik və orta sahibkarlıq strukturlarının formalaşması ölkə iqtisadiyyatının heç bir sahəsi və sferası istisna olmamaq şərti ilə iqtisadi proseslərin dünya təsərrüfat sisteminin bütün meyillərinə və tələblərinə cavab verir. Belə ki, dünyanın bütün ölkələrində kiçik və orta biznes sferasında praktiki olaraq iqtisadiyyatın bütün sahələrinə məxsus olan müxtəlif profılli çoxlu sayda kiçik və orta müəssisələr fəaliyyət göstərir.

## ƏDƏBİYYAT

1.Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli “Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” Fərmanı. Bakı,2017.
2. "Azərbaycan Respublikasının “2020-ci il Dövlət büdcəsi haqqında qanunu”. Bakı, 2019
3. www.azstat.org (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin saytı), “Azərbaycanın statistik göstəriciləri-2020”.
4.Azərbaycan Respublikasının Mərkəzi Bankının Statistik bülleteni. Bakı, 2012. №12, 154.
5. www.cbaz.az (Azərbaycan Respublikası Mərkəzi Bankın saytı)
6.www.banker.az (Banklar Assosiasiyalarının saytı)
7.http://www.consultant.ru/document doc lAW.183748
8.Упрощенная система налогообложения. Малый бизнес. М: АБАК, 2018 – 368 с.
9.Sadıqov M.M. “Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi”. 2003, 195 s.
10.Azərbaycan Respublikasının Mərkəzi Bankının Statistik bülleteni. Bakı, 2012. № 12, 154.
11.Мороз В.В . “Определение налоговой нагрузки на предприятии”.Бизнес в законе. Экономико-юридический журнал, 2012, №4. с.129-132.
12.Гусев А.Б. “Налоги и экономический рост: теории и эмпирические оценки”. М. Экономика и право. 2003, с. 9.

**УДК 338.1, 338.3.**

## Финансовые источники развития малого и среднего предпринимательства в Азербайджане

**[1] Х.М.Агаева, [2]С. Э. Магеррамова**

**Резюме.**Стимулирование государством развития малого и среднего предпринимательства обеспечивает развитие промышленности, сельского хозяйства, туризма и других сфер экономики, а также развитие регионов. Велика роль малого и среднего предпринимательства в становлении и развитии национальной экономики Азербайджана, создании новых рабочих мест и повышении уровня жизни населения.Опыт показывает, что одним из отличий малого и среднего бизнеса от крупного бизнеса является их методы финансирования. Финансирование малого и среднего бизнеса преимущественно формируется за счет внутренних источников, в том числе доходов предприятия, личных средств предпринимателя и других финансовых источников, не запрещенных законодательством.

**Ключевые слова:** предпринимательство, источники финансирования, рыночная экономика, бизнес, инновации,банк,финансовые ресурсы,государственная поддержка.

**№ 1/2024** **səh.32-38**

**UDC 338.1, 338.3.**

## The financial resources on the development of small and medium enterprises in Azerbaijan

**[1]Kh. M.Aghayeva, [2] S. E.Maharramova**

**Summary.**Stimulation of small and medium enterprises by the government provides the development of industry, agriculture, tourism and other fields of economy as well as regions. Small and medium enterprises have a great role on the formation and development of Azerbaijan's national economy, the creation of new workplaces and the improvement of people's living conditions. Experiences show that, one of the differences between small and medium business and big business are the defining ways of them. Financing small and medium business firstly is formed at the expense of internal resources, including, company's income, entrepreneur's private funds and the other funds which are legal due to law.

**Key words:** Enterprises, financing resources, market economy, business, innovation, bank, government support

Redaksiyaya daxilolma: 25.01.2024
Çapa qəbul olunma: 27.03.2024

№ 1/2024 səh.39-44

UOT: 39.71.02
DOI: 10.30546/JIECM.2024.1.038.

# İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ QEYRİ-NEFT SEKTORUNUN XÜSUSİ ÇƏKİSİNİN ARTMASINDA KƏND TƏSƏRRÜFATININ ROLU

**Saqib Yaşar oğlu Məmmədov**

**Mingəçevir Dövlət Universiteti**
**Mingəçevir şəhəri, D.Əliyeva küçəsi, 21**

**saqib_92@mail.ru**

***Xülasə:*** *Bazar iqtisadiyyatına keçid ölkəmizin kənd təsərrüfatı sahəsində yeni reallıqların yaranamasına və böyük dəyişikliklərə səbəb olmuşdur. Məhz, məqalədə kənd təsərrüfatının təşkilati və idarəetmə quruluşunda mövcud olan münasibətlərin, sistemin işləmə prinsiplərinin, aqrar sahədə həyata keçirilən islahatların nəzəri baxımdan təhlilinə diqqət yetirilmişdur. Bütövlükdə, ölkə iqtisadiyytaın ayrılmaz tərkib hissəsi olan kənd təssərüüfatının səmərəliliyinin artırılması yolları, maddi-texniki resursların formalaşdırılmasına şərait yaradan amillərin aşkara çıxarılması, bu sahədə dövlət dəstəyinin əsas istiqamətləri yönündə araşdırmalar edilmişdir. Həmçinin, iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişafda aqrar sahənin rolunun artırılması perspektivləri, müasir reallıqlar və qabaqcıl dünya təcrübəsi prizmasından müqayisəsi istiqamətində tədqiqat işləri aparılmışdır.*

***Açar sözlər:*** *Kənd təsərrüfatı, ixracın şaxələndirilməsi, dayanıqlı kənd təsərrüfatı, aqrar münasibətlər, torpaq islahatları*

**Giriş**. Ölkə iqtisadiyyatın ən vacib sahələrindən biri kənd təsərrüfatı hesab edilir. Təsadüfi deyildir ki, əhalinin istehlakının əsas hissəni kənd təsərrüfatlı təyinatlı məhsullar təşkil edir. İstahlak malların olan tələbin təxminən 75%-i kənd təsərrüfatı malları ilə bağlıdır. Kənd təsərrüfatı məşğulluğun, yəni əmək qabiliyyətinə malik əhalinin işlə təmin edilməsində də həlledici rola malikdir. Milli iqtisadiyyatının inkişaf meyillərindən asılı olaraq bu sahədə fəaliyyət göstərən və çalışan insanların sayı da daim dəyişiklik templəri nümayiş etdirir. Kənd təsərrüfatı həmçinin, yüngül, yeyinti sənayesi üçüm xammal bazası kimi xarakterizə olunur.

**Tədqiqatın metodikası.** Yerli və xarici iqtisadçı alimlərin sənayenin alt bölməsi olan yüngül sənaye və yüngül sənayedə innovasiya fəaliyyətində apardıqları tədqiqat və araşdırmalar, Azərbaycan Respublikası Prezidentinin Fərman və sərancamları, Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin elektron xidmətlər portalının materialları təşkil edir.

**Tədqiqatın praktiki əhəmiyyəti**: Ölkə iqtisadiyyatını şaxələndieilməsi və əhalinin kənd təsərrüfatı mallarına olan tələbatının ödənilməsinə istiqamətlənmiş aqrar sahənin perspektiv inkişafı qarşıda dayanan ən mühüm vəzifələrdəndir. Qloballaşma prosesi və neft-qaz qiymətlərnin qeyri-sabit olması müxtəlif təşkilatı-hüquqi formalı, innovasiya yönümlü müasir kənd təssərüfatı müəssisələrinin müəssisələrinin yaradılmasını və inkişafını labüd edir. Tədqiqat işində irəli sürülən təklif və nəticələr ölkə iqtisadiyyatında kənd təsərrüfatının həcminin artırılması və yeni ixrac bazarlarının tapılması istiqamətinə yönəlmişdir.

№ 1/2024 səh.39-44

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Cəmiyyətin sosial-iqtisadi inkişafında müstəsna əhəmiyyət kəsb edən kənd təssərüfatı ölkə iqtisadiyyatının digər sahələrindən fərqli olaraq özüməxsus xüsusiyyələri olan sahədir. Belə ki, iqtisadiyyatın aparıcı sahələrindən hesab olunan kənd təsərrüfatı torpaq amilinə əsaslanır. Kənd təsərrüfatı sahəsində istehsalın əsas hissəsi torpaqla bağlıdır. Bəşər sivilizasiyasının bütün dövrlərində torpaq insanların yaşaması və fəaliyyəti üçün həyati əhəmiyyət kəsb etmişdir. İbtidai icma quruluşunda insanların qidalanmasının əsasını ovçuluq və yabanı bitkilər təşkil edirdisə, sonrakı dövrlərdə artan tələbatın ödənilməsinin zərurəti olaraq torpağın becərilməsi yolu ilə təsərrüfatının təşkili həyata keçirilməyə başlandı.

Kənd təsərrüfatı sahəsi ictimai istehsal tarixinin ilk sahəsidir. Dahi iqtisadçı K.Marks kənd təsərrüfatının əhəmiyyətini vurğulayaraq qeyd edir ki, ərzaq məhsullarının yaradılması istehsalın yeganə həyat şəraitidir. Kənd təsərrüfatı cəmiyyət miqyasında xüsusi mövqeyə malik olmaqla həmişə ehtiyac duyulan sahə olacaqdır.

Vacib təbii sərvət sayılan torpağı yenidən istehsal etmək və həcmini artırmaq mümkünsüzdür. Digər tərəfdən, torpaq fondunun hamısının istifadəyə yararlı kənd təsərrüfatlı təyinatlı və münbit olmaması reallığı da nəzərə alınmalıdır. Torpağın münbitliyi və məhsuldarlığı isə torpağın bioiqlim potensialından asılı olaraq formalaşır. Torpağın bioiqlim potensialı məsələsi ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edir.

Qloballaşmanın artdığı dövrə təsadüf edən sonuncu onillikdən etibarən dünya kənd təsərrüfatı sahəsi öz inkişaf templərinə və nəticələrinə görə yeni mərhləyə qədəm qoymuşdur. İxracı şaxələndirmək və dayanıqlı iqtisadi inkişafı təmin etmək üçün artıq kənd təsərrüfatında yeni informasiya kommunikasiya texnologiyalarından daha geniş istifadə barəsində danışa bilirik. İnkişaf biotexnologiyanın ən müasir metodlarından istifadə edilməsi ilə aqrar sahədə bitkilərin məhsuldarılığının artırılmasına və heyvandarlığın inkişafında sıçrayışa yönəlir. [1]

Müasir bazar münasibətlərinin bərqərar olunması şəraitində kənd təsərrüfatının dirçəldilməsi və inkişaf etdirilməsi aqrar islahatın həyata keçirilməsindən, onun məqsədə uyğun fəalliyətinin müəyyənləşdirilməsindən, qarşıya qoyulan məqsədin elmi və təcrübi cəhətdən əsaslandırılmasından asılı olmuşdur. 1991-ci ildə Sovetlər İttifaqının dağılmasından və Azərbaycanın müstəqillik əldə etməsindən sonra qarşıda duran həlli vacib problemlərdən biri də yeni torpaq siyasətinin həyata keçirilməsi, torpaq islahatlarının aparılması idi. Sovetlər İttifaqında mövcud olan asılı iqtisadiyyat sisteminin dağılması digər respublikalar kimi Azərbaycanı da ağır iqtisadi böhrana saldı. Azərbaycanın da iqtisadiyyatında o cümlədən, aqrar sahədə tənəzzül və iqtisadi böhran yaranmağa başladı. O vaxtlar kənd təsərrüfatında əsas təsərrüfat formaları olan kolxoz və sovxozlar əhəmiyyətli dərəcədə fəaliyyət göstərə bilmir və iqtisadi tənəzzül günü-gündən dərinləşirdi. Respublikanı bu böhrandan çıxarmanın yeganə və düzgün yolu ölkə iqtisadiyyatını qısa bir müddətə yeni iqtisadi əsaslarla bərpa etmək idi ki, bunun da həyata keçirilməsi üçün ilk növbədə torpaq islahatları aparılmalı idi. Ümummilli lider Heydər Əliyev iqtisadiyyatın böhrandan xilas edilərək inkişaf etdirilməsinin yeganə yolunun islahatlar olduğunu bildirdi. Onun rəhbərliyi və təşkilatçılığı ilə aqrar islahatın aparılması üçün hüquqi baza yaradılmış və həyata keçirilmişdir. Belə ki, 1995-ci ildə "Aqrar islahatının əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" və 1996-cı ildə isə "Torpaq islahatı haqqında" qanunlar qəbul edilmişdir. "Aqrar islahatın əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd olunur ki, aparılan islahatın məqsədi aqrar sektoru durğunluqdan xilas etmək, iqtisadi sabitliyə nail olmaq, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaqdır. Aqrar islahatların birinci mərhələsində torpağın və əmlakın özəlləşdirilməsi başa çatdırılmışdır. Xüsusi mülkiyyətə veriləcək torpaq sahələrinin 99,8 faizi, əmlakın isə 98,9 faizi özəlləşdirilmişdir. Ölkəmizdə həyata keçirilən aqrar islahatı nəticəsində 867 minə yaxın ailə torpaq payı almış, mülkiyyətçilər yaranmışdır. [4]

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra və ölkəmizdə bazar iqtisadiyyatı yoluna keçid prosesi başladıqdan dərhal sonra kənd təsərrüfatı məhsulları istehsalı sahəsində nəzərəçarpan əsas istiqamət bu sahənin istehsal sisteminin əsaslı şəkildə ərzaqtəyinatlı kənd təsərrüfatı məhsulları

№ 1/2024 səh.39-44

istehsalı əsasında yaradılması ilə xarakterizə edilir. Həmçinin, ötən müddət ərzində ərzaqtəyinatlı emal sənayesi məhsullarının istehsalında da əhəmiyyətli artım müşahidə edilmişdir. Buna baxmayaraq, daxili bazarda həm istehlak məhsullarına olan tələbatın, həm də emal sənayesinin xammala olan ehtiyacının ödənilməsi üçün bəzi məhsulların idxalının miqyası yerli istehsalla müqayisədə kifayət qədər böyükdür.

Hazırki dövrdə dünya səviyyəsində dayanıqlı iqtisadi inkişafın zəruriliyi dərk olunaraq kənd təsərrüfatı sektorunda yeni inkişaf mərhələsinə transformasiyanın şahidi oluruq. Məhdud torpaq və su ehtiyatlarının təsiri ilə istehsal prosesində mütərəqqi üsulların tətbiqi nəticəsində ərzaq təchizatında nəzərə çarpacaq artım əldə edilsə də, ətraf mühit və ekosistem üzərində ciddi mənfi təsirlər də yaranmışdır. Bu amilllər müasir şəraitdə dayanıqlı kənd təsərrüfatı istehsalının inkişafına imkan verən yeni texnika və texnologiyaların tətbiqinin genişləndirilməsini məcbur etmişdir. Məhz buna görə də müasir dövrdə dünya ərzaq təhlükəsizliyininəsaslı şəkildə gücləndirilməsi və ekosistemə mənfi təsirlərin azaldılması vasitəsi kimi çıxış edir. [5]

Kənd təsərrüfatında dayanıqlı inkişafın təmin edilməsi yeni, lakin konsepsiyadır. Aqrar sahədə dayanıqlı intensivləşdirmə məzmunu onun kənd təsərrüfatının intensivləşdirilməsinə, həmçinin də dayanıqlı inkişafa aid olan tərkiblərinin və onların vəhdətini şərtləndirən amillərin konkretləşdirilməsi əsasında açıqlanmalıdır. Başqa sözlə, dayanıqlı formada intensivləşdirmənin əsasında onun kənd təsərrüfatının ənənəvi intensivləşdirilməsi ilə bərabər aqrar sahədə dayanıqlı inkişafa yol açan münasibətlərinin formalaşdırılması da əsas çıxış nöqtələri hesab olunmalıdır.

Belə yanaşma çərçivəsində sırf intensivləşdirmə aspektində kənd təsərrüfatının dayanıqlı intensivləşdirməsi ətraf mühitə zərərli təsirlərin minimumlaşdırılması tələbi önə çəkilməklə modern giriş resurslarının (sənaye mənşəli istehsal vasitələrinin, texnologiyaların, məhsuldar toxum sortlarının, informasiyanın, biliklərin, innovasiyaların) daha geniş istifadəsi yolu ilə məhsuldarlığın yüksəldilməsi prosesidir. Yəni, dayanıqlı intensivləşdirmənin ilk növbədə kənd təsərrüfatının intensivləşdirilməsinin xüsusi (paralel məqsədli) halı olduğu nəzərə alınmalıdır. Nə resursların intensivləşdirilməsi (agricultural input intensification), nə də istifadə olunan torpaq sahələrinə görə məhsuldarlığın yüksəldilməsi olmadan dayanıqlı intensivləşdirmədən söhbət gedə bilməz. Göstərilən cəhətlər öz növbəsində dayanıqlı intensivləşdirmənin kənd təsərrüfatında digər dayanıqlı yanaşmalardan əsaslı fərqini səciyyələndirir.

Dayanıqlı intensivləşdirmədə istehsalın artması və ətraf mühitin qorunması arasında "kompromis" məhsuldarlığın aşağı salınması hesabına baş tutmamalıdır. Məhsuldarlığın yüksəldilməsi qəbul olunmuş inkişaf strategiyasına uyğun, ardıcıl surətdə təmin edilməlidir. Bu halda söhbət bir qayda olaraq uzunmüddətli dayanıqlı inkişaf mənafeləri nəzərə alınmaqla məhsuldarlığın artım templərinin təmin edilməsindən gedə bilər.

Eyni zamanda, giriş resurslarının intensivləşdirilməsinin dayanıqlılıq tələblərinə uyğun reallaşdırılması:

- istifadəsi genişləndirilməli olan resurs növlərinin;
- müvafiq resurs növünün hansı həddədək genişləndirilməsinin;
- tətbiqi genişlənən resursların hansı texnologiya ilə və ya istehsal sistemi çərçivəsində istifadəsinin əsasında dayanır.[2]

Rəsmi statistikaya əsasən, 2022-ci ildə kənd yerlərində yaşayanlar ölkə əhalisinin 45,3%-ini, 2023-cü ildə 45,4%-ni təşkil etmişdir. Əkinə yararlı torpaqlar 2021-ci ildə 4780,6 min hektar, 2022-cü ildə isə 4780,5 min hektar olmuşdur. Kənd təsərrüfatını məşğulluğda payı 2015-ci ildə 36.4%, 2018-ci ildə 36,3%, 2019-cu ildə 35,9 %, 2022-ci ildə isə 35,8% olmuşdur. Hazırda kənd təsərrüfatı məşğulluğun və ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından əsas sahə hesab olunur. Lakin, statistik məlumatlardan göründüyü kimi məşğulluqda kənd təsərrüfatının payı ilbəil azalmaqdadır ki, bu da iqtisadiyyatın strukturunda müsbət yönlü dəyişikliklərin olması ilə izah edilə bilər. [8]

2023-cü ildə ölkədə 123,0 milyard manatlıq və ya 2022-ci illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. ÜDM-in 63,1%-i qeyri neft-qaz sektorunun payına düşmüşdür. Qeyri neft-qaz sektorunda yaradılan ÜDM-nin 8,8%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın payına

№ 1/2024 səh.39-44

düşmüşdür. Ötən il kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 3,0% artım əldə olunmuşdur. Qeyri neft-qaz sektorunun gələcək inkişaf dövründə qeyri-neft sənayesinin şaxələndirilməsi və daha da inkişaf etdirilməsi, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, rəqəmsal ticarətin inkişafı və xidmət fəaliyyət növlərinin genişləndirilməsi, turizm sahəsinin bərpasının sürətləndirilməsi əsas prioritet istiqamətlər kimi müəyyən olunmuşdur.

2023-cü ildə kənd təsərrüfatında 6815,6 milyon manatlıq əlavə dəyər yaradılmışdır. 2022-ci ilə nisbətən heyvandarlıq sahəsində məhsul istehsalı 3,2%, bitkiçilik məhsullarının istehsalı isə 2,7% artmışdır. Heyvandarlıq sektorunda artım əsasən yumurta (8,4%) və ət (3,1%) məhsulları, bitkiçilikdə isə taxıl məhsullarının (2,8%) istehsalının artımı hesabına əldə olunmuşdur. [7]

Bu sahənin inkişafında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi Tədqiqat İnstitutunun bazasında yaradılmış Aqrar Tədqiqatlar Mərkəzinin böyük rolu vardır. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 may 2018-ci il tarixli Fərmanına əsasən Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi Tədqiqat İnstitutu publik hüquqi şəxs statusu olan Aqrar Tədqiqatlar Mərkəzinə çevrilmə yolu ilə yenidən təşkil edilmişdir.

Bu institusional islahatın məqsədi 60 ildən çox tarixi olan tədqiqat qurumunu, ölkədə həyata keçirilən aqrar islahatların müasir mərhələsinin tələbləri, habelə qlobal çağırışlar əsasında aqrar siyasətin daha da təkmilləşdirilməsi məqsədilə zəruri elmi əsaslandırmanı və analitik bazanı təmin edən “beyin mərkəzi” kimi yenidən formalaşdırmaqdır.

Aqrar Tədqiqatlar Mərkəzi tərəfindən kənd təsərrüfatı sahəsində mövcud inkişaf trendləri və konyunktur dəyişikliklər təhlil olunur, cari situasiyanı şərtləndirən faktorlar müəyyən edilir, proqnoz ssenariləri verilir, ehtiyac yarandıqca siyasətə dair qərarların qəbul edilməsi üçün təklif və tövsiyələr hazırlanır. Bu məqsədlə aşağıdakı istiqamətlərdə təhlil və qiymətləndirmələr aparılır:

- Aqrar sahə üzrə ümumi məhsulun və yaradılan əlavə dəyərin artım tempi;
- Ərzaq məhsulları ilə özünütəminetmə və idxaldan asılılıq göstəriciləri;
- Kənd təsərrüfatı məhsulları üzrə daxili və dünya bazar konyunkturası, qiymət dəyişmələri, bazara çıxış və bazar riskləri;
- Aqrar sahədə məhsuldarlıq göstəricilərinə təsir edən faktorlar;
- Kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinin iqtisadi səmərəliliyi;
- Kənd təsərrüfatı üzrə dəyər zənciri təhlillərinin aparılması və müxtəlif sahələr üzrə istehsal potensialının inkişafı;
- Aqrar sahənin dayanıqlı inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün investisiya ehtiyacları;
- Fermerlərin istehsal vasitələri ilə təminatı, maliyyə xidmətlərinə və infrastruktura çıxışı və s.[6]

Ölkəmizdə aqrar sahənin inkişafı baxımından işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatı sahələrinin bərpa edilməsi mühüm əhəmiyyət daşıyır. Ali Baş Komandanının rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində işğal altındakı Azərbaycan ərazilərini azad etdi. Hazırda azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu rayonlar iqtisadi baxımından yüksək aqrar potensiala malik olan ərazilərdir. Uzun illər istifadəsiz qalan torpaq sahələrinin yararlı hala gətirilməsi, deqradasiya proseslərinin aradan qaldırılmasına paralel olaraq meliorasiya və irriqasiya sistemlərinin qurulması, əkin, örüş və otlaq sahələrinin müəyyənləşdirilməsi istiqamətində işlər görülür. Perspektivdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ənənəvi qoyunçuluq, maldarlıq, arıçılıq, tütünçülük, üzümçülük, meyvəçilik, taxılçılıq sahələri ilə yanaşı, həmçinin heyvandarlığın yem təminatı baxımından yem bitkiləri sahəsinin inkişafı da nəzərdə tutulur. [3]

Bir qayda olaraq, bu sənədləşdirmə metodik və təlimat məzmunlu materiallardan ibarətdir. Yüngül sənaye istehsal müəssisələrində dövlət standartı həmçinin metrologiyanın metodoloji əsasları sahəsində aşağıdakı işləri planlaşdırır: öz fəaliyyət sahəsi üzrə elmi-tədqiqat və layihələndirmə işlərinin təşkili, o cümlədən standartlaşdırma, sertifikatlaşdırma və metrologiya üzrə zəruri işlərin aparılması və nəzarət edilən sahələrdə dövlət nəzarəti üzrə qaydaların müəyyən edilməsi; metrologiya sahəsində kadr hazırlığının və onların fəaliyyətinin təkmilləşdirilməsinin həyata keçirilməsi; kadrların ixtisasının, işçilərin təliminə, stajına və ixtisasartırmasına tələblərin müəyyən edilməsi və s. [5,s.58-67].

Yüngül sənayedə elmi və texnoloji tərəqqinin əsas vəzifəsi daxili bazarda tələbə uyğun mal çatışmazlığını tamamilə aradan qaldırmaq və onların rasional istehlak səviyyəsini maksimum yaxşılaşdırmaqdır. Yüngül sənaye malları üzrə istehsal həcminin artırılması, yeni sənaye sahələrinin təşkili, müasir innovativ müəssisələrin yenidən qurulması ilə təmin edilir.

**Müəssisələr üzrə məhsulun keyfiyyətinin yüksəldilməsi məsələləri.**Yüngül sənaye müəssisələri üzrə məhsulların keyfiyyəti həm istehsal proseslərinin texnoloji parametrlərindən və müasir innovativ texnologiyaların tətbiq səviyyəsindən asılıdır. Məhsuldarlığının artması elm və texnologiyanın nailiyyətlərinə əsaslanan yeni ölçmə prinsiplərinin istifadəsi sayəsində baş verir. İstehsalın metroloji dəstəyi həm istehsalın keyfiyyətinin təmin edilməsində, həm də istehlakçıların həyatında böyük rol oynayır [7, s.42-48].

Müasir iqtisadi şəraitdə məhsul və xidmətlərin keyfiyyətlərinin idarə edilməsi sisteminin zəruri elementi standartlaşdırma hesab olunur. Qabaqcıl inkişaf etmiş ölkələrdə standartlaşdırma prosesi keyfiyyətin və elmi-texniki tərəqqinin əsasını təşkil etdiyindən, ona xüsusi diqqət verilir. "Azərbaycan Respublikasının Standartlaşdırma haqqında" qanununda bu sahədə mühüm məsələlər öz əksini tapmışdır. Müvafiq qanunda, məsələn, standartlaşdırmanın obyekti dedikdə məhsullar, proseslər və xidmətlər başa düşülür ki, bunlar da istənilən materiala, avadanlığa, sistemə onların uyğunluğuna, funksiyalarına və s. aid olunur.

Ümumiyyətlə, yüngül sənaye məhsulları üzrə istehsal müəssisələrində standartlar dedikdə standartlaşdırma üzrə maraqlı tərəflərin razılığı əsasında hazırlanmış, eyni zamanda səlahiyyətli orqan tərəfindən təsdiq olunmuş normativ sənəd nəzərdə tutulur ki, burada standartlaşdırma obyektlərinə aid olan ümumi tələblər və metodlar təyin olunur. Nəticədə sahə üzrə nizamlanmanın optimal səviyyəsi əldə olunur.

Nəzərə almaq lazımdır ki, standartlar sistemi elm və texnikanın nəticələrinin və təcrübənin ümumiləşdirilməsinə əsaslanır. İstənilən halda əsas məqsəd cəmiyyət üçün optimal səmərənin müəyyənləşdirilməsi hesab olunur.

Azərbaycan Respublikası üzrə standartlaşdırma sahəsində normativ sənədlər aşağıdakı kateqoriyalar üzrə təsnifatlaşdırılır: elmi-texniki sahə üzrə standartlar; müəssisələrin standartları; texniki şərtlər; sahə standartları; dövlət standartları.

Standartların müxtəlif növləri mövcuddur. Onlar standartlaşdırma obyektinin xüsusiyyətindən və mövcud tələblərin məzmunundan asılı olaraq formalaşır. Onların aşağıdakı növləri mövcuddur: nəzarət metodları üçün standartlar; məhsul və xidmət çeşidləri üçün standartlar; əsas standartlar. Bütün dünya üzrə yayılma sahəsinə görə bu standartlar əsasən bu formalarda mövcuddur: milli, regional, dövlətlərarası, beynəlxalq.

Hər-hansı bir dövlətin standartlaşdırma üzrə milli orqanı tərəfindən qəbul olunmuş standart milli standart hesab olunur. Standartlaşdırma üzrə regional beynəlxalq təşkilatın qəbul etdiyi standart regional standart hesab olunur. Standartlaşdırma, sertifikatlaşdırma, metrologiya sahəsində dövlətlər tərəfindən qəbul və tətbiq olunan standart dövlətlərarası standart kimi qəbul olunursa da, standartlaşdırma üzrə beynəlxalq təşkilatın qəbul etdiyi standart beynəlxalq standart kimi təsnifatlaşdırılır.

Digər standart növlərindən fərqli olaraq beynəlxalq standartların əsas təyinatı yeni keyfiyyət sistemlərinin hazırlanması və mövcud keyfiyyət sistemlərinin təkmilləşdirilməsini təmin etməkdir. Beynəlxalq standartlar sertifikatlaşdırma üzrə vahid metodiki əsası da formalaşdırır.

Son illər Azərbaycan Respublikasının yüngül sənaye müəssisələri üzrə standartlaşdırma sisteminin təkmilləşdirilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilməkdədir. Onlara əsasən bunlar aiddir; ölkə və beynəlxalq standartların tələblərinin yaxınlaşdırılması və uyğunlaşdırılması, eləcə də dövlət standartları tələblərinin göstərilməsinin qanunla tənzimlənən hissəsinin saxlanması və ciddi tənzimləmə siyasətinin həyata keçirilməsi.

Buraya, eyni zamanda insan və ətraf mühit üçün təhlükəsizlik, texniki və funksional uyğunluq və s. göstəricilər aiddir. Sınaq metodlarını və obyektlərin qiymətləndirilməsini reqlamentləşdirən standartlara daha çox üstünlük verilir ki, bu da onların mühüm əhəmiyyət daşıması ilə bağlıdır.

Avropada standartlaşdırma üzrə beynəlxalq təşkilat (İSO) 1979-cu ildə "Keyfiyyətin idarə edilməsi və təmin olunması" adlı texniki komitənin yaradılması ilə fəaliyyətə başlamışdır. İSO təşkilatı 1986-cı ildə Böyük Britaniyanın standartlaşdırma və beynəlxalq elektrotexnika komissiyasının (MEK) təcrübəsinə əsaslanaraq 1987-ci ildə İSO 9000 seriyalı əsas standart hazırlamış və nəşr etdirmişdir [5,s.40-49].

Məhz bundan sonra bu standartlar bütün dünyada yayılmış, sertifikatlar üzrə ayrı-ayrı ölkələrin fəaliyyətinin əsasını təşkil etmişdir. Məhz İSO 9000 standartları bütün dünyada müxtəlif təyinatlı müəssisələrin bazardakı yeni vəziyyətini müəyyənləşdirdiyindən onun tərkibinə aşağıdakılar aid olunur:

- İSO 9004, keyfiyyətə ümumi rəhbərlik və keyfiyyət sisteminin elementləri;
- İSO 9003, yekun nəzarət və sınaqlar zamanı keyfiyyətin təmin olunması üçün model;
- İSO 9002, istehsal zamanı keyfiyyətin təmin edilməsi modeli;
- İSO 9001, istehsal və quraşdırma, layihələndirmə, xidmət zamanı keyfiyyətin təmin edilməsi modeli;
- İSO 9000, keyfiyyətə ümumi rəhbərlik və keyfiyyətin təmin edilməsi üzrə standartlar və s.

Qabaqcıl inkişaf etmiş ölkələrdə qeyd olunan standartlar əsasən milli standartlar kimi tətbiq olunur. Onlar və eləcə də digər inkişaf etməkdə olan ölkələr beynəlxalq standartları qəbul etməklə yanaşı, şirkətlərdə mövcud olan keyfiyyət sistemlərini təkmilləşdirmək üçün də istifadə edirlər [7,s.56-61].

Ümumiyyətlə, İSO 9000 seriyalı beynəlxalq standartlara müvafiq olaraq keyfiyyət üzrə fəaliyyətin aşağıdakı istiqamətlərini müəyyənləşdirirlər: keyfiyyətin yüksəldilməsi; keyfiyyətin təmin olunması; keyfiyyətin idarə olunması və planlaşdırılması. Nəzərə almaq lazımdır ki, İSO 9000 seriyalı beynəlxalq standartların əsas xüsusiyyətləri bunlardır; məhsulun keyfiyyətinin idarə edilməsinə sistem baxımının tətbiqi; istehlakçıya istiqamətlənmə, məhsul istehsalı üzrə standart tələblərin mövcudluğu.

**Nəticə.**Yüngül sənaye müəssisələri üzrə istehsal olunmuş məhsulların keyfiyyət göstəricilərinin

№ 1/2024 səh.54-59

davamlı artması keyfiyyət menecmentinin daha da inkişafını təmin edir. İqtisadi inkişafın hazırkı mərhələsində məhsulların yoxlanması və nəzarəti, eləcə də təhlükəsizliyi getdikcə daha çox texniki, iqtisadi və sosial əhəmiyyət kəsb edir. İstehlakçıların xüsusi ehtiyaclarından asılı olaraq hər hansı bir iqtisadi səmərəlilik göstəricisi hesablana bilər. Yüngül sənaye müəssisələrində istehsal prosesinin beynəlxalq standartlara uyğun olması və texniki ölçmələrin yüksək səviyyədə olması zəruridir [6, s.69-75]. Ümumiyyətlə, yaxın gələcəkdə yüngül sənaye sahələrinin inkişaf etdirilməsi üçün dövlət və özəl investisiyaların bu sahəyə cəlbinin stimullaşdırılması zəruridir. Bundan başqa yüngül sənaye sahələrində istehsal olunan məhsullar üzrə beynəlxalq keyfiyyət standartlarının tətbiqi zəruridir.

## ƏDƏBİYYAT

1. Aslanov Z.Y., Əfəndiyev E.M. Yüngül sənaye məhsulunun standartlaşdırılması və sertifikatlaşdırılması, Bakı, Elm, 2008, 159 s.
2. Шишкин И.Ф. Метрология, стандартизация и управление качеством: Учебник для вузов / Под. ред. акад. Н.С. Соломенко. -М.: Издательство стандартов, 2015, 295 с.
3. Миронов М.Г. - Управление качеством. - М.: ТК Велби, 2007. 255 с.
4.Лифиц И.М. - Стандартизация. - М.: Наука, 2001, 289 с.
5. Базгальдов Г.Г. Теория и практика оценки качества товаров. М.: Экономика, 2009, 180 с.
6. Гличев А.В. Прикладные вопросы квалиметрии. М.: Нуака, 2011, с 158 с.
7. Фомин В.М. Квалиметрия. Управление качеством.// Курс лекций. М.: Наука, 2000, 354 с.

**УДК 338.1, 338.3.**

**Вопросы исследования метрологического обеспечения предприятий по производству продукции легкой промышленности**

**[1]К.С.Дадашова, [2]Г. А. Гулузаде**

**Резюме.**В статье рассмотрены вопросы исследования метрологического обеспечения производственных предприятий современной продукции легкой промышленности. Проведенный анализ показывает, что развитие предприятий легкой промышленности является одним из основных стратегических направлений. В статье также исследованы существующие проблемы, определены направления их устранения.

**Ключевые слова:** качество, развитие, стандарт, производство, национальная экономика, эффективность

**UDC 338.1, 338.3.**

**Questions of research of metrological support of enterprises in the production of light industry products**

**[1]K.S.Dadashova, [2]G.A. Guluzade**

**Summary.**The article deals with the issues of research of metrological support of manufacturing enterprises of modern light industry products. The analysis shows that the development of light industry enterprises is one of the main strategic directions. The article also examines the existing problems, identifies the ways to eliminate them.

**Key words:** quality, development, standard, production, national economy, efficiency

Redaksiyaya daxilolma: 20.12.2023
Çapa qəbul olunma: 27.03.2024

№ 1/2024 səh.60-63

UOT 338.1, 338.3.
DOI: 10.30546/JIECM.2024.1.059.

# AQRAR TURİZMİN MAHİYYƏTİ VƏ İNKİŞAFINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

[1]Qaraş Hafiz oğlu Əsgərov, [2]Arzu Nəcəf oğlu Həsənov

Azərbaycan Texnologiya Universiteti

[1]askerovqaras@gmail.com, [2]arzu_hasan@mail.ru

***Xülasə.****Məqalədə turizm fəaliyyəti xarakterizə edilir və müasir iqtisadi sistemdə onun rolu və sosial-iqtisadi, mədəni, ekoloji əhmiyyəti diqqətə çatdırılır. Turizmin inkişafında baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini şərtləndirən amillər izah edilir. Turizm növlərindən biri olan aqrar turizmin mahiyyəti şərh edilir və onun inkişafını təmin edən şərtlər sadalanır. Aqrar turizmin təşkili prinsipləri, xarakterik xüsusiyyətləri qeyd edilir. Aqrar turizmin inkişafını təmin etmək üçün həyata keçirilməsi vacib olan tədbirlər sadalanır.*

***Açar sözlər:*** *aqrar turizm, kənd turizmi, yaşıl turizm, fermer turizmi*

**Giriş**. Bildiyimiz kimi, müasir turizm müasir həyatın sosial-iqtisadi, mədəni, ekoloji və digər sahələrinə, müxtəlif təsərrüfat sahələrinə ciddi təsir edən və qarşılıqlı təsirdə olan iqtisadi fəaliyyət növüdür. Kifayət qədər çoxtərəfli və şaxələndirilmiş xüsusiyyətlərinə və təsirlərinə görə turizm, müasir dövrün fenomeni adlandırılır. Təşkil olunmuş formada XIX əsrin əllinci illərindən təzahür edən turizm fəaliyyətinin yaranma və inkişaf tarixi bəşəriyyət mədəniyyətinin yaranma və təkamül tarixi ilə eynilik təşkil edir. Bu baxımdan turizm fəaliyyətinin təkamül mərhələləri qədim dövrdən indiki dövrədək bəzi mənbələrdə beş, bəzi mənbələrdə isə dörd mərhələyə bölünür. Turizmin bir fəaliyyət kimi inkişaf mərhələlərinə fərqli yanaşma ciddi meyarlara əsaslanmır və prinsipial əhəmiyyət kəsb etmir. Bu tədqiqat işində əsas məqsəd, turizmdə inkişaf mərhələlərinin konkretləşdirilməsi yox, inkişaf və təkamül prosesində baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinin yaratdığı nəticələrdən bəzilərinin mahiyyətinə aydınlıq gətirməkdən ibarətdir.

Turizmin inkişafı və təkamülü prosesində baş verən əsas kəmiyyət dəyişiklikləri onun ölçülə bilən göstəricilərində, yəni statistik göstəricilərində əks olunursa, keyfiyyət dəyişiklikləri yeni turizm xidmətləri və məhsullarının formalaşdırılması, istehsalı və turizm bazarına təklif edilməsi, istehlak prosesi mexanizmlərinin yaranması ilə səciyyələnir. Turizmdə qeyd edilən kəmiyyət və keyfiyyət dəyişiklikləri əsasən sosial-iqtisadi, ekoloji, psixoloji və mədəni tələbatların dəyişməsi ilə blavasitə əlaqədardır. Bu dəyişikliklərdə çoxsaylı amillərin təsiri olsa da, qeyd etdiklərimiz əsas hərəkətverici amillər hesab edilir.

Sadalanan əsas amillərlə yanaşı, insanların ümumi rifah halının yüksəlməsi, həyat keyfiyyətinin yaxşılaşması, gəlirlərinin artması və digər müsbət meyillər də dəyişiklikləri şərtləndirir. Bütün bunlar sosiumda və onun ayrı-ayrı fərdlərində yeni istehlak tələbatlarının, istehlak modellərinin, istək və arzuların yaranmasını obyektiv gerçəklik kimi təzahür etdirmiş olur. Bu isə turizmdə yeni motivlərin, motivlər yeni xidmətlərin və məhsulların, yeni xidmət və məhsulların mahiyyəti isə turizmin yeni forma və növlərinin yaranmasına əsas verir.

**Tədqiqatın nəticələri və müzakirəsi.** Hal-hazırda turizmin 300-dən çox növünün olması qəbul edilir [1, s. 21]. Turistlərin istehlak tələbatlarından asılı olaraq, müasir turlarda bir neçə turizm növünün kombinə edilmiş formada təşkili və reallaşdırılması, turizm növlərinin sayının 300-dən çox olduğunu deməyə əsas verir.

Turizmin çoxsaylı növləri arasında maraq kəsb edən və son illər böyük tələbat olan növlərindən biri də aqrar turizmdir. Aqrar turizm kənd turizmi kompleksində təşkil olunan və reallaşdırılan turizm növüdür. Ona görə, ilkin olaraq kənd turizminin mahiyyətinə ümumiləşmiş tərifi nəzərdən keçirək.

№ 1/2024 səh.60-63

Kənd turizmi dünyanın bir çox regionlarında inkişaf etmiş turizm növlərindən biridir. Xüsusilə inkişaf etmiş Avropa ölkələrində, o cümlədən Fransa, İtaliya, Almaniya, İspaniya, Yunanıstan,Ukraynada turizmin bu növü artıq kütləvi turist qəbulunda 12-30% paya sahibdir. Avropa ittifaqı ölkələrində turizm gəlirlərinin tərkibində aqrar turizmdən əldə edilən gəlirlər 12-20%, bəzi ölkələrdə isə 40% təşkil edir [4].

Kənd turizmi əsasən əhalisinin sıxlığı az olan, kənd təsərrüfatı və meşə təsərrüfatının üstünlük təşkil etdiyi ərazilərdə reallaşdırılan və əsas məqsədi təbiəti, mədəniyyəti, kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı fəaliyyətləri müşahidə etməkdən, istirahəti təşkil edtməkdən ibarətdir [6].

Ümumdünya Turizm Təşkilatının (UNWTO) "Turizm terminləri lüğəti"ndə göstərilir ki, "kənd turizmi, ziyarətçinin təbiətə əsaslanan fəaliyyətlərlə, kənd təsərrüfatı, kənd həyat tərzi, kənd mədəniyyəti, balıqçılıqla tanışlıq və kəndin digər görməli yerlərini gəzməklə əlaqəli geniş çeşidli xidmətlərin istehlakını nəzərdə tutan turizm fəaliyyəti növüdür".

Kənd turizmi adətən aşağı əhali sıxlığının olduğu, kənd və meşə təsərrüfatının, landşaft və torpaqdan istifadənin üstünlük təşkil etdiyi, ənənəvi sosial quruluşa, spesifik həyat tərzinə, mədəniyyətə və məişətə malik olan qeyri-şəhər yaşayış ərazilərində təşkil edilən və həyata keçirilən turizm növüdür [7]. Turizmin bu növünün yaranma tarixi barədə müxtəlif mənbələrdə müxtəlif tarixlər göstərilir. Bəzi məlumatlarda dəqiq tarix göstərilməsə də, XIX əsrin əvvəllərində Qərbi Avropanın bir çox ölkələrində aqrar turizm təşkil edilirdi [2]. Xüsusilə, Fransada üzüm bağlarından məhsulun yığılması, ev təsərrüfatlarında şərab məhsullarının hazırlanması həmin dövrdə dəb halını almışdı. Bu ənənə sürətlə Avropanın bir çox ölkələrinə yayılmağa başlamış və turizmin bu növünün inkişafına səbəb olmuşdur. Artıq XX əsrin birinci yarısında aqroturizm fərdi qaydada təşkil olunan turizm növü kimi qəbul edilirdi.

Aqrar turizm əsasən ekoloji problemlərin kəskinləşməsi, şəhər həyatının getdikcə ağırlaşması, insanların izafi fiziki, psixoloji və əqli yüklənməsinin yaratdığı fəsadların aradan qaldırılması və ya azaldılmasına istiqamətlənir. Eyni zamanda insanın təbiətlə, ibtidai formasını qoruyub saxlamış ərazilərlə harmoniyada yaşamaq istəyi, təbii qida məhsullarından istifadə etmək, vəhşi təbiəti müşahidə etmək və s. amillər turizmin bu növünün inkişafına və məşhurlaşmasına təkan verdi.

Aqrar turizm müxtəlif mənbələrdə "mühafizə olunan təbii ərazilərdə turizm", "kənd turizmi", "şəhərkənarı turizm", "fermer turizmi", "yaşıl kənd turizmi", "bağ turizmi", "ekoturizm", "aqroekoturizm" adlandırılır.

Elmi ədəbiyyatda "aqrar turizm" ifadəsi ilk dəfə 1979-cu ildə fransız alim P.Rişar tərəfindən işlədilmişdir [3, s. 34]. Müəllif aqrar turizmi kənd ərazilərində istirahətin xüsusi forması, təsərrüfat işlərində fəal iştirak, aqrar-ərzaq istehsalı prosesinin öyrənilməsi və kənd yerlərinin inkişafına dəstək vermək tədbirlərinin məcmusu hesab edir.

Başqa yanaşmaya görə, aqrar turizm kənd turizminin alt növlərindən biridir və fermerlər tərəfindən turistlərin kənd ərazilərinə və kənd əməyinə cəlb etmək və əlavə gəlir əldə etmək məqsədilə təşkil edilən fəaliyyətdir. Bu fəaliyyət əsasən kənd ərazilərində baş verir və fermerlərin müəyyən xidmətlər göstərərək öz məhsullarını satmağı, turistlərin istirahətini təşkil etməyi və gəlir götürməyi məqsəd hesab edir.

Aqrar turizm üçün həm də aşağıdakı xüsusiyyətlər xarakterik hesab edilir:

-ibtidai formasını qoruyub saxlamış təbii kənd ərazilərində istirahətin təşkili;

-spesifik ənənələrə və arxitektur üsluba malik yerləşmə obyektlərində yaşamaq və təbii, ekoloji təmiz qida məhsulları ilə qidalanmaq imkanı;

-kənd həyatının və yerli mədəniyyətin, məişətin spesifik xüsusiyyətlərini dərk etmək üçün şəraitin olması;

-yeni, rəngarəng təəssüratların formalaşması üçün qeyri-adi mənzərələrin zənginliyi;

-faydalı və fəal kənd əmək fəaliyyəti ilə məşğul olmaq imkanı;

-vəhşi təbiəti, flora və faunanı müşahidə etmək və yeni emosiyaların yaranmasına nail olmaq;

-istirahət müddətinin uzunmüddətliliyi və xidmətlərin ucuzluğu;

-turun proqramını istəyə uyğun tərtib etmək və lazım olduqda müəyyən dəyişikliklər etmək imkanı;

-dostlar, tanışlar və qohumlarla birlikdə istirahətin təşkil edilməsi;

-maraqlı olan kənd təsərrüfatı əməyi ilə məşğul olmaq və məhsulların istehsalında iştirak etmək imkanı;

-kənd həyatının çətinliklərinə uyğunlaşmaq və dözümlülük qabiliyyətinin artırılması və s.

Qeyd edilən və bir çox digər imkanlar, xüsusiyyətlər, əlamətlər aqrar turizmin inkişafını şərtləndirən amillərdir. Nisbətən yeni turizm növü olmasına baxmayaraq, aqrar turizmə müasir turizm bazarında tələb durmadan artır.

Aqrar turizmin inkişafına ciddi təkan verən amillərdən biri, 1970-ci illərdə Avropada ciddi iqtisadi islahatların aparılması nəticəsində təsərrüfat böhranının yaranması, kənd əhalisinin gəlirlərinin və iqtisadi imkanlarının azalmasına səbəb oldu. Bu hadisələr və iqtisadi münasibətlərdə baş verən ciddi dəyişikliklər kənd icmalarının iqtisadi inkişaf variantlarını məhdudlaşdıraraq, ənənəvi gəlir mənbələrini və inkişaf strategiyalarını daha az etibarlı edirdi [5]. Belə vəziyyətdə kənd ərazilərində yaşayan bir çoxları gəlir əldə etmək üçün qeyri-ənənəvi, alternativ yollar axtarmağa başladılar. Turizmin gəlir gətirmək və iş yerləri yaratmaq, pərakəndə satışı dəstəkləmək qabiliyyətini bilən təşəbbüskar insanlar, turizmin bu üstünlüklərindən öz təsərrüfatlarında istehsal olunan məhsulların satışını təmin etmək vasitəsi kimi istifadə etməyə başladılar. Onlar istehlakçıları öz təsərrüfatlarına dəvət edir, məhsulların istehsal prosesini əyani tədqim etməklə insanlarda məhsulun keyfiyyətinə və təbiiliyinə inam yaradır və satışın həcmini artıraraq gəlir əldə edir, eyni zamanda turizmin yeni növünün formalaşmasının və inkişafının əsasını qoymuş olurdular.

Artıq aqrar turizm kənd təsərrüfatında müəyyən problemlərin həllində tənzimləyici təsirə malik amil, kənd yerlərində kiçik biznes növü, gəlir mənbəyi kimi də qiymətləndirilməyə başlandı. Aqrar turizm və XX əsrin əllinci illərindən təşkil olunan turizm növlərindən biri oldu.

1955-ci ildə ilk dəfə olaraq Fransada aqrar turizmin təşkilinin qanunverici və təşkilati əsası və Kənd Təsərrüfatı və Turizm Assosiasıyası yaradıldı. İtaliyada aqroturizmin təşkili və inkişafı məqsədilə anoloji assosiasiya 1965-ci ildə yaradıldı. Sonrakı illərdə bu təcrübə demək olar ki, əksər Avropa ölkələrinə yayıldı və aqroturizmin sürətli inkişafı da bu regionla bağlıdır. Xüsusilə, Fransa aqroturizmin inkişaf səviyyəsinə görə lider ölkədir və bu ölkədə şərab və qastronomiya turlarında iştirak edən turistlərin sayı son illər 7-9 milyon nəfər təşkil edir.

Avropada aqrar turizmin inkişaf meyilləri və bu sahədə mövcud təcrübə təcrübə, dünyanın əksər ölkələrində aqrar turizm potensialının səmərəli istifadəsində müvəffəqiyyətlə tətbiq edilir. Xüsusilə, inkişaf etməkdə olan ölkələr üçün aqrar turizmin inkişafında mövcud təcrübənin tətbiqi səmərəli nəticələrin əldə edilməsinə imkan verir.

**Nəticə.** Qeyd edilənləri nəzərə alaraq belə qənaətə gəlmək olar ki, aqrar turizm perspektivdə daha çox təlb olan turizm növü olacağını proqnozlaşdıra bilərik. Turizmin bu növünün inkişafına nail olmaq üçün bu istiqamətin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının yaradılması, təkmilləşdirilməsi və inkişafı, turizm infrastrukturunun inkişafı üçün aqroturizm təsərrüfatlarına güzəştli kreditlərin verilməsi, güzəştli vergilərin tətbiqi formasında dəstəyin göstərilməsi, aqroturizmin dəstəklənməsi üzrə regional proqramların işlənib hazırlanması və həyata keçirilməsini vacib hesab edirik.

## ƏDƏBİYYAT

1.Биржаков Н.А. Туризм. М., ЮНИТИ, 2012.-329 с.

2.Вахитова З.Т. Развитие сельского туризма. Научно-исследовательские публикации. №14(18), 2014. с. 10-15.

3.Панюков А.И. Основы агротуризма: учебник. М.: Магистр, ИНФРА-М, 2017.- 240 с.

4.Трухачев А.В. Проблемы классификации сельского туризма. Формирование сервисного пространства. 2017, №3(57) с.56-69.

№ 1/2024 səh.60-63

5.Suzanne Wilson, Daniel R. Fesenmaier, and et. all.. Factors for Success in Rural Tourism Development. Journal of Travel Research. 2011, Volume 40, Issue 2. pp. 23-38.
6.https://www.hotelmize.com/blog/.
7.https://www.unwto.org/glossary-tourism-terms.

**УДК 338.1, 338.3.**

**Сущность аграрного туризма и факторы, обусловливающие его развитие**

**[1]Аскеров Г. Х., [2]Гасанов А. Н.**

**Резюме.**В статье дается характеристика туристской деятельности и доводится до сведения ее роли и социально-экономическое, культурное, экологическое значения в современной экономической системе. Объясняются факторы, обусловливающие количественные и качественные изменения, происходящие в развитии туризма. Трактуется сущность аграрного туризма как одного из видов туризма и перечисляются условия, обеспечивающие его развитие. Отмечены принципы организации аграрного туризма, его характерные особенности. Перечислены меры, которые необходимо предпринять для обеспечения развития аграрного туризма.

**Ключевые слова:** аграрный туризм, сельский туризм, зеленый туризм, фермерский tуризм.

**UDC 338.1, 338.3.**

**The essence of agricultural tourism and factors conditioning its development**

**[1]Askerov G.H., [2]Hasanov A.N.**

**Summary.**The article gives a description of tourism activities and brings to the attention of its role and socio-economic, cultural, environmental significance in the modern economic system. The factors causing the quantitative and qualitative changes occurring in the development of tourism are explained. The essence of agricultural tourism as one of the types of tourism is interpreted and the conditions that ensure its development are listed. The principles of organizing agricultural tourism, its characteristic features are noted. The measures that need to be taken to ensure the development of agricultural tourism are listed.

**Keywords:** agricultural tourism, rural tourism, green tourism, farm tourism.

Redaksiyaya daxilolma: 25.12.2023
Çapa qəbul olunma: 27.03.2024

№ 1/2024 səh.64-69

UOT 339.5
DOI: 10.30546/JIECM.2024.1.063.

# BEYNƏLXALQ TİCARƏTİN MÜASİR İNKİŞAF PERSPEKTİVLƏRİ

**[1]Kəmalə Sətdar qızı Cabbarova, [2]Elnur Aydın oğlu Əliyev**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

[1]kemale65@gmail.com, [2]ea154961@gmail.com

***Xülasə.****Bu məqalə beynəlxalq ticarətin tarixi mənşəyini bu günə qədər əhatə edən qısa tədqiqi təqdim edir. O, əsas tarixi mərhələləri gəzir, mövcud bir-biri ilə əlaqəli qlobal ticarət mənzərəsini vurğulayır və COVID-19 pandemiyası kimi hadisələrin təsirinə diqqət yetirməklə üzləşdiyi problemlərə işıq salır. Son dövrləri əhatən edən ticarət müharibələrinə xüsusən Abş və Çin arası baş verən gərginliklərə, proteksionizm və azad ticarət arası qarşıdurmaların ümumi iqtisadiyyatın fonunda dünya ticarətinə təsirlərinə də toxunulur.*

*Günümüzdə son illərdir artan xidmət sferasının ticarət həcmindəki rolu və çoxalan dəyəri qeyd edilir. Məqalə beynəlxalq ticarətin dinamik və inkişaf edən təbiəti haqqında qısa, lakin məlumatlandırıcı icmal təklif etmək məqsədi daşıyır.*

***Açar sözlər:*** *Beynəlxalq, ticarət, perspektiv, müasir, ÜTT, inkişaf.*

**Giriş.**Getdikcə qloballaşan müasir dünyada beynəlxalq ticarət bütün dünya ölkələrində iqtisadiyyatların formalaşmasında mühüm rol oynayır. O, qlobal iqtisadiyyatın onurğa sütunu kimi fəaliyyət göstərir, iqtisadi artımı, inkişafı və ölkələr arasında qarşılıqlı asılılığı təmin edən mühərrik rolunu oynayır. Beynəlxalq ticarət xammal mübadiləsindən tutmuş mürəkkəb texnoloji alətlərə qədər , həmçinin qlobal iqtisadiyyatın müxtəlifliyini və mürəkkəbliyini əks etdirən geniş spektrli ticarət edilən mal və xidmətləri əhatə edir."Qloballaşan dünya şəraitində dünya təsərrüfat əlaqələrində iştirak etmək ölkənin iqtisadi inkişafında daha böyük rol oynayır.Bu cür əlaqələrin əsas forması mallarla, xidmətlərlə , intellektual mülkiyyət hüququ ilə ticarəti birləşdirən beynəlxalq ticarətdir.Bunula həmçinin beynəlxalq informasiya, investisiya, elmi-texniki əməkdaşlıq , beynəlxalq istehsalın ixtisaslaşması və kooperasiya bağlıdır.

Hal hazırda biz beynəlxalq ticarətdə çoxsaylı amillərin təsiri nəticəsində görünməmiş genişlənmə dövründəyik. Texnoloji inkişaflar, siyasi dəyişikliklər, mütərəqqi ticarət müqavilələri və inkişaf edən istehlakçı seçimləri beynəlxalq ticarətin hazırki mənzərəsini formalaşdırmağa kömək edir. Bununla belə, bu maraqlı imkanlarla yanaşı həll edilməli olan mürəkkəb problemlər də yaranır. Ticari gərginliklər, milli siyasətlərdə dəyişikliklər, maliyyə problemləri və sosial-ekoloji narahatlıqlar hazırda qlobal ticarətə mənfi təsir göstərən məsələlərdəndir.

Bu məqalə beynəlxalq ticarətin müasir vəziyyətinin dərinliklərini araşdırmaq məqsədi daşıyır. Bunun üçün biz beynəlxalq ticarətin tarixinə nəzər salmaq, onun hazırkı vəziyyətinə diqqət etmək və cari dinamikasını təşkil edən müxtəlif elementləri araşdırmaq niyyətindəyik. Bizim fikrimizcə, mövcud iqtisadi mürəkkəbliklərdən qurtulmaq və beynəlxalq ticarətin gələcək trayektoriyasını proqnozlaşdırmaq üçün bu aspektləri başa düşmək çox vacibdir.

**Beynəlxalq Ticarətin Tarixi İnkişafı.**Bugünkü mürəkkəb beynəlxalq bazarın bünövrəsini anlamaq üçün beynəlxalq ticarətin necə inkişaf etdiyinə nəzər salmaq vacibdir. Ticarət sivilizasiyanın özü qədər qədim olsa da, beynəlxalq ticarət anlayışının (coğrafi sərhədlərdən kənarda mal və xidmətlərin mübadiləsi) kökləri 15-ci əsrdə coğrafi Kəşflər əsrinə dayanır. Bu dövr Şərqi Hindistandan və Yeni Dünyadan gələn ədviyyatlara, qiymətli metallara və başqa əmtəələrə Avropada tələbin olması səbəbindən ticarət yollarının genişlənməsi baş verdi. 17-ci və 18-ci əsrlər Böyük Britaniya, İspaniya və Fransa kimi imperiya güclərinin xammal əldə etmək üçün müstəmləkələr qurduğu merkantilizm dövrü

beynəlxalq ticarətin tarixində önəmli bir dövrdür. Müstəmləkələr sonralar bu ölkələr üçün daxildə istehsal olunan mallar üçün bazar rolunu oynadılar. "Müstəmləkə mülkləri ixrac bazarı və əsas ölkəyə xammal tədarükçüsü kimi xidmət etməli idi. Müstəmləkələrdə istehsal qadağan edildi və müstəmləkə ilə əsas ölkə arasındakı bütün ticarət əsas ölkənin inhisarında idi".[Britannica encyclopedia] Bu dövr , əsasən adlarını çəkdiyimiz imperiyalar və onların əraziləri ilə məhdudlaşmasına baxmayaraq beynəlxalq ticarətin miqyasını əhəmiyyətli dərəcədə gücləndirdi.18-ci əsrin sonu - 19-cu əsrin əvvəllərindəki Sənaye İnqilabı beynəlxalq ticarətin strukturunu dəyişdirən dönüş nöqtəsi oldu. Maşın, nəqliyyat və kommunikasiya texnologiyasındakı yeniliklər kütləvi istehsalı təşviq etdi və malların daha səmərəli və sürətli daşınmasına imkan verdi, beynəlxalq ticarət həcmlərində artımı alovlandırdı.Sənaye inqilabı heç şübhəsiz beynəlxalq ticarət əlaqələrinin də genişlənməsinə və bu istiqamətdə yeni eyni zamanda sürətlə inkişaf edəcək cığırın açılmasına mühüm töhvələrini verdi."Belə ki , şəhər və rayonlar arası fərqliliklərini daha da kəskinləşməsi nəticəsində urbanizasiyalaşma sürətləndi.Bununla da sənayeçilər həm şəhərlərə yerləşib həm də yeni şəhərlər yaratdılar" (Kuçukkalay, 1997). Bu da öz növbəsində şəhərlərin ticari faktorunu artıraraq ümumi istehsal və ticarət həcmində partlayışlara səbəb oldu.

XX əsr İki Dünya Müharibəsi və Böyük Depressiyanın qlobal iqtisadi sabitliyi məhv etdiyi dövrdür.Bunlar 1944-cü ildə Bretton-Vuds sisteminin yaradılmasına gətirib çıxardı. Bu sistem Tariflər və Ticarət üzrə Baş Saziş (GATT) kimi təsisatların formalaşdırılması ilə yanaşı, sonradan Ümumdünya Ticarət Təşkilatına (ÜTT) çevrilərək qlobal iqtisadi inkişafı təşviq etməyə, ticarətdə əməkdaşlıq və beynəlxalq sabitliyin təmin edilməsinə yönəldilib."GATT 1948-ci ildə qüvvəyə minmişdir və ticarət danışıqları üçün forum rolunu oynamışdır. Bununla da hər bir imzalayan ölkə hər bir digər imzalayan ölkənin güzəştlərindən istifadə edə bilərdi .GATT-a üzvlük ABŞ-ı çoxtərəfli ticarət rejiminə gətirməklə yanaşı, həm də Avropa və Yaponiyanın müharibədən sonrakı iqtisadiyyatlarını bərpa etmək üçün vasitə oldu. Bu siyasi konsensus geniş şəkildə qəbul edilmiş liberal bazara və azad ticarət fəlsəfəsinə doğru keçidi qeyd etdi ki, bu da gələcək müxtəlif çoxtərəfli danışıqlar üçün zəmin yaratdı". [Economic report of prezident] 20-ci əsrin sonlarında və 21-ci əsrin əvvəllərində qloballaşmanın baş verməsi və rəqəmsallaşma beynəlxalq ticarətdə daha da inqilab etdi. Çoxmillətli korporasiyaların yayılması, ticarət siyasətlərinin liberallaşdırılması və texnoloji tərəqqinin artması beynəlxalq ticarətin əhatə dairəsini və sürətini əhəmiyyətli dərəcədə genişləndirərək, onu əvvəlkindən daha əlaqəli və mürəkkəb hala gətirdi.

**Müasir Beynəlxalq Ticarət.** XXI əsrdə beynəlxalq ticarətin mənzərəsi bütün dünyada baş verən mübadilə şəbəkəsi ilə dinamik və mürəkkəb xarakter daşıyır.Artıq beynəlxalq ticarət maddi malları əhatə edən sadə mübadilə sistemindən qeyri-maddi mal və xidmətlərin cəlb olunduğu elektron ticarət və rəqəmsal ticarətin mürəkkəb dövrünə qədəm qoymuşdur . 2020-ci ilə olan məlumata görə, Ümumdünya Ticarət Təşkilatı (ÜTT) qlobal miqyasda ümumi mal ticarətinin təxminən 19,5 trilyon ABŞ dolları təşkil etdiyini və bu, beynəlxalq ticarətin qlobal iqtisadiyyatdakı əhəmiyyətini əks etdirdiyini bildirdi.

Beynəlxalq ticarətin hazırkı vəziyyətinin hərəkətverici qüvvələri çoxşaxəlidir. Texnoloji inkişaf beynəlxalq ticarətin asanlaşmasında mühüm rol oynayır. İnternetin və müasir kommunikasiya texnologiyalarının yaranması müəssisələrin beynəlxalq istehlakçılara çatmasını və istehlakçıların dünyanın hər yerindən məhsullara çıxışını asanlaşdırıb. Məsələn, sosial media və e-ticarət platformaları coğrafi məhdudiyyətləri əhəmiyyətli dərəcədə azaltmaqla qlobal ticarət üçün kritik kanallara çevrilib.

Texnologiyanın inkişafı insan həyatını bir sıra müxtəlif istiqamətlərdə müsbətə doğru dəyişmişdir.Hec şübhəsiz texnologiyanın ən önəmli təsiri daima istehsal və istehlak edən insan cəmiyyəti üçün ticarətə və ticarətin daha rahat,sərbəst və beynəlxalq müstəvidə yayılmasına olmuşdur.Amazon,Ali express, Alibaba,Trendyol kimi günümüzün fenomenleri internet üzərindən onlayn ticarətin necə böyük ölçüdə insanlar tərəfindən istifadə olunduğunu ,ticarəti rahatlaşdırdığını və uzun məsafələri əlçatan etdiyini görə bilərik.Bu fenomenlər bir sualı ortaya atır.Dünya kiçilibmi? Təbii ki, cavab bəllidir.İstər müasir nəqliyyat və kommunikasiya vasitələrinin hava nəqliyyatı ilə qısa

№ 1/2024 səh.64-69

müddətdə dünyanın hər yerinə fiziki çıxışı,istərsə də bu məsafəni sıfıra endirən minlərlə kilometr uzaqlıqda insanlar arasında ödənişsiz əlaqəni təmin edən internet vasitəsilə dünya kiçilirmi sualına rahat cavab tapa bilirik.Şirkətlərin internet saytları , sosyal şəbəkələr və digərləri artıq insanlar arası " alveri" çox daha rahat və sürətli hala gətirib çıxarmışdır.Belə ki, beynəlxalq ticari müstəvidə baş verən bu texnoloji irəliləyişlər sərhədləri demək olar ki,aradan qaldıraraq qloballaşan tək dünya modeli ortaya çıxarmışdır.Hansi ki son otuz ilə baxsaq qlobal iqtisadiyyatda TMK-ların sayında sürətli artımın olmasıda heç də təsadüfi deyildir.Müasir ticarətin hər kəs üçün əlçatanlığı TMK-ların kəmiyyət və keyfiyyət olaraq böyüməsinə ,bu böyümənin də öz növbəsində dünya iqtisadiyyatını sürətli inkişafa aparmasını görə bilərik.

Beynəlxalq ticarətin cari mənzərəsinə diqqət etsək müşahidə edərik ki, qlobal ticarət axınlarına əhəmiyyətli dərəcədə töhfə verən əsas olaraq bir neçə ölkə mövcuddur. Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransının (UNCTAD) 2020-ci il məlumatlarına əsasən, "ümumi ticarət həcminə görə ilk üç iqtisadiyyat Çin, ABŞ və Almaniya olub və ümumi dünya ticarətinin demək olar ki, 30%-ni təşkil edir" [United Nations Conference on Trade and Development (2021). Global Trade Update. Səh 3].

Beynəlxalq ticarət bu gün həm də müxtəlif çeşiddə satılan mal və xidmətləri əhatə edir. Ənənəvi olaraq xammal və istehsal olunan malların ticarəti üstünlük təşkil etsə də, xidmət ticarəti müasir qlobal iqtisadiyyatın mühüm istiqamətini təşkil edir."Dünyada iqtisadiyyatı formalaşdıran əsas sektorlar kənd təsərrüfatı, sənaye və xidmət sektorlarıdır. Son illərdə dünya ölkələrində xidmət sektoru kənd təsərrüfatı və sənaye sektorlarına nisbətən əhəmiyyətli üstünlüyə malikdir. Çünki xidmət sektoru kənd təsərrüfatı və sənaye sektorlarından daha çox gəlir gətirən sektordur".[dergipark] Bu gün xidmət sektoru bir çox ölkələrin ÜDM-nin 50%-dən çoxunu təşkil edir. Xidmətlər ümumiyyətlə ölkələrin iqtisadiyyatının ən sürətlə inkişaf edən sektorudur və xidmət ticarətinin illik dəyəri təxminən 2,5 trilyon dollar təşkil edir və onun aktiv alt sektorları ilə bərabər beynəlxalq ticarətin təxminən 25%-ni əhatə edir.[dergipark]

Bundan əlavə, beynəlxalq ticarətin indiki vəziyyətinə ÜTT kimi beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilmiş ticarət sazişləri və qaydalar, habelə ölkələr arasında ikitərəfli və regional ticarət sazişləri böyük təsir göstərir. Bu sazişlər və qaydalar ticarət qaydalarının müəyyən edilməsində, ticarət mübahisələrinin həllində və sabit ticarət mühitinin yaradılmasında mühüm rol oynayır. Bundan başqa, ÜTT-nin məqsədi beynəlxalq ticarətin liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması və beləliklə də, iqtisadi inkişafın, eyni zamanda insanların həyat səviyyəsinin artırılmasıdır. Bu məqsədə üzv-ölkələr arasında ticarətə aid olan saziş və qaydaların işlənməsi və tətbiq edilməsi, həmçinin beynəlxalq ticarətin liberallaşdırılmasına yönəldilmiş danışıqların həyata keçirilməsi yolu ilə çatılır.Məsələn, Avropa İttifaqının Vahid Bazarı üzv dövlətlər arasında malların, xidmətlərin, kapitalın və insanların sərbəst hərəkətinə imkan verən sazişdir. Bu, Avropa İttifaqı daxilində ticarət və iqtisadi inteqrasiyanı asanlaşdırdı.

Beynəlxalq ticarətdə baş verən bir sıra müasir problemlər qlobal ticari mənzərəyə mürəkkəbliklər qatır.

Qlobal pandemiya beynəlxalq ticarəti ciddi şəkildə pozdu. Sərhədlərin bağlanması, tədarük zəncirinin pozulması və istehlakçı davranışlarının dəyişməsi demək olar ki, hər bir sənaye sahəsinə kəskin şəkildə təsir edib. Ümumdünya Ticarət Təşkilatı pandemiya səbəbindən 2020-ci ildə mal ticarətinin həcminin 5,3% azaldığını bildirdi.Amma digər tərəfdən, bu böhran təmassız əməliyyatların və davamlı təchizat zəncirlərinin önəmini ortaya qoydu və siyasətlərdə və biznes modellərində dəyişikliklərin vacibliyini vurğuladı."2020-ci ilin aprel ayına qədər, koronavirus epidemiyasının yayılması gücləndikcə, bütün tədarük zəncirləri və sənaye sahələri qəfil problemlərə düçar oldu. Qlobal maliyyə bazarlarında, 2007-2009 İqtisadi çöküşdən bəri müşahidə olunmayan sürətli yüksəlişlər və enişlər müşahidə olundu"[Белякова, 17-18]. Ümumiyyətlə 2020-ci ildə qlobal ticarətin həcmi 2.5 trilyon dollar azaldı.Bu əvvəlki ilə müqayisədə 9 faiz təşkil edirdi.Lakin pandemiya bitdikdən sonra müsbət dəyişikliklər baş verdi. UNCTAD məlumatlarına görə, 2021-ci ildə iqtisadi şərtlər yaxşılaşdıqca, Qlobal ticarətin dəyəri güclü şəkildə canlandı və rekord həddə çatdı və təxminən

28,5 trilyon dollara bərabər oldu. ( pandemiyadan əvvəlki səviyyələrlə müqayisədə təxminən 13 faiz artım.)

Xüsusilə ABŞ və Çin kimi böyük iqtisadiyyatlar arasında artan ticarət müharibələri qlobal ticarət siyasət və praktikalarında əhəmiyyətli qeyri-müəyyənliklər yaradıb. Tariflər və əks tariflər xərcləri artıra, qlobal təchizat zəncirlərini poza, istehlakçılara və biznesə zərər verə bilər. Ticarət müharibələri tarifləri və ölkələr arasında ticarət maneələrini artıraraq beynəlxalq ticarətə mənfi təsir göstərə bilər. Bu, ixrac-idxal fəaliyyətlərinin azalmasına, qlobal təchizat zəncirlərinin pozulmasına və biznes üçün xərclərin artmasına səbəb ola bilər. Bundan əlavə, artan qeyri-müəyyənlik və bazara çıxışın olmaması qlobal miqyasda investisiya və iqtisadi artıma mane ola bilər. Burada bir məqamı da vurğulamaq istəyirəm ki, bəzi tədqiqatçılar bu kimi böyük iqtisadiyyatlar arasında gedən müharibələrin bəzən digər ölkələrin ticarət əlaqələrinə müsbət təsirləri də olur."ABŞ-Çin Ticarət Müharibəsi və Qlobal Yenidən Yerləşdirmələr (NBER İşçi Sənədi 29562) əsərində Pablo Fajgelbaum, Pinelopi K. Qoldberq, Patrik C. Kennedi, Amit Xandelval və Daria Taqlioni qeyd edirlər ki, ticarət müharibəsi digər ölkələr üçün ticarət imkanları yaradıb və qlobal ticarət ümumi dəyərini 3 faiz artırıb. İxrac artımı güclü ticarət müqavilələri ilə idarə olunan ixracat payının daha çox olduğu ölkələrdə və birbaşa xarici investisiyaların daha çox olduğu ölkələrdə daha güclü olmuşdur".

Böyük Britaniyanın Avropa İttifaqından çıxmaqla bağlı tarixi qərarı beynəlxalq ticarət üçün əhəmiyyətli nəticələrlə nəticələndi. Böyük Britaniya-AB arasında yeni ticarət sazişi və Böyük Britaniyanın digər ölkələrlə ticarət müqavilələri bağlamaq səyləri Avropada və Avropa ilə beynəlxalq ticarət dinamikasında dəyişikliklərə səbəb olub."Brexit Böyük Britaniya üçün Aİ hüdudlarından kənarda yeni ticarət əlaqələri qurmaq imkanları yaratdı. Müstəqil ticarət ölkəsi kimi Böyük Britaniya Aİ-dən kənar ölkələrlə ticarət sazişləri üzrə danışıqlar aparmaq üçün çevikliyə malik oldu. Böyük Britaniya artıq Yaponiya və Kanada da daxil olmaqla bir sıra ölkələrlə ticarət müqavilələri imzalayıb. Bu yeni ticarət sazişləri bazara çıxışı artırmaq, ticarət maneələrini azaltmaq və iqtisadi əməkdaşlığı təşviq etmək məqsədi daşıyır. Bununla belə, onların Böyük Britaniyanın beynəlxalq ticarət mənzərəsinə tam təsirini qiymətləndirmək üçün vaxt lazımdır". (https://tradecouncil.org/the-impact-of-brexit-on-international-trade/)

Ətraf mühitlə bağlı narahatlıqlar üstünlük təşkil etdikcə, onların beynəlxalq ticarətə təsiri daha aydın görünür. Davamlı təcrübələrə keçmək üçün millətlərə və sənayelərə təzyiq, əmtəə və xidmətlərin istehsalı, ticarəti və istehlakında dəyişiklikləri məcbur edir. Bundan əlavə, iqlim dəyişikliyi xüsusilə ekstremal hava şəraitinə həssas olan bölgələrdə ticarət logistikasını poza bilər."İqlim dəyişikliyinin nəqliyyat infrastrukturuna mənfi təsir göstərəcəyi ilə bağlı ekspertlər arasında yüksək razılıq var. IPCC(2014) tərəfindən aparılan hesabatlara görə, iqlim dəyişikliyi beynəlxalq ticarət üçün uyğun olan bütün nəqliyyat növlərinə, o cümlədən dəniz nəqliyyatı, quru nəqliyyat növləri və hava nəqliyyatına mənfi təsir göstərir. "Tədqiqatlar göstərir ki, dəniz səviyyəsinin qalxması, fırtınaların artması və həddindən artıq yağıntılar kimi iqlim dəyişikliyinin səbəb olduğu problemlər hava limanlarının fəaliyyətlərinə təsir edə bilər ,çətin hava şəraitinə məruz qalan və ya alçaq ərazilərdə infrastrukturlara mənfi təsir göstərə bilər" (OECD Trade and Environment Working səh 19).

Bunlar beynəlxalq ticarətə təsir edən bir çox geniş yayılmış məsələlərdən yalnız bir neçəsidir. Bu məsələlərə diqqət etməklə biz qloballaşma, ticarət , geosiyasi və sosial-iqtisadi dinamika arasında qarşılıqlı əlaqənin dərindən başa düşülməsinə şərait yarada bilərik. Bu müasir problemləri anlamaqla biz son nəticədə beynəlxalq ticarətin gələcək trayektoriyasını izləyə bilərik.Texnologiyanın inkişafı insan həyatını bir sıra müxtəlif istiqamətlərdə müsbətə doğru dəyişmişdir. Heç şübhəsiz texnologiyanın ən önəmli təsiri daima istehsal və istehlak edən insan cəmiyyəti üçün ticarətə və ticarətin daha rahat, sərbəst və beynəlxalq müstəvidə yayılmasına olmuşdur. Amazon, Ali express, Alibaba, Trendyol kimi günümüzün fenomenləri internet üzərindən onlayn ticarətin necə böyük ölçüdə insanlar tərəfindən istifadə olunduğunu, ticarəti rahatlaşdırdığını və uzun məsafələri əlçatan etdiyini görə bilərik. Bu fenomenlər bir sualı ortaya atır. Dünya kiçilibmi? Təbii ki, cavab bəllidir. İstər müasir nəqliyyat və kommunikasiya vasitələrinin hava nəqliyyatı ilə qısa müddətdə dünyanın hər yerinə fiziki çıxışı,istərsə də bu məsafəni sıfıra endirən minlərlə kilometr uzaqlıqda insanlar arasında ödənişsiz əlaqəni təmin

edən internet vasitəsilə dünya kiçilirmi sualına rahat cavab tapa bilirik.Şirkətlərin internet saytları, sosial şəbəkələr və digərləri artıq insanlar arası "alveri" çox daha rahat və sürətli hala gətirib çıxarmışdır. Belə ki, beynəlxalq ticari müstəvidə baş verən bu texnoloji irəliləyişlər sərhədləri demək olar ki, aradan qaldıraraq qloballaşan tək dünya modeli ortaya çıxarmışdır.Hansi ki son otuz ilə baxsaq qlobal iqtisadiyyatda TMK-ların sayında sürətli artımın olmasıda heç də təsadüfi deyildir. Müasir ticarətin hər kəs üçün əlçatanlığı TMK-ların kəmiyyət və keyfiyyət olaraq böyüməsinə ,bu böyümənin də öz növbəsində dünya iqtisadiyyatını sürətli inkişafa aparmasını görə bilərik.

## Nəticə

Yekun olaraq qeyd edək ki, beynəlxalq ticarət danılmaz olaraq qlobal iqtisadi rifahın aparıcısına çevrilib və bütün dünyada sosial-iqtisadi mənzərələrin formalaşmasında əvəzsiz rol oynayıb. O, sadə başlanğıcından bu gün təqdim etdiyi mürəkkəb, bir-biri ilə əlaqəli struktura qədər, texnoloji irəliləyişlər, geosiyasi dəyişikliklər və ekoloji problemlər da daxil olmaqla çoxsaylı amillər tərəfindən formalaşmağa davam edir.Bundan əlavə, COVID-19 pandemiyasının, ticarət gərginliyinin və rəqəmsal inqilabın davam edən təsirlərini nəzərə alaraq, beynəlxalq ticarət əhəmiyyətli bir kəsişmə nöqtəsində dayanır. Xalqların və biznesin bu müasir problemləri necə idarə etməsi beynəlxalq ticarətin gələcək kursunu əhəmiyyətli dərəcədə müəyyənləşdirəcək.

## ƏDƏBİYYAT

1. https://www.britannica.com/topic/great-power
2. Ercan Taşkın.., “Alanya Academic Review” Journal year: 2021, 766p
3. Mesut Kucukkalay.., “Endüstri devrimi ve ekonomik sonuçlarının analizi” Suleyman Demirel Universiteti Iktisadi ve idari Bilimler Fakultesi Dergisi Y:1997, 62p
4. “Economic report of the President”, Trasmitted of the Congress February 2006
5. Белякова, М. Л. Международное налоговое право. Москва: Норма. 2017
6. Arif Özsağır.., “Hizmetler sektörü içinde hizmet ticaretinin yeri ve karşılaştırmalı bir analizi” Elektronik sosyal bilimler dergisi 2012, 316p
7. Brauner, Y., & Mintz, J. (Eds.). Global tax revolution: The rise of tax competition and the battle to defend it. IBFD. 2016
8. www.esosder.org
9. www.bookstote.gpo.gov
10. https://tradecouncil.org/the-impact-of-brexit-on-international-trade/

**UOT 339.5**

## Modern development perspectives of international trade

**[1]Jabbarova K.S., [2]Aliyev E.A.**

**Summary.**This article provides a brief survey of the historical origins of international trade up to the present day. It walks through key historical milestones, highlights the current interconnected global trade landscape, and sheds light on the challenges faced by focusing on the impact of events such as the COVID-19 pandemic. The recent trade wars, especially the tensions between the US and China, and the effects of the conflicts between protectionism and free trade on world trade against the background of the general economy are also touched upon.

Today, the role of the service sphere in the trade volume and its increasing value, which has been increasing in recent years, is noted. The article aims to offer a brief but informative overview of the dynamic and evolving nature of international trade.

**Keywords**: International, trade, perspective, modern, WTO, development.

**№ 1/2024** **səh.64-69**

**УДК 339.5**

## Современные перспективы развития международной торговли

**[1]Джаббарова К. С., [2]Алиев Э.А.**

**Резюме.**В данной статье представлен краткий обзор исторических истоков международной торговли до наших дней. В нем рассматриваются ключевые исторические вехи, освещается нынешняя взаимосвязанная глобальная торговая ситуация и проливается свет на проблемы, с которыми приходится сталкиваться, если сосредоточиться на влиянии таких событий, как пандемия COVID-19. Также затрагиваются недавние торговые войны, особенно напряженность между США и Китаем, а также влияние конфликтов между протекционизмом и свободной торговлей на мировую торговлю на фоне общей экономики.

**Ключевые слова:** Международная, торговля, перспектива, современность, ВТО, Развитие.

Redaksiyaya daxilolma: 07.03.2023
Çapa qəbul olunma: 27.03.2024

№ 1/2024 səh.70-78

UOT 330.341.4
DOI: 10.30546/JIECM.2024.1.069.

# XARİCİ İNVESTİSİYA TRANSFERLƏRİNİN PRİORİTET İSTİQAMƏTİ OLARAQ QEYRİ-NEFT SEKTORUNUN PERSPEKTİVLƏRİ: AZƏRBAYCAN NÜMUNƏSİ

**Amin Azər oğlu Tağıyev**

**Azərbaycan Dövlət İqtisad Universiteti**
**Bakı şəh., İstiqlaliyyət küç., 6**

**amin-taghiyev@unec.edu.az**

**Xülasə.***Azərbaycanda qeyri-neft sektoru ənənəvi neft mərkəzli iqtisadiyyatdan ayrılaraq, xarici investisiyalar üçün əsas diqqət mərkəzinə çevrilmişdir. Bu məqalədə qeyri-neft sektorunun xarici sərmayələrin cəlb edilməsi perspektivləri araşdırıb, onun Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində əhəmiyyəti vurğulanır. Əsas tendensiyaları və strategiyaları təhlil edərək, bu tədqiqat turizm, kənd təsərrüfatı və texnologiya kimi qeyri-neft sənayelərinin iqtisadi artımı və dayanıqlılığı gücləndirmək üçün potensialını aydınlaşdırır. O, empirik sübutlar və nümunə araşdırmaları vasitəsilə Azərbaycanın xarici investisiya təşəbbüslərində qeyri-neft sektorunun inkişafına üstünlük verməsinin vacibliyini vurğulaycayıq.*

**Açar sözlər**: *Xarici investisiya, prioritet istiqamət, qeyri neft sektoru, davamlı iqtisadiyyat, rəqabət qabiliyyətli istiqamət*

**Giriş.**İnkişaf etməkdə olan ölkələr, inkişaf etmiş ölkələr etməkdə və keçid dövrünü yaşayan ölkələr birbaşa xarici investisiyaların iqtisadi inkişafa, modernləşməyə, gəlir artımına və məşğulluğa nail olmaq vasitəsi kimi əhəmiyyətini dərk etmişlər. Ölkələr birbaşa xarici investisiya (BXİ) qaydalarında liberallaşdırma tədbirləri həyata keçirmiş və investisiyaları fəal şəkildə təşviq etmək və cəlb etmək üçün müxtəlif strategiyalar qəbul etmişlər.

İnvestorların daxili iqtisadiyyata cəlb edilməsinin üstünlüklərini maksimum dərəcədə artırmaq üçün daxili siyasətin həyata keçirilməsinə optimal yanaşmanı müzakirə ediblər. İnkişaf üçün birbaşa xarici investisiyalar üzrə tədqiqat əsasən XBİ-nin makroiqtisadi inkişafa və rifahı yüksəldən digər proseslərə təsiri haqqında məlumat vermək məqsədi daşıyır. O, həmçinin bu üstünlüklərin həyata keçirildiyi xüsusi yolları araşdırır.

Birbaşa xarici investisiyaların (BXİ) inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatları üçün hərtərəfli üstünlükləri geniş şəkildə qeyd olunur. İnvestisiya qəbul edən ölkələr düzgün investisiya siyasəti formalaşdırıldıq da və müəyyən inkişaf səviyyəsində olduqda, çoxsaylı tədqiqatlar göstərir ki, birbaşa xarici investisiyalar texnologiyanın transferinə gətirib çıxarır, insan kapitalının inkişafına kömək edir, beynəlxalq ticarət inteqrasiyasını təşviq edir, rəqabət qabiliyyətini artırır və biznes mühitinin inkişafı və müəssisələrin böyüməsini dəstəkləyir. Bu amillər birlikdə inkişaf etməkdə olan ölkələrdə yoxsulluğun azaldılmasının ən təsirli vasitəsi olan iqtisadi inkişafın artmasına gətirib çıxarır. Bundan əlavə, sırf iqtisadi üstünlüklərdən başqa, xarici investisiya alıcı ölkənin ekoloji və sosial vəziyyətinin yaxşılaşdırılmasına töhfə verə bilər.

Xarici investisiyaların müxtəlif ölkələrdə və iqtisadi sektorlarda xarici ticarətə təsiri ilə bağlı empirik məlumatlarda müxtəliflik olsa da, BXİ ilə ticarət arasındakı əlaqənin birbaşa xarici ticarətdən daha geniş kontekstdə başa düşülməsi ilə bağlı artan razılıq var. İnvestisiyaların idxal və ixraca təsiri qəbul edilən bir gerçəkdir. İnkişaf etməkdə olan ölkələr üçün birbaşa xarici investisiyaların əsas ticarət üstünlüyü onun uzunmüddətli perspektivdə iqtisadiyyatın qlobal iqtisadiyyata inteqrasiyasını asanlaşdırmaqdadır. Bu inteqrasiya prosesinin həm idxalda, həm də ixracda artımı əhatə edəcəyi gözlənilir. Sadə dillə desək, ticarət və investisiya milli sərhədləri aşaraq fəaliyyətlərin həyata

№ 1/2024 səh.70-78

keçirilməsi üçün bir-biri ilə əlaqəli vasitə kimi geniş şəkildə qəbul edilir. Buna baxmayaraq, qəbul edən ölkə orqanlarının birbaşa xarici investisiyaların beynəlxalq ticarətə birbaşa və gələcək təsirlərini, xüsusən də cari hesab problemləri ilə qarşılaşdıqda diqqətlə qiymətləndirməsi çox vacibdir.

Ölkələr inkişaf etdikcə və sənayeləşmiş ölkələrə çevrildikcə, digər ölkələrdən birbaşa xarici investisiyalar onların qlobal iqtisadiyyata gələcək inteqrasiyasında mühüm rol oynayır. Bu, beynəlxalq ticarət axınının təşviqi və gücləndirilməsi ilə əldə edilir.

Qısa və orta müddətli perspektivdə ixracı artırmaq üçün bir strategiya kimi xarici investisiyalardan istifadə etmək üçün ev sahibi ölkələrin imkanları konkret şəraitdən asılıdır. Xarici investisiyalar maliyyə cəhətdən məhdud olan ölkələr təbii ehtiyatlarından istifadə etməkdə (məsələn, faydalı qazıntıların hasilatına xarici investisiyalar) və ya onların coğrafi yerləşməsindən faydalanmaqda (məsələn, keçid iqtisadiyyatlarına investisiya kimi) kömək etdiyi hallarda investisiya ixracın artmasına əhəmiyyətli təsir göstərir.(https://www.oecd.org/investment/investmentfordevelopment/1959815.pdf)

Buna baxmayaraq, investisiyaların qorunması müqavilələri və investisiya sığortası kimi effektiv investisiyaların qorunması mexanizmlərinin tətbiqi ilə investorun çəkdiyi potensial itkilər azaldıla bilər, lakin bu riskləri tamamilə aradan qaldırmaq mümkün deyildir. Bu isə investorların investisiya qərarlarına mənfi təsir göstərən faktorlardandır (Víg, Z., 2018).

Azərbaycan hökuməti kənd təsərrüfatı və emal sektorlarına, sənaye sektoruna və sahibkarlığa yardım edir. Bundan başqa, Azərbaycan hökuməti turizmin, informasiya texnologiyalarının inkişafına, logistik mərkəzlərin tikintisinə böyük əhəmiyyət verir. BƏƏ, Nigeriya və Norveçin iqtisadi diversifikasiya strategiyaları göstərir ki, qlobal iqtisadiyyata effektiv inteqrasiya və rəqabət qabiliyyətinin artırılması ölkənin ixrac potensialının artırılması üçün mühüm amillərdir. Bir neçə modeli beynəlxalq nöqteyi-nəzərdən təhlil etdikdə məlum olur ki, BƏƏ modeli Azərbaycan üçün ən uğurlu və uyğun modeldir (Babayev B., 2019).

İqtisadiyyatı rəqabət qabiliyyəti ilə xarakterizə olunur və Ümumdünya Ticarət Təşkilatında (ÜTT) iştirakı BƏƏ-nin neft ixracından asılılığını 12% azaltmaqda mühüm rol oynamışdır. Neft gəlirlərini idarə etmək bacarığı ilə tanınan həm Nigeriya, həm də Norveç bunu etməyib. Kənd təsərrüfatı sahəsi Azərbaycan iqtisadiyyatında mühüm əhəmiyyətə malikdir və inkişaf potensialına malikdir. Kənd təsərrüfatı sektoru Azərbaycanın ixrac bazarında neft sektorundan sonra ikinci ən gəlirli sahədir. 2018-ci ildən sonra kənd təsərrüfatı sənayesi neft sektorunu üstələyərək, ölkənin əsas gəlir mənbəyi kimi ortaya çıxdı. Bu sektor ölkənin ümumi gəlirlərinin təxminən 3%-ni təşkil edir (Aliyev K., Gasimov, I., 2018).

Kənd təsərrüfatının qlobal inteqrasiyasına nail olmaq üçün əsas yanaşma kənd təsərrüfatı məhsullarının ixracını artırmaq və bu sektora investisiyaların cəlb edilməsi yolu ilə bazar müxtəlifliyini genişləndirməkdir. Bundan əlavə, dövlət infrastrukturun və irriqasiya sistemlərinin inkişafı üçün böyük vəsait ayırmalıdır. Eyni zamanda, sənaye emal firmalarında istehsal olunan məhsulların məhsuldarlığının artırılması və rəqabət qabiliyyətinin gücləndirilməsi, buna görə də bu sektorun gücləndirilməsi üçün aktual ehtiyac var. Azərbaycanda kənd təsərrüfatı sənayesi əhalinin 37 faizini işçi qüvvəsinə malikdir. Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracı beynəlxalq ticarət statistikasına görə neft ixracından sonra ikinci yerdədir. Azərbaycanın kənd təsərrüfatı sənayesi zəngin torpaqları, bol su ehtiyatları və müxtəlif iqlim regionları nəticəsində mühüm potensiala malikdir. Son vaxtlar hökumət aqrar sektora ciddi maliyyə öhdəlikləri götürüb və hazırda əsaslı dəyişikliklər nəzərdə tutulur. Mütəxəssislər yaxın illərdə kənd təsərrüfatı sənayesində əhəmiyyətli artımın olacağını proqnozlaşdırırlar. Dövlətin kənd təsərrüfatının inkişafı prioritetləri Kənd Təsərrüfatının İnkişafına dair Strateji Yol Xəritəsində müəyyən edilib. 2025-ci ilə qədər dövlət kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətini artırmağı hədəfləyir. Strategiya planı müasir təsərrüfatlarda istehsalın artırılması üçün texnologiya və kənd təsərrüfatının avtomatlaşdırılmasının inteqrasiyasının zəruri olduğunu göstərir. Sənaye məhsulu da qeyri-neft ixrac sektorunun bir hissəsidir. Sənaye sektoru iki əsas sektora bölünür: yüngül və ağır sənaye. Azərbaycanın milli sənayesinə sənaye sektoru, mədənçıxarma sənayesi, emal sənayesi, enerji sektoru, kömür istehsalı, buxar emalı, paylanması və təchizatı, su təchizatı, tullantıların idarə edilməsi daxildir. Azərbaycanda sənaye sektoru tekstil, parçalar, xalçaçılıq,

dəri məmulatları və ayaqqabı istehsalı kimi bir çox fəaliyyət sahələrini əhatə edir. Yüngül sənaye minimal kapital qoyuluşu ehtiyacları və məhsul istehsalının asanlaşdırılması üçün insan əməyindən asılılığı ilə seçilir.

KOM-ların genişlənməsi və onların ixrac imkanları qeyri-neft ixrac sənayesində mühüm amil olmaqda davam edir. Kiçik və orta sahibkarlıq (KOB) qlobal iqtisadiyyatın əsasını təşkil edir və məşğulluq imkanlarının genişlənməsinə əhəmiyyətli təsir göstərir. Azərbaycanda Strateji Yol Xəritəsinin (2016) həyata keçirilməsi KOM-lar üçün mərkəzləşdirilmiş KOB departamentinin tikintisi, klasterlərin formalaşdırılması, biznes inkubatorlarının qurulması və startaplara dəstək daxil olmaqla bir sıra təşəbbüslər irəli sürməklə sahibkarlığı asanlaşdırıb. Bundan başqa, Azərbaycanda texnologiyanın inkişafı bir sıra sənayelər üzrə effektivliyi və rəqabət qabiliyyətini artırmaq məqsədi ilə ölkənin əsas strateji planlarına daxil edilib. Hökumət innovasiyaya əsaslanan inkişafın bütün sektorlar üçün faydalı olması qənaətindədir (Babayev B., 2019: Babayev B., Hajiyev N., 2019).

Xarici investisiya transferlərinin prioritet istiqamətləri iqtisadi siyasətdən, bazar şəraitindən və qlobal tendensiyalardan asılı olaraq dəyişə bilər. Bununla belə, xarici investisiya transferləri üçün bəzi ümumi prioritet sahələrə çox vaxt aşağıdakılar daxildir:

- Nəqliyyat şəbəkələri, enerji qurğuları, telekommunikasiya sistemləri və su təchizatı kimi infrastruktur layihələrinə investisiyalar uzunmüddətli iqtisadi fayda verə və ümumi iqtisadi artımı təkan verir. (Dünya Bankı Qrupu, 2019).
- İnformasiya texnologiyaları, biotexnologiya və bərpa olunan enerji kimi texnologiyaya və innovasiyaya əsaslanan sektorlara xarici investisiyalar məhsuldarlığı artıra və qlobal bazarda rəqabət qabiliyyətini artıracaqdır (Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransı, 2020).
- İstehsal sektorlarına investisiyalar sənayeləşməni stimullaşdıra, iş imkanları yarada və ixrac imkanlarını artıraraq iqtisadiyyatın diversifikasiyasına və davamlı inkişafa töhfə verir bilər (UNCTAD, 2021).
- Mədənçıxarma, neft və qaz kəşfiyyatı və kənd təsərrüfatı kimi təbii sərvət sektorlarına xarici investisiyalar davamlı şəkildə idarə olunarsa, iqtisadi potensialı aça bilər, gəlirlər əldə edə və yerli inkişafa töhfə verir (Dünya Bankı, 2018).
- Bank, sığorta və kapital bazarları da daxil olmaqla maliyyə xidmətlərinə investisiyalar maliyyə vasitəçiliyini gücləndirə, kreditə çıxışı təşviq edə və ümumi iqtisadi artımı dəstəkləyərək investisiya axınını asanlaşdırır (BVF, 2020).
- Məktəblər, universitetlər, peşə təhsili mərkəzləri və elektron təhsil platformaları da daxil olmaqla təhsil və təlim obyektlərinə investisiyalar insan kapitalının inkişafını təkmilləşdirə, işçi qüvvəsinin bacarıqlarını artıra və innovasiya və sahibkarlığı təşviq edir (OECD, 2019).
- Qlobal məqsədlərinə uyğun olaraq, bərpa olunan enerjiyə, təmiz texnologiyalara, ekoloji cəhətdən təmiz infrastruktura və davamlı kənd təsərrüfatı təcrübələrinə xarici investisiyalar ekoloji riskləri azalda, dayanıqlılığı təşviq edə və inklüziv böyüməyə təkan verə biləcək potensialdadır (Birləşmiş Millətlər, 2015).

**Azərbaycanda qeyri-neft sektorunun istiqamətləri.** Qeyri-neft sənayesinin inkişafı uzunmüddətli sosial-iqtisadi inkişafın təmin edilməsində və ölkəmizdə makroiqtisadi sabitliyin qorunmasında mühüm əhəmiyyət kəsb edir. Ona görə də Azərbaycanın qeyri-neft sektorunun inkişafı dövlətin iqtisadi strategiyasının əsas istiqaməti kimi mühüm əhəmiyyət kəsb edir. Son dövrlərdə neft sənayesinin xüsusi çəkisinin aşağı düşməsinə, qeyri-neft sektorunun məhsul istehsalının həcminin artmasına baxmayaraq, respublikamızın ÜDM-i artmışdır. Bu inkişaf meylinin növbəti illərdə də davam edəcəyi gözlənilir. Qeyri-neft sektorunun Ümumi Daxili Məhsulda (ÜDM) xüsusi çəkisi 2012-ci ildəki 52,7 faizdən 2017-ci ildə 62,0 faizə yüksəlib. Dövlət Statistika Komitəsinin açıqladığı ilk rəqəmlərə əsasən, 2017-ci ildə ölkədə ÜDM 65,0 milyard manatı ötmüşdür. 2017-ci ildə neft sənayesində əvvəlki illə müqayisədə 94,7% azalma ilə hasilatın həcmi əhəmiyyətli dərəcədə azalıb.

Bununla belə, qeyri-neft sektorunda nəzərəçarpacaq artım tempi 102,7%, o cümlədən kənd təsərrüfatında 108,0% artım tempi müşahidə edilmişdir (Böyükkişi N., 2018).

Məşğulluğun bölgüsü belədir: 23,2 faiz informasiya və rabitə sektorunda, 14,8 faiz qeyri-neft sənaye sektorunda, 13,4 faiz tikinti sektorunda, 3,2 faiz avtomobil təmiri və kənd təsərrüfatı sektorunda. Bundan əlavə, meşə təsərrüfatı və balıqçılıq sektorunda məşğulluqda 3,4% artım qeydə alınıb.

Qeyri-neft-qaz sektorunda Ümumi Daxili Məhsul (ÜDM) 9,1% əhəmiyyətli artımla ümumilikdə 69,8 milyard manata çatıb.

Təsdiqlənmiş Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq qeyri-neft və qaz sektorunda yaradılan ÜDM-in 9,1%-ni təşkil edir. ÜDM-in 8,7%-i qeyri-neft sənayesinin, 9,3%-i isə tikintinin payına düşür. Ticarət və nəqliyyat vasitələrinin təmiri ÜDM-in 15,8%-ni, nəqliyyat və anbar təsərrüfatı isə 11,5%-ni təşkil edir. Turistlərin yerləşdirilməsi və ictimai iaşə ÜDM-in 3%-ni, informasiya və kommunikasiya sahələri isə 2,7%-ni təşkil edir. Digər sahələr, məhsullar və xalis idxal vergiləri ÜDM-in 28,1%-ni, yalnız xalis idxal vergiləri isə ÜDM-in 11,8%-ni təşkil edir.

Qeyri-neft-qaz sektorunun gələcək inkişafı əsas diqqəti qeyri-neft sənayesinin şaxələndirilməsi və daha da irəliləyişinə yönəldəcək. Bura qeyri-neft sektorlarında rəqabət qabiliyyətinin təşviqi, ərzaq təhlükəsizliyini artırmaq üçün kənd təsərrüfatı istehsalının və ixracının artırılması, rəqəmsal ticarətin və müxtəlif xidmət fəaliyyətlərinin inkişafı və turizm sektorunun canlandırılması daxildir. Bu sahələr inkişafın sürətləndirilməsi üçün əsas prioritet sahələr kimi müəyyən edilib.

Bundan başqa, ortamüddətli perspektivdə ölkənin qeyri-neft sektoru işğaldan azad edilmiş ərazilərin bərpası üçün qlobal investisiya bazarından əhəmiyyətli xarici investisiyalar tələb edir. Bu, konkret sahələrin inkişafına üstünlük verəcək və investisiyaların yönləndirilməsi üçün geniş imkanlar yaradacaqdır.(https://economy.gov.az/storage/files/files/3734/Cg9YgsJ3TEEvM3WeKHV5LvzmVSMskAXC1Br4ErKQ.pdf).




**Şəkil 1. Kənd təsərrüfatı üzrə istehsal indeksinin dinamikası, %**

**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 2022

2022-ci ilin yanvar-dekabr aylarında ümumilikdə 10 milyon 984,2 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsuldarlığında 3,4 faiz, bitkiçilik məhsullarında isə 3,3 faiz artım qeydə alınıb.

Heyvandarlıq sənayesində artım daha çox yumurta istehsalının 9,8%, diri çəkidə ət istehsalının isə 3,0% artması ilə əlaqədardır. Kənd təsərrüfatı sektorunda kartof istehsalında 1,2 faiz, meyvə istehsalı isə 4,0 faiz, bostan məhsullarında isə 2,0 faiz artım müşahidə olunub.




**Şəkil 2. Qeyri neft-qaz sənayesində əlavə dəyərin strukturu, mln. manat**
**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 2022

2022-ci ilin yanvar-dekabr aylarında qeyri-neft-qaz sektorunda 5,7% artım müşahidə olunub. Ümumi sektorun 71,5%-ni təşkil edən qeyri-neft emalı sənayesi, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi. , və ümumi sektorun 19,8%-ni təşkil edən təchizat sektorunda artım digər sektorların hesabına baş verib.

Qeyri-neft və qaz emalı sənayesində ərzaq məhsulları sektorunda (7,7%), metallurgiya sənayesində (15,6%) və kimya sektorunda artım müşahidə olunub. Bu artım mal (4,9%) və tikinti materialları istehsalının (12,6%) artması ilə əlaqələndirilə bilər.




**Şəkil 3. Qeyri neft-qaz sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyaların strukturu, %**
**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 2022

2022-ci ilin yanvar-dekabr aylarında qeyri-neft-qaz sənayesinə yönəldilən vəsait 13,6% artıb. Bu, tikinti sektorunda yaranan əlavə dəyərə müsbət təsir göstərib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 13,4% artmışdır.




**Şəkil 4. Ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə yaradılmış əlavə dəyər və artım tempinin dinamikası**

**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 2022




**Şəkil 5.Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu, %**

**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 2022

2022-ci ilin yanvar-dekabr aylarında nəqliyyat və anbar sektorunda istehsal olunmuş əlavə dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 23,2 faiz artaraq 8041,9 milyon manata çatıb.

Yük və sərnişin daşınması 2021-ci ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 12,8% və 33,5% artıb.




**Şəkil 6.Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə yaradılmış əlavə dəyər və artım tempinin dinamikası**
**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 2022

2021-ci ildən başlayaraq cari ilin yanvar-dekabr aylarında pandemiya ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorlarında yaranan dəyərə müsbət təsir göstərib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 58,2 faiz əhəmiyyətli artım baş vermiş, nəticədə ümumilikdə 2115,2 milyon manat vəsait əldə edilmişdir. 2022-ci ilin yanvar-sentyabr aylarında daxili turist ekskursiyalarının sayında əvvəlki illə müqayisədə 33,3% artım olub, ümumilikdə 13 767,6 min səfər təşkil edib.




**Şəkil 7. İnformasiya və rabitə üzrə yaradılmış əlavə dəyər və artım tempinin dinamikası**
**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 2022

Pandemiya fonunda informasiya-kommunikasiya texnologiyalarından istifadəyə ehtiyac artıb. Bu texnologiyaların tətbiqinin 2022-ci ilin yanvar-dekabr ayları ərzində 14,8% artım tempi ilə genişlənərək onun sabitliyini təmin edəcəyi proqnozlaşdırılır. Sektor üzrə əldə edilmiş gəlirin 82,4 faizi qeyri-dövlət sektoruna yönəldilib.

**№ 1/2024** **səh.70-78**

**Nəticə.**İnvestisya iqtisadiyyatlar üçün olduqca önəmlidir. Hər bir ölkə üçün investisiya fəaliyyətinin tənzimlənməsi siyasətinin formalaşdırılması mahiyyətcə fərqli lakin məqsəd olaraq eynidir. Azərbaycan Respublikasında da investisiyanın qeyri-neft sektoruna yönəldilməsi son illərdə aktual mövzü olaraq qalmaqdadır. Bu fəaliyyəti həm dövlət proqramlarından həmçinin, sərəncam və bu kimi fəaliyyətlərin həyata keçirilməsindən görə bilərik. Respublikada neft sektoruna yönələn investisya yaxşı səviyydə olduğunu qeyd edə bilərik. Lakin, digər sektorlar da bu vəziyyət yüksək səviyyədə deyildir. Yuxarıda dövlət tərəfindən aparılan siyasət və işlər haqqında geniş şəkildə məlumatlar təqdim edilmişdir.

## ƏDƏBİYYAT

1. Aliyev, K., & Gasimov, I. (2018). Retrospective of economic and trade policies focused on agricultural development: case of Azerbaijan. In Establishing Food Security and Alternatives to International Trade in Emerging Economies (pp. 177-195).
2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. (n.d.). Azərbaycan Respublikasına birbaşa xarici investisiyalar: Prioritet sahələr, institusional çərçivə və investisiya mühiti. URL:https://economy.gov.az/storage/files/files/3734/Cg9YgsJ3TEEvM3WeKHV5LvzmVSMskAXC1Br4ErKQ.pdf
3. Babayev, B. (2019). Studying the Case Of The UAE in Economic Diversification and NonOil Export Growth: Public Policy Lessons For Azerbaijan. Journal of Economic Sciences: Theory & Practice, 76(2).
4. Babayev, B., & Hajiyev, N. (2019). Building An Innovation Ecosystem In Azerbaijan-On The Basis Of The Study Of Israeli Practice. Economic and Social Development: Book of Proceedings, 312-319.
5. Babayev, B., & Huseynov, P. (2021). Analysıs of the ımpact of azerbaıjan's oıl strategy on the development of non-oıl sectors. *Economic and Social Development: Book of Proceedings*, 109-114.
6. Böyükkişi, N. (2018). QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFININ DÖVLƏT TƏRƏFİNDƏN STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ. *AZERBAIJAN UNIVERSITY*, 42.
7. International Monetary Fund (IMF). (2020). World Economic Outlook, October 2020: A Long and Difficult Ascent.
8. Organisation for Economic Co-operation and Development (OECD). (2019). Education at a Glance 2019: OECD Indicators.
9. Strategic Roadmap for Consumer Goods SME Development in the Republic of Azerbaijan (2016) https://mida.gov.az/documents/Ki%C3%A7ik_v%C9%99_orta_sahibkarl%C4%B1q_s%C9%99viyy%C9%99sind%C9%99_istehlak_mallar%C4%B1n%C4%B1n_istehsal%C4%B1na_dair.pdf.
10. United Nations Conference on Trade and Development (UNCTAD). (2021). World Investment Report 2021.
11. United Nations. (2015). Transforming our world: the 2030 Agenda for Sustainable Development.
12. World Bank Group. (2019). World Development Report 2019: The Changing Nature of Work.
13. World Bank. (2018). The Changing Wealth of Nations 2018: Building a Sustainable Future.
14. Víg, Z. (2018). The importance of foreign direct investments and instruments for their protection. *Hungarian Journal of Legal Studies*, *59*(4), 443-452.

№ 1/2024 səh.70-78

UDC 330.341.4

**Prospects of the non-oil sector as a priority direction of foreign investment transfers: the example of Azerbaijan**

**Taghiyev A. A.**

**Summary.**The non-oil sector in Azerbaijan has separated from the traditional oil-centered economy and has become the main focus for foreign investments. This article examines the prospects of attracting foreign investments in the non-oil sector, and emphasizes its importance in diversifying the economy of Azerbaijan. By analyzing key trends and strategies, this study clarifies the potential of non-oil industries such as tourism, agriculture and technology to enhance economic growth and sustainability. Through empirical evidence and case studies, he emphasizes the importance of Azerbaijan prioritizing the development of the non-oil sector in its foreign investment initiatives.

**Keywords:** Foreign investment, priority direction, non-oil sector, sustainable economy, competitive direction

УДК 330.341.4

**Перспективы ненефтяного сектора как приоритетного направления иностранных инвестиций: пример Азербайджана**

**Тагиев А.А.**

**Резюме.**Ненефтяной сектор Азербайджана отделился от традиционной нефтеориентированной экономики и стал основным направлением для иностранных инвестиций. В данной статье рассматриваются перспективы привлечения иностранных инвестиций в ненефтяной сектор и подчеркивается их важность в диверсификации экономики Азербайджана. Анализируя ключевые тенденции и стратегии, это исследование проясняет потенциал ненефтяных отраслей, таких как туризм, сельское хозяйство и технологии, для повышения экономического роста и устойчивости. Посредством эмпирических данных и тематических исследований мы подчеркнем важность того, чтобы Азербайджан уделял приоритетное внимание развитию ненефтяного сектора в своих иностранных инвестиционных инициативах.

**Ключевые слова:** Иностранные инвестиции, приоритетное направление, ненефтяной сектор, устойчивая экономика, конкурентоспособное направление.

Redaksiyaya daxilolma: 11.03.2024
Çapa qəbul olunma: 27.03.2024

№ 1/2024 səh.79-83

UOT 339.5
DOI: 10.30546/JIECM.2024.1.078.

# İXRACIN GENİŞLƏNDİRİLMƏSİNİN QEYRİ-NEFT İQTİSADİYYATININ İNKİŞAFINDA ROLU

**Nərmin Etibar qızı Həsənova**

**Gəncə Dövlət Universiteti**

**narmin.hasanova.v@gmail.com**

***Xülasə:***_Ölkələrin beynəlxalq iqtisadiyyatda öz yerini möhkəmlətməsi və dünya inteqrasiya proseslərində iştirakı, bilavasitə xarici ticarətlə bağlıdır. İxrac, elm tutumlu istehsalı, istehsal resurslarından səmərəli istifadəni, innovasiyaların istehsalata tətbiqinin genişləndirilməsini təşviq etməklə iqtisadiyyatın, o cümlədən qeyri-neft sahələrinin inkişafında əsaslı rol oynayır. Bu onu göstərir ki, qlobal əmtəə bazarlarında səmərəli ixrac siyasətinin həyata keçirməsi ölkənin beynəl-xalq iqtisadi sistemdə dayanıqlığınının və beynəlxalq rəqabət qabiliyyətinin əsas amili kimi çıxış edir._

***Açar sözlər:*** _ixrac, qeyri-neft iqtisadiyyatı, resurs, inteqrasiya, xarici ticarət, bazar._

**Giriş.**İstənilən ölkə üçün xarici ticarət, iqtisadiyyatın inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu onunla bağlıdır ki, ölkələrin xarici bazara çıxması, beynəlxalq iqtisadiyyatda öz yerini möhkəmlətməsi və dünya inteqrasiya proseslərində iştirakı iqtisadi fəaliyyət sahələrinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu kontekstdə xüsusilə qeyri-neft sektorunda xarici ticarət, xarici iqtisadi kompleksin tərkib hissəsi olmaqla, ölkə iqtisadiyyatının formalaşması və sabitləşməsinə töhfə verən prioritet sahələrdən hesab olunur. Eyni zamanda, ölkənin xarici ticarətinin inkişafı bilavasitə dövlət orqanları tərəfindən idarəetmə qərarlarının qəbul edilməsinin səmərəliliyindən asılıdır. Azərbaycan Respublikası iqtisasdiyyatında da qeyri-neft sektorunun ixrac fəaliyyətinin artırılması diqqət mərkəzindədir. Qəbul edilən çoxillik dövlət proqramlarında, inkişaf strategiyalarında ixracda qeyri-neft sektorunun inkişafı məsələlərinə xüsusi diqqət yetirilir.

**Mövzunun aktuallığı:** Müasir dövrdə, qlobal miqyasda dünya ölkələrinin başlıca məqsədi ixrac səviyyəsini qaldırmaqla ölkə iqtisadiyyatını möhkəmlətmək, iqtisadi asılılığı aradan qaldırmağa nail olmaq və ixrac hesabına öz iqtisadi güclərini artırmaqdır. İxracın inkişaf etməsi ölkə miqyasında qeyri-neft sektorunun canlanmasına və nəticə etibarilə ölkə iqtisadiyyatının çoxşaxəli inkişafına şərait yaratmaqdadır. Bu, qeyri-neft sektounun canlanması, ərzaq təhlükəsizliyi məslələrinin həlli, idxalın azaldılması və s. kimi məslələri özündə birləşdirir. Bu aspektdən yanaşdıqda ixracın inkişafının qeyri-neft sektorunun inkişafındakı rolu olduqca əsas-lıdır. Bu, dövlətin iqtisadi siyasətində də başlıca meyarlardan biridir.

**Tədqiqatın məqsədi:** Tədqiqatın məqsədi ölkə iqtisadiyyatında ixracın mövcud vəziyyəti və genişləndirilməsi şəraitində qeyri-neft sektorununun inkişafını müəyyən etmək, ixracyönümlü qeyri-neft məhsullarının inkişaf tempini, ixracın istiqamətlərini müəyyənləşdirməkdir.

**Tədqiqatın obyekti:** Tədqiqatın obyektinin əsasını yerli və xarici iqtisadçı-alimlərin bu sahədə apardıqları tədqiqatlar, Azərbaycan Respublikasının Prezidentinin Fərman və sərəncamları, Dövlət Statistika Komitəsinin materialları təşkil edir.

**Tədqiqatın metodları:** Tədqiqatı həyata keçirərkən sistemli yanaşma, analiz, sintez, iqtisadi-riyazi metodlardan istifadə olunmuşdur.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Qeyri-neft sektorunda xarici ticarətin milli iqtisadiyyatın fəaliyyətində rolundan danışarkən qeyd etmək lazımdır ki, o, istənilən dövlətin iqtisadi inkişafının mühüm amildir. Xarici ticarət beynəlxalq əmək

bölgüsünə əsaslanmaqla müəyyən əmtəə qruplarının istehsalı üzrə ölkələrin ixtisaslaşmasına kömək edir və bununla da müxtəlif dövlətlər arasında iqtisadi əlaqələri möhkəmləndirir [3, s.13]. Xarici ticarət qeyri-neft sahələrinin aşağıdakı problemlərinin həllində bilavasitə iştirak edir:

-istehsal fəaliyyətinin bütün sahələrində resursların istifadəyə cəlb edilməsi funksiyalarını yerinə yetirir;

-iqtisadi geriliyi aradan qaldırmağa kömək edir;

- rəqabətqabiliyyətli qeyri-neft məhsullarının ixracı zərurətini nəzərə alaraq istehsalın müasir strukturunun yaradılmasına töhfə verir;

-məhsuldar qüvvələrin inkişafı hesabına əhalinin həyat səviyyəsinin yüksəlməsinə töhfə verir;

- xarici ticarət kanalları vasitəsilə təbii ehtiyatlardan səmərəli istifadəni təşviq edir;

- idxal və ixrac vasitəsilə çatışmayan ehtiyatların toplanması imkanları hesabına təkrar istehsal prosesinin normallaşmasına töhfə verir [2, s.37];

-dövlətlər arasında qabaqcıl texnologiyaların mübadiləsini və müvafiq olaraq iqtisadiyyatın sahələrinin inkişafını təmin edən xarici ticarət kanallarının artmasına kömək edir;

-konkret məhsulun istehsalında mütləq və nisbi üstünlüklərə görə xarici bazarlarda əlavə dəyər hesabına əlavə mənfəət mənbəyi kimi çıxış edir;

- investisiya fəaliyyətinin rolunu və müvafiq olaraq mümkün gəlirləri artırır;

-valyuta məzənnələrinə təsir vasitəsilə xarici bazarlarda reallaşdırılan milli gəlirin ölkələr arasında yenidən bölüşdürülməsi prosesinə təsir göstərir və s.

Buna əsaslanaraq, xarici ticarət ölkələrin iqtisadiyyatının qlobal təkrar istehsal prosesinə və beynəlxalq ticarət əlaqələri mexanizminə daxil edilməsinin əsas amillərindən biri kimi çıxış etdiyi qənaətinə gəlmək olar. Beləliklə, xarici ticarət istehsalın ixtisaslaşması və təmərküzləşməsinin genişlənməsi və dünya təsərrüfat sisteminə inteqrasiyası yolu ilə bütövlükdə ölkənin iqtisadi inkişafına töhfə verir.

İxrac, xarici ticarət siyasətinin prioritetlərindən biridir. Qeyri-neft sektorunda ixracın genişləndirilməsinin iqtisadi artıma təsiri özünü aşağıdakı istiqamətlərdə biruzə verir:

- qlobal əmtəə bazarlarında səmərəli ixrac siyasətinin həyata keçirməsi ölkənin uzun müddət dünyanın əsas ixracatçılarından biri kimi qalmasının, eləcə də dövlətin beynəlxalq rəqabət qabiliyyətinin əsas amilidir;

- dünya bazarında rəqabətqabiliyyətli mövqeyin möhkəmlənməsi üçün ixrac sektoru elm və texnikanın nailiyyətlərinin istehsalatda istifadəsini genişləndirmək baxımından təşviqedici rola malikdir [5, 85];

- ixracın genişləndiyi şəraitdə qabaqcıl ölkələrin istehsalçıları ilə rəqabət aparmaq üçün ixracatçılar yeni idarəetmə üsullarını tətbiq etməyə, yüksək keyfiyyət standartlarına cavab verməyə maraqdırlar;

- ixracın artımı məşğulluq səviyyəsinin və əmək məhsuldarlığının yüksəlməsinə səbəb olur;

- ixracın artması, xüsusilə daxili tələbatın azaldığı dövrlərdə istehsalı dəstəkləməklə resurs potensialından istifadənin səmərəliliyini artırır;

- ixrac ölkənin beynəlxalq əmək bölgüsü sisteminə daxil edilməsi nəticəsində istehsalın miqyasının artması ilə əlaqədar xərclərin azaldılmasına nail olmağa imkan verir [4, s.61];

- yerli malların ixracının genişlənməsi ölkənin bütün təsərrüfat kompleksində məhdud resursların daha səmərəli bölgüsünə, eləcə də istehsal potensialının daha məqsədəuyğun istifadəsinə şərait yaradır;

- ixrac, istehsalın ixtisaslaşması potensialını aktivləşdirməyə imkan verir;

- ixracın inkişafı birbaşa xarici investisiyaları artırır və s.

Qeyd edilənlərdən aydın olur ki, qeyri-neft iqtisadiyyatının ixracyönümlü sektorlarının uğurlu inkişafı ixracdan əldə edilən gəlirlərin texnoloji cəhətdən daha inkişaf etmiş sahələrə yönəldilməsinə imkan verir. İxracın iqtisadi inkişafa müsbət təsirləri dünyanın bir çox ölkələrini ixracyönümlü siyasətə yönəlməsinə gətirib çıxarır. Beləliklə, ixrac yönümlü siyasət həm daxili, həm də qlobal bazarda rəqabətqabiliyyətli olmaq potensialına malik mövcud və yeni istehsal sahələrinin yaradılmasına yönəlmiş siyasət kimi özünü göstərir. Bu baxımdan araşdırmalar göstərir ki, iqtisadiyyatın qeyri-neft bölməsində,

№ 1/2024 səh.79-83

2020-ci il istisna olmaqla (2,9% azalma) digər illərdə ixracda artım baş vermişdir. 2017-ci ildə ixracın həcmi 24,5%, 2018-ci ildə 11,6%, 2019-cu ildə 13,9%, 2021-ci ildə 38,4% yüksəlmişdir [7].

Onu qeyd etmək lazımdır ki, qeyri-neft iqtisadiyyatı olduqca geniş, çoxşaxəli bir sahədir. Buraya həm ənənəvi məhsullar həm də yeni, innovativ, yüksək texnologiyalı məhsullar aid edilir. Ölkədə aparılan iqtisadi islahatlarda əsas məqsədlərdən biri bu məhsulların ixracdakı payını artırmaqdır. Çünki, dövrün tələbinə uyğun olaraq bazarda qalmaq, rəqabətə davam gətirmək, iqtisadiyyatı daha da inkişaf etdirmək üçün yeni sahələrin, innovativ məhsulların istehsalı və ixracını artırmaq lazım gəlir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişafı Strategiyası" haqqında Sərəncamında da qeyri-neft sahəsinə xüsusi yer verilmişdir. 2026-ci ilədək qeyri-neft/qaz sahəsinin ÜDM- də payının 5 faiz artacağı proqnozlaşdırılır. Bu sərəncama əsasən 2026-cı ilədək ümumən qeyri-neft sahəsinin ixrac həcminin isə 85 faiz artırılmasına nail olunacaqdır. Bu isə ölkə iqtisadiyyatının inkişafına, ixracyönümlü dəyər zəncirinin qurulmasına şərait yaradacaqdır. [1].

Son dövrlərdə xüsusilə yaşıl enerjinin istehsalı həyata keçirmək, ixracını artırmaq dövlətin iqtisadi siyasətində xüsusi yer tutur. 2030- cu ilədək elektrik enerjisi ilə özünütəminatın 30 faizə çatdırılması qarşıya hədəf kimi qoyulmuşdur. Hazırda bu göstərici 17 faizdir. Azərbaycanda bu sahənin inkişafı üçün xeyli addımlar atılmış, xarici şirkətlərlə əməkdaşlıqlar həyata keçirilmişdir. Azərbaycanda yaşıl enerji mənbələrinin inkişafı üçün əlverişli təbii-coğrafi mühitin olması bu sahənin istehsalı və ixracına əlverişli şərait yaradır. Yaşıl enerjinin ixracının həyata keçirilməsi üçün dövlət tərəfindən xüsusi imkanların həyata keçirilməsi, Xəzərdə meqa istehsal güclərinin yaradılması, " Xəzər-Qara dəniz – Avropa Yaşıl Enerji Dəhlizi"nin yaradılması və s. qarşıya məqsəd qoyulmuşdur. Bu layihələrin həyata keçirilməsi ilə Azərbaycan dünya ölkələrinə xüsusilə Avropa, Mərkəzi Asiya regionlarına yaşıl enerji ixrac edəcəkdir. [8].

İxracın genişləndirilməsi dövlətin iqtisadi siyasətində mühüm yer tutur. Belə ki, ixracın genişləndirilməsi, keyfiyyətli qeyri-neft məhsullarının xarici bazarlara çıxarılması, idxalın azaldılması və yerini ixracın tutması ölkənin iqtisadi inkişafı üçün çox əhəmiyyətlidir. Bunun üçün dövlət ixracı genişləndirmək məqsədi ilə bir çox dövlət proqramları qəbul etmişdir. İxracın genişləndirilməsi üçün dövlət ixracın təşviqi siyasətini həyata keçirir. Xüsusilə qeyri-neft sahəsi ilə məşğul olan subyektlər üçün ixracın təşviqinə uyğun olaraq "Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi qaydası" qəbul olunmuşdur. Bu qayda məhsullarını dünya bazarına çıxarmaq istəyən yerli istehsalçılar üçün olduqca əlverişli şəraitin yaradılmasını təmin edir. Dövlətin ixrac sahəsindəki dəstəyini daha da asrtıraraq ixrac fəaliyyətini genişləndirməyə nail olması mümkündür. Qeyd edilənlərdən əlavə ixracı genişləndirməyin ən əsas yolu logistika şəbəkəsini inkişaf etdirmək və məhsulların xarici bazara çıxarılmasında yükdaşıma xidmətlərini minimuma endirmək bu sahənin inkişafına, genişlənməsinə çox əhəmiyyətli təsir edə bilər. Qeyd edilənlərdən əlavə xarici ticarət nümayəndəliklərinin fəaliyyətinin həyata keçirilməsi, ölkə məhsullarınınm xarici sərgilərdə nümayiş etdirilməsi, ixrac sahəsindəki qanunverici aktların daha da asanlaşması və s. tədbirlər ixracı genişləndirməyə şərait yarada bilər. İxracın genişlənməsi isə öz növbəsində ixracın strukturunun zənginləşməsinə, qeyri-neft məhsullarının ixracdakı payının artmasına, rəqabətə davam gətirmək üçün keyfiyyətin təkmilləşdirilməsinə şərait yaradacaqdır.

Araşdırmalara əsaslanaraq ixracın ölkə iqtisadiyyatına müsbət təsir göstərməsi üçün onun şaxələndirilməsinin, ixracdan əldə olunan gəlirlərin daha çox elm tutumlu sahələrin inkişafına yönəldilməsinin vacibliyini qeyd etmək olar. Məlumdur ki, qeyri-neft sektorunda elm tutumlu məhsulların ixracı ölkə iqtisadiyyatına daha əhəmiyyətli təsir göstərir. Həmçinin məhsulların keyfiyyətinə yüksək tələblər baxımından, texnologiyaların inkişafına təkan verən ölkələrlə ticarət əlaqələrinin genişləndirilməsinə diqqət yetirməklə ixracın coğrafi diversifikasiyasına ehtiyac duyulduğu qənaətinə gəlmək olar. Çünki ixracın coğrafi strukturunda bir idxalçı ölkənin üstünlük təşkil etməsi məhdud əmtəə çeşidinin ixracına gətirib çıxara bilər. Bu isə müəyyən problemlərin yaranması ilə nəticələnə bilənə bilər.

## Nəticə

Qeyd edilənləri ümumiləşdirərək aşağıdakı nəticələri qeyd edə bilərik ki, qeyri-neft sektorunda yüksək

texnoloji məhsulların ixracı ölkə iqtisadiyyatına faydalı təsir göstərir, onun artımının aparıcı qüvvəsinə çevrilir. Bunu nəzərə alaraq ixrac olunan qeyri-neft məhsulları içərisində texnoloji yenilikləri artırmaq, daha yüksək elmtutumlu, innovativ, keyfiyyət rəqabətinə davam gətirən, "Made in Azərbaijan" brendini dünya bazarında ən yaxşı şəkildə təmsil edə biləcək məhsulların istehsalını və ixracını artırmaq vacib məsələlər sırasındadır. Xammal ixracından hazır məhsul ixracına keçidi təmin etməklə uzunmüddətli perspektivdə ixrac gəlirlərinin artmasını təmin edir. İxrac olunan məhsulların strukturunda hazır məhsulların xüsusi çəkisinin artması həm daxili bazarın inkişaf edərək idaxl olunan xarici məhsullardan asılılığın azalmasına, həm də dünya iqtisadiyyatında daha da möhkəmlənərək hazır məhsul ixracını artırmaqla ölkəyə davamlı şəkildə xarici valyuta axınını yaratmağa nail olur.

**Tədqiqatın elmi yeniliyi:** Aparılan tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- İxracyönümlü qeyri-neft iqtisadiyyatının inkişaf etməsi ilə bağlı nəzəri baxışlar təhlil edilmiş və müvafiq ümumiləşdirmələr aparılmışdır;
- Qeyri-neft iqtisadiyyatının səmərəliliyinin artırılmasında ixracın rolu və sahənin inkişafına göstərdiyi təsir müəyyən edilmişdir;
- Qeyri-neft sahəsinin mahiyyəti dəqiqləşmiş və onun təkmilləşdirilməsi istiqamətləri əsaslandırılmışdır;
- Bu sahədəki çatışmazlıqlar müəyyənləşdirilmiş və aradan qaldırılması üçün müəyyəm təkliflər hazırlanmışdır.
- İxrac potensilının artırılması istiqamətləri tədqiq edilmişdir və s.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Tədqiqat işinin tətbiqi əhəmiyyəti ixrac fəaliyyətinin qeyri-neft sektorundakı rolunu müəyyən etməklə, bu sahənin daha da inkişaf etməsinə şərait yaratmaqdır.

**Tədqiqat işinin iqtisadi səmərəsi:** İxracın genişləndirilməsinin qeyri-neft sektorunun inkişafında rolunu müəyyən etməklə bu sahəni daha da inkişaf etdirmək, nəticədə ixracı artırmaqla daxili bazarın daha da güclənməsinə, rəqabətədavamlı, innovativ məhsulların ixracına şərait yaratmaqda ölkəyə xarici valyuta axınının daxil olmasına və nəticə etibarilə ölkə iqtisadiyyatının daha da güclənməsinə və şəxalənməinə şərait yaratmaqdadır.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişafı Strategiyası" haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı
2. Gənciyev G.Ə. İxrac ehtiyatlarından istifadənin yaxşılaşdırılması istiqamətləri / G.Ə.Gənciyev – Bakı: "Kooperasiya"- 2003.- 128 s.
3. Алексеева, Т.А. Современная политическая мысль (XX-XXI вв.): Политическая теория и международные отношения / Т.А. Алексеева. - М.: Аспект-Пресс, 2016. - 623 с.
4. Боклан, Д.С. Международное экологическое право и международные экономические отношения: Монография / Д.С. Боклан. - М.: Магистр, 2017. - 448 с.
5. Осташко Т.А. Экспорт агропродовольственных товаров в ЕС: перспективы и задачи. Экономика и прогнозирование. 2016. № 1. С. 83-94.
6. Ramil Huseyn, Vusal Gasimli, Rashad Huseynov. What advantages arise from the shift towards sustainable energy sources in resource-rich economies? Empiricial insights from Azerbaijan. İnternational journal of energy economics and policy, Vol.14 №1, 2024. 6-11.
7. www.stat.gov.az
8. https://report.az/energetika/ekspert-yasil-enerji-nin-ixraci-azerbaycanin-enerji-strategiyasinda-yeni-eranin-baslangici-olacaq/

**№ 1/2024** **səh.79-83**

**UDC 339.5**

**The role of export expansion in the development of the non – oil economy**

**Hasanova N. E.**

**Summary.**Consolidation of countries in the international economy and participation in world integration processes is directly related to foreign trade. It plays a fundamental role in the development of the economy, including non-oil sectors, by promoting export, science- intensive production, the efficient use of production resources, and the expansion of the application of innovations to production. This shows that the implementation of effective export policy in the global commodity markets acts as the main factor of the country's stability and international competitiveness in the international economic system.

**Keywords**: export, non-oil economy, resource, integration, foreign trade, market.

**УДК 339.5**

**Роль экспортной экспансии в развитии ненефтяной экономики**

**Гасанова Н. Э.**

**Резюме.**Краткое содержание консолидация стран в международной экономике и участие в мировых интеграционных процессах напрямую связана с внешней торговлей. Оно играет основополагающую роль в развитии экономики, в том числе ненефтяных отраслей, путем стимулирования экспорта, наукоемкого производства, эффективного использования производственных ресурсов, расширения применения инноваций в производстве. Это показывает, что реализация эффективной экспортной политики на мировых товарных рынках выступает основным фактором стабильности и международной конкурентоспособности страны в международной экономической системе.

**Ключевые слова**: экспорт, ненефтяная экономика, ресурс, интеграция, внешняя торговля, рынок.

Redaksiyaya daxilolma: 10.01.2024
Çapa qəbul olunma: 27.03.2024

№ 1/2024 səh.84-91

UOT: 334.7
DOI: 10.30546/JIECM.2024.1.083.

# BİZNES MODELLƏRİNİN RƏQƏMSAL TRANSFORMASİYASI: TƏSİREDİCİ FAKTORLAR VƏ ƏSAS TENDENSİYALAR

**Məhəmməd Elnur oğlu Mustafayev**

**Odlar Yurdu Universiteti**

Mehemmed99986@gmail.com

***Xülasə.****Biznes proseslərinin rəqəmsal transformasiyası prosesi məhz təşkilatların bütün səviyyələrində ənənəvi, daha doğrusu, analoq fəaliyyət metodlarının istifadəsindən – rəqəmsal texnologiyaların və alətlərin tətbiqinə keçid etmək deməkdir. Bu, fəaliyyətin effektivliyini və onun keyfiyyətini yüksəltməyə, əməliyyatlara çəkilən müvafiq xərcləri aşağı salmağa, reallaşdırılan proseslərin icra sürətini artırmağa və biznes iştirakçıları ilə müştərilərin arasındakı qarşılıqlı kommunikasiya və əlaqəni yaxşılaşdırmağa imkan formalaşdırır. Biznes modellərinin rəqəmsal transformasiyasına nail olunmasından ötrü Əşyaların İnterneti (IoT), süni intellekt, blokçeyn, habelə verilənlərin analitikası kimi olduqca yeni və aktual texnologiyalardan istifadə edilməkdədir. Bununla yanaşı, biznes modellərinin rəqəmsal transformasiyası yalnızca texnoloji dəyişikliklər ilə məhdudlaşmır, belə ki o, həm də idarəetməyə, biznes proseslərinin təşkilatçılığına və müəssisənin müştəriləri ilə olan qarşılıqlı əlaqələrinə mövcud yanaşmaların dəyişdirilməsini də əhatə edir.*

*Məqalədə biznes modellərinin rəqəmsal transformasiya tendensiyalarına toxunulmuşdur. Məqalənin əsas məqsədi biznes proseslərinin rəqəmsal transformasiyasının əhəmiyyətini araşdırmaq və bu prosesi tətikləyən əsas faktorları araşdırmaqdır. Bu məqsədlə növbəti vəzifələr irəli sürülərək yerinə yetirilmişdir: biznes modeli konsepsiyasının tədqiqi; biznes modellərinin transformasiyası zərurətinin öyrənilməsi; rəqəmsal transformasiya tendensiyalarının araşdırılması; biznes modellərinin çevikliyinin əsas faktorlarının nəzərdən keçirilməsi. Məqalə mövzusu son dövrlərdə aktual olan məsələləri əhatə edir. Məqalədə cavab verilən əsas tədqiqat sual növbətidir: "Təşkilatlar rəqəmsallaşma tendensiyalarına necə reaksiya verməlidirlər?" Tədqiqatda sistemləşdirmə, ümumiləşdirmə, induksiya və statistik təhlil metodlarından istifadə edilmişdir. Məqalə həm rəqəmsallaşmaya dair tədqiqatlar həyata keçirən müəlliflər üçün resurs rolunu oynaya bilər və həm də müəssisədə biznes modelinin rəqəmsal transformasiyasını həyata keçirməyə çalışan menecerlər tərəfindən istifadə oluna bilər.*

***Açar sözlər:*** *rəqəmsallaşma, rəqəmsal tendensiyalar, biznes modelləri, biznesin rəqəmsallaşması, rəqəmsal modellər.*

**Giriş.**Bir elmi konsepsiya kimi biznes modelləri məhsul və ya xidmətin arxitekturasını və müxtəlif biznes qurumlarının və onların rollarının təsviri daxil olmaqla informasiya axınlarını təşkil edir. Biznes modelləri məhz gəlir mənbələrinin təsviri ilə yanaşı müxtəlif sahibkarlıq subyektləri üçün potensial faydaları ilə seçilməkdədir. Ümumiyyətlə, biznes modeli formalaşdırarkən məhz növbəti əsas suallara cavab verməlidir [1]:

- Bu model çərçivəsində hansı dəyər təklifi irəli sürülür?;
- Bu biznesin müştəriləri kimlər olacaq?;
- Bu biznesin fəaliyyətində əməliyyatlar necə işləyəcək?;
- Biznes modelinin qurulması sahibkarlıq fəaliyyətinə maliyyə yönündən hansı faydalar gətirəcək?.

Müasir dövrdə rəqəmsal texnologiyalardan istifadə zərurəti getdikcə daha çox aktuallaşır. Rəqəmsal texnologiyalar biznes fəaliyyətinə daha aktiv bir şəkildə nüfuz edir və firmalar yeni test edilərək ictimaiyyətə təqdim edilən texnologiyaların tərəqqisinə investisiyalar yatırırlar.

Robototexnika, əşyaların interneti, bundan başqa, biznes analitikası, habelə bulud hesablamaları, həmçinin, virtual pullar – bütün bunlar modern inkişafın aparıcı innovativ alətləri rolunda çıxış etməklə hər gün daha çox populyarlaşırlar. Məhz sadalanan bütün bu innovasiyaların hesabına milli iqtisadiyyatın demək olar ki, bütün sahələrində köklü dəyişikliklər baş verdi və baş verməyə davam edir [2, s.330-331].

Təqribən son 10 ildə iqtisadiyyatın rəqəmsallaşması tendensiyası elə bir səviyyəyə gəlib çatıb ki, biznes fəaliyyətinin həyata keçirilməsi forması və metodları demək olar bütünlüklə dəyişikliyə uğrayıb. Cari şirkətlərin biznes proseslərinin əhəmiyyətli hissəsinin elektron müstəviyə keçid etməsi ənənəvi biznes modellərinin transformasiya olunmasına əhəmiyyətli dərəcədə təsir etmiş, biznesin reallaşdırılmasının yeni formalarına, eləcə də biznes subyektlərinə yeni imkanların və yeni risklərin ortaya çıxmasına səbəb olmuşdur. Rəqəmsal biznes transformasiyasının tendensiyaları demək olar ki, bütün sənaye sahələrində müşahidə etmək mümkündür; bu, müsbətlə yanaşı, həm də mənfi inkişaf faktorlarına malik olan bir çox sektora aiddir [3].

**Rəqəmsal biznes modellərinin inkişafı amilləri.**Biznes modellərinin rəqəmsallaşdırılması və həmçinin rəqəmsal biznes modelləri modern iqtisadiyyatın əhəmiyyətli komponentləri sayılır. Biznes modellərinin rəqəmsallaşdırılması mövcud cari biznes modelinin günün tendensiyalarına uyğun dəyişdirilməsi, habelə biznes əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi və yeni gəlir mənbələrinin formalaşdırılması məqsədi ilə rəqəmsal texnologiyalardan istifadəyə əsaslanır. Buraya avtomatlaşdırma sistemlərinin, verilənlər analitikasının və müştərilər və tərəfdaşlarla qarşılıqlı əlaqə üçün onlayn platformaların tətbiqi daxil edilir. Rəqəmsal biznes modellərinin əsas prioritetləri sırasında çevikliyi, miqyaslılığı, çevik innovasiyalar edə bilməyi və həmçinin müştərilərlə birbaşa əlaqə qurmaqla daha səmərəli kommunikasiya yaratmaq imkanını sadalamaq olar. Rəqəmsal biznes modelləri məhz beş əsas elementə əsaslanan funksional görünüş üzərində qurulmalıdır ki, bunlar da aşağıdakılardır [4]:

- insanlar (istifadəçilər);
- biznes (biznes ekosistemini formalaşdıran rəqəmsal müəssisələrdən istifadə edən xidmətlərin əhatə dairəsi);
- əşyalar (rəqəmsal əşyalar);
- verilənlər;
- bulud hesablamaları.

Rəqəmsal biznes modelləri idarəetmə proseslərinə yanaşmada inqilab etməkdədir. Artıq ənənəvi dəyər zənciri fərziyyələrinə əsaslanan cari biznes formulları innovativ texnologiyaların formalaşması fonunda öz aktuallıqlarını itirirlər. Rəqəmsal inqilab biznes modellərini daha da dinamik bir şəkildə təkmilləşdirir. Rəqəmsal iqtisadiyyatın potensialının dərk edilməsi iqtisadi və sosial dəyər yaratmaq üçün imkanlar ortaya qoyur. Qlobal bazarda işləmək üçün bu cür formullar biznes modellərinin qurulmasına "köhnə" yanaşmadan əhəmiyyətli dərəcədə fərqlənir. Hal-hazırda, maraqlı tərəflər üçün cəlbedici dəyər yaratmaq lazımdır - əksər hallarda sosial xarakterli və buna görə də iqtisadi fayda. Bu baxımdan simbiotik yanaşma mümkündür. Bununla belə, aydınlaşdırmaq lazımdır ki, pul qazanmaq istənilən biznes modelinin açıq tələbidir. Effektiv biznes modellərinin konfiqurasiyası müştərinin identifikasiyası, müştərinin əldə edilməsi, dəyər zənciri əlaqələri və obyektiv monetizasiya ilə bağlı məqsədlər ətrafında qruplaşdırıla bilən bir-birindən asılı fəaliyyətlər toplusunu əhatə etməlidir. Monetizasiya rəqəmsal biznes modellərinin inkişaf məqsədlərinə nail olmaq üçün zəruridir və dizayn edilmiş biznes modelinin əməliyyat məntiqinə daxil edilməlidir [4].

Biznes modellərinin çevikliyi biznes modeli performansının aşağıdakı iki əsas faktoruna əsaslanmalıdır [4]:

• biznes modelinə daxil edilmiş dəyər yaratma şəbəkəsinin iştirakçıları arasında münasibət rejimində qarşılıqlı əlaqənin dinamikası;

• yaradılmış dəyərin monetizasiyası üçün qəbul edilmiş sxemlə stimullaşdırılan dinamika.

Yeni biznes modellərinin meydana çıxması təsərrüfat subyektlərinə onların biznes fəaliyyətini reallaşdırmaları üçün fərqli üstünlüklər qazandırdı. Texnologiyalardan daha geniş bir miqyasda istifadə

№ 1/2024 səh.84-91

olunması biznes subyektləri üçün bazar rəqabətinə tab gətirməyi asanlaşdırmış və onların gəlirlərini əhəmiyyətli dərəcədə artırmışdır. Rəqəmsallaşmanın bir digər vacib özəlliyi ondan ibarətdir ki, biznes subyektləri üçün indi innovativ fəaliyyətlə məşğul olmaq və qarşıya qoyulmuş innovativ layihələr üzrə planların icrasını reallaşdırmaq daha əlçatan olub.

Bundan başqa, qeyd etməliyik ki, sosial şəbəkələrin populyarlaşması ilə şirkətlərin hədəflənmiş marketinq strategiyalarını həyata keçirmələri bir zərurət halını almış oldu. Bu tendensiya müəssisələrə daha böyük sayda potensial müştərilərə çatmağa və firmanın öz brendinin/məhsulunun əhatəliliyini genişləndirməyə şərait yaradır. Hazırki mərhələdə demək olar ki, əksər müəssisələr böyük verilənlər dəstlərini daha səmərəli idarəetmək məqsədi ilə bulud hesablama texnologiyasına keçid etməkdədirlər. Süni intellektin və onunla paralel olaraq digər informasiya texnologiyalarının tətbiqi ilə hazırda iqtisadi mühitin bütünlüklə dəyişdiyi bir tendensiya izlənilməkdədir.

Biznes modellərinin rəqəmsallaşdırılması prosesinin əsas məqsədləri aşağıdakılardan ibarətdir [5]:

- müəssisənin istehsal prosesi və həmçinin, digər proseslərinin avtomatlaşdırılması;
- məhsulun (yaxud da xidmətin) təkmilləşdirilməsi, həmin xidmət ya da məhsulun keyfiyyətinin, müştərilər üçün cəlbediciliyinin, istifadəsinin rahatlığınını, çatdırılması imkanlarının və sairə şərtlərinin yaxşılaşdırılması;
- daxili/xarici kommunikasiyanın sadələşdirilməsi.

Rəqəmsal transformasiya yalnızca bir irəliləyiş və ya texnologiya inkişafı deyildir. Rəqəmsal transformasiya dedikdə, müəssisələrdə korporativ dəyərlərin, işçilərin özünün, texnologiyaların və emal olunan müvafiq informasiyaların çevikliyinin artırlması başa düşülür. Biznes modellərinin rəqəmsal transformasiyası əsas parametrlərin (yəni, biznes modelinin komponentlərinin) adaptasiyası mərhələsi ilə başlayır. Rəqəmsal transformasiya biznes mühitində yeni imkanlar formalaşdırmaqla yanaşı, həm də ortaya yeni problemlər də çıxarır. Onlayn satışlar, böyük verilənlər, maşın öyrənməsi, süni intellekt (AI) və Əşyaların İnterneti (IoT) kimi bir-biri ilə əlaqəli tendensiyalar iqtisadiyyatda məhsuldarlığın əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb ola bilməkdədir. Ənənəvi biznes modellərinin, eləcə də həmin model əsasında fəaliyyət göstərən sferaların bazarlarının dağılması nəticəsində həm sahibkarlar bazarda rəqabətə davam gətirə bilmir və həm də işçi sinfinin nümayəndələri arasında kütləvi ixtisarlar baş verir. Rəqəmsallaşmanın gətirdiyi biznes modelindəki dəyişikliklərdən maksimum şəkildə müsbət yöndə faydalanmaq üçün düzgün siyasət tətbiq etmək və güclü bir planlaşdırma həyata keçirmək lazımdır [6].

**Elektron kommersiya rəqəmsal transformasiyanın nümunələrindən biri kimi.**Biznes proseslərinin rəqəmsal transformasiyasına populyar nümunə kimi biz elektron kommersiyanı qeyd edə bilərik. Elektron kommersiya – telekommunikasiya şəbəkələri vasitəsilə məhsulların istehsalı, onların reklam olunması, habelə satışı proseslərinin həyata keçirilməsi fəaliyyətidir. Başqa sözlə desək, elektron kommersiya – kompüter şəbəkəsi üzərindən mallardan (habelə xidmətlərdən) istifadə etmək və ya ona sahib olmaq hüququnun bir şəxsdən başqasına keçdiyi əməliyyatlar prosesidir. Elektron kommersiya və ya elektron ticarət məhz ənənəvi ticarət modelinin struktur blokları üzərində formalaşdırılır və mövcud biznes modellərinin təkrar şəkildə müəyyən edilməsi ilə əməliyyatları təkmilləşdirən, əhəmiyyətli xərclərə qənaət edilməsinə səbəb olan və həmçinin, rəqabət qabiliyyətini və effektivliyi yüksəldən elektron şəbəkə çevikliyini təmin edir. Elektron ticarət modern informasiya texnologiyalarına – qlobal elektron əməliyyatlara, elektron şəbəkə məkanına, həmçinin, virtuallaşdırma proseslərinə və bulud hesablamalarına, böyük verilənlərin (Big Data) emal edilməsi texnologiyalarına və şəbəkə dillərinə əsaslanır. Elektron kommersiya – məhz ən modern və eyni zamanda ən geniş yayılan biznes modellərindən bir dənəsidir [7, s.166-167].

Ümumilikdə, yerinə yetirdiyi funksiyalardan asılı olaraq e-kommersiya məhz aşağıdakılara bölünür [8]:

- onlayn mağazalar. Onlayn mağazalar elektron ticarət fəaliyyətinə əsaslanan və eyni zamanda həm də ənənəvi xidmət formasına malik mağazalara xas funksiyaları yerinə yetirən, müvafiq

avtomatlaşdırılmış sistemlərlə təhciz edilmiş və həmin sistemdən müştərilərlə alış-veriş, habelə kommunikasiya məqsədləri üçün istifadə edən mağazalardır;

- onlayn auksionlar – bunlar auksion ticarətinin prinsiplərini tənzimləyən avtomatlaşdırılmış sistemlərdir (məsələn, eBay);
- elektron birja – malların daimi olaraq topdansatış elektron bazarının formasıdır;
- elektron bazarlar;
- iri mallarla əməliyyatların bağlanması və maliyyə və ticarət əməliyyatlarının aparılması üçün elektron vasitəçi.

**Rəqəmsal biznes modelinin yaranmasına təsir göstərən faktor və tendensiyalar.**Beləliklə, yeni rəqəmsal biznes modellərinin formalaşmasına təsir göstərən əsas faktor və tendensiyaları aşağıdakı kimi göstərə bilərik:

1) internet və xüsusən də sosial media istifadəçilərinin sayının fəal şəkildə artması;

2) genişzolaqlı internetdən istifadə imkanlarının coğrafi məkan, yaş, cins və sairə kimi demoqrafik xüsusiyyətlərdən asılı olmayaraq hər kəs üçün əlçatanlığının artması;

